RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 256 (9711) 21 noyabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Türk dünyasının "yaşıl həmrəyliy"i




Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzaladılar. Bu sənədin əhəmiyyətini qeyd etmək üçün Prezident İlham Əliyevin imzalamadan sonra dediyi sözlərə diqqət edək: "Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və "yaşıl enerji" sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir. Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır".

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdı. Həmin vaxtdan da nəzərdə tutulan məsələlərin gerçəkləşməsi istiqamətində tədbirlər davam edir. Bir neçə ay əvvəl Rumıniya paytaxtında sazişin icrası məqsədilə 8-ci Nazirlər-Rəhbər Komitənin iclası keçirildi. Elə həmin tədbirdə də məlum oldu ki, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin nəticələrinin təqdimatının cari ilin noyabrında ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində nəzərdə tutulur. Buxarestdəki iclasda iştirak edən energetika naziri Pərviz Şahbazov bunları vurğulayaraq, həmçinin layihənin statusu, digər komponentləri, atılacaq növbəti addımlar, eləcə də Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında qurulacaq "yaşıl enerji" dəhlizinin inkişafı ilə bağlı fikirlərini bölüşdü.

→ 7

## COP29-a YAP-ın töhfəsi

Ötən əsrin 90-cı illərinə doğru hadisələrin xronologiyasına nəzər yetirək. Mixail Qorbaçov 1985-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçilməsi və Heydər Əliyevə qarşı qərəzli münasibətilə hadisələri arzuolunmaz vəziyyətə gətirdi. M.Qorbaçov Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevi özünə rəqib gördüyü üçün onu siyasi hakimiyyətdən uzaqlaşdırmaq yolunu tutdu. Nəticədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi.

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin təbiri ilə desək, bununla da Kremldəki yeganə və ən böyük qalamız yıxıldı. Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən əvvəl, ermənipərəst M.S.Qorbaçovun Azərbaycana qarşı çirkin siyasətini gerçəkləşdirmək üçün qabaqcadan düşünülmüş planlarını həyata keçirmək kimi niyyətindən irəli gəlirdi. Ulu Öndər Heydər Əliyev bu barədə demişdir: "Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" demiş və bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın "Qarabağ əməliyyatı" mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm".

Qorbaçovun əsas məqsədlərindən biri də Heydər Əliyevin Azərbaycanda başlamış milli azadlıq hərəkatına qoşulmasına mane olmaq idi. O bilirdi ki, Heydər Əliyevin bu hərəkata qoşulması hadisələri sürətləndirəcək. Belə bir məqamda o, 20 yanvar 1990-cı ildə Bakıya qoşun yeridərək xalqımızın azadlıq hərəkatını boğmağa çalışdı.

Ulu Öndər Heydər Əliyev siyasi fəaliyyətdən faktiki təcrid edilmiş vəziyyətdə olmasına baxmayaraq, törədilmiş bu ağır faciəyə laqeyd qalmadı. Qanlı 20 Yanvar faciəsinin ertəsi günü həyatını riskə ataraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi, bəyanatla çıxış edərək xalqımıza qarşı törədilmiş cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etdi.

→ 5

## Azərbaycan Haaqa Məhkəməsində Ermənistanla bağlı iddia qaldırıb

Bu iddia sənədi, 2023-cü il fevralın 27-də Azərbaycanın Ermənistana Arbitraj haqqında bildiriş göndərdiyi zaman başlamış beynəlxalq məhkəmə prosesi çərçivəsində son inkişafdır. Arbitraj Məhkəməsi 2023-cü il sentyabrın 8-də təsis edilib və Azərbaycanla Ermənistan arasında ilk prosessual görüş bu il yanvarın 12-də keçirilib.

Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin otuz ilə yaxın qanunsuz işğalı zamanı Azərbaycanın bu ərazilərdə öz enerji resurslarına çıxışına və ya onların inkişaf etdirilməsinə mane olub. Bunun əksinə, Ermənistan həmin resurslardan öz mənfəəti üçün istifadə edib.

→ 20

## COP29-da ən çox diqqətçəkən Azərbaycan pavilyonudur

### Xalqımızın milli adət-ənənələri ziyarətçilərdə böyük maraq doğurub




→ 9

## Həqiqəti yalana satanlar...

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının da yüksək səviyyədə təşkil ediləcəyi gözlənilən idi.

COP29-un başa çatmasına az qalıb. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına Azərbaycanın uğurla evsahibliyi etdiyi bütün dünyada vurğulanır. Tədbirin çox yaxşı təşkili, yüksək səviyyədə koordinasiya olunduğu, bir sözlə, ölkəmizin bu məsuliyyətli işin də öhdəsindən uğurla gəldiyi göz önündədir.

Qərəzli mövqe tutduqlarını açıq-aşkar büruzə verən, COP29-u gözdən salmağa cəhd göstərən bəzi ermənipərəst dairələr məqsədlərinə çata bilmədilər. Onların qarayaxma aksiyalarını, beynəlxalq media orqanlarında dərc edilmiş, hər sətrindən bədxahlıq, yalan, iftira yağan sifarişli məqalələrini Azərbaycan növbəti uğuru - dünyanın ən böyük və mötəbər beynəlxalq tədbirinə yüksək səviyyədə evsahibliyi etməsi ilə puça çıxardı. Onların bəd əməllərinə, qərəzkarlığına cavab olaraq bu gün ölkəmizdən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından dünyanın gələcəyini təhdid edən iqlim dəyişmələrinin fəsadlarından, qlobal problemlərdən xilas etməyə çağırışlar səslənir.

Dünya ictimaiyyətinin Azərbaycanın COP29-un yüksək səviyyədə təşkilatçılığını heyrətlə, hörmətlə seyr etdiyi vaxtlarda da xəbis niyyətli, riyakar, ağa qara deməkdən çəkinməyən diplomatlar yalanlarından utanmaq əvəzinə, bəd əməllərindən qalmırlar.

→ 14




COP29
Baku
Azerbaijan

# Baş nazir Əli Əsədov İranın mədəni irs, turizm və əl işləri sənayesi naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 20-də İran İslam Respublikasının mədəni irs, turizm və əl işləri sənayesi naziri Reza Salehi Amiri ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə COP29-un Bakıda yüksək səviyyədə təşkil olunduğu məmnunluqla vurğulanıb.

Azərbaycanın COP sədrliyi dövründə müəyyən etdiyi prioritetlərdən birinin də turizm sahəsində iqlim fəaliyyəti olduğu diqqətə çatdırılıb. Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin hazırkı vəziyyəti, həmçinin qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti MDB Parlamentlərarası Assambleyasının (MDB PA-nın) Şura və 57-ci Plenar iclaslarında iştirak etmək üçün noyabrın 20-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, "Pulkovo" Hava Limanında nümayəndə heyətini Sankt-Peterburq Qanunvericilik Məclisinin Qanunvericilik komitəsinin sədri Vsevolod Fedoroviç Belikov və MDB PA Şurasının baş katibi Dmitri Arkadyeviç Kobitski, Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev, Milli Məclisin MDB PA-dakı daimi nümayəndəsi Aydın Cəfərov və digər rəsmi şəxslər qarşılayıblar. Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın MDB PA-nın Şura və 57-ci Plenar iclaslarında çıxışı, tədbirdə iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

*"Azərbaycan"*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 480 **QƏRAR** Bakı şəhəri, 20 noyabr 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 324 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydaları"nın 7-ci hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 481 **QƏRAR** Bakı şəhəri, 20 noyabr 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qara və əlvan metal qırıntı və tullantıları ixracının tənzimlənməsi sahəsində əlavə tədbirlər və "Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyun tarixli 112 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 sentyabr tarixli 382 nömrəli, 25 sentyabr tarixli 443 nömrəli, 15 oktyabr tarixli 453 nömrəli və 31 oktyabr tarixli 467 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7402 00 000 0, 7403 12 000 0, 7403 13 000 0, 7403 19 000 0, 7403 21 000 0, 7403 22 000 0, 7403 29 000 0, 7405 00 000 0, 7407 10 000 0, 7407 29 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2024-cü il" sözləri "31.12.2029-cu il" sözləri ilə əvəz edilsin;

1.2. 7403 11 000 0, 7407 21 100 0, 7407 21 900 0, 7408 11 000 0, 7408 19 100 0, 7408 19 900 0, 7408 29 000 0, 7409 11 000 0, 7409 19 000 0, 7409 21 000 0, 7409 29 000 0, 7409 31 000 0, 7409 39 000 0, 7409 90 000 0, 7411 10 100 0, 7411 10 900 0, 7411 21 100 0, 7411 21 900 0, 7411 29 000 0, 7412 10 000 0, 7412 20 000 0, 7413 00 000 0, 7415 21 000 0, 7415 29 000 0, 7415 39 000 0, 7419 20 000 0, 7419 80 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununa "1000 kq - 15 ABŞ dolları" sözlərindən sonra ", 31.12.2029-cu il tarixinədək 1000 kq - 300 ABŞ dolları" sözləri əlavə edilsin.

2. Bu Qərarın 1.1-ci bəndi dərc edildiyi gündən 30 (otuz) gün sonra, 1.2-ci bəndi 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Vergi qanunvericiliyində investisiya cəlbediciliyi artırılır

**Noyabrın 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin payız sessiyasında növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitənin sədri Azər Əmiraslanov bildirib ki, gündəliyə birinci oxunuşda olan 4 qanun layihəsi daxildir. Gündəlikdəki birinci məsələ Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında birinci oxunuşda olan qanun layihəsidir. O qeyd edib ki, bu dəyişikliklər vergilərdə güzəştlərlə bağlıdır. Komitə sədri qanun layihəsi barədə fikirlərini bildirmək üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə söz verib.

Xidmət rəisi son illərdə vergi qanunvericiliyində və vergi inzibatçılığında aparılmış dəyişikliklərdən danışıb. Bildirib ki, təklif olunan dəyişikliklər biznesin və investisiya fəallığının dəstəklənməsinə yönəlmiş bir layihə paketidir. Bu dəyişikliklər vergi qanunvericiliyində investisiya cəlbediciliyinin artırılmasına yönəlib. Xidmət rəisi təklif olunan dəyişikliklərin istiqamətləri barədə danışaraq qeyd edib ki, bu, özəl sektorda çalışan bir çox sahibkarlar üçün vacib və gözləniləndir.

Sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Baş idarə rəisi Nicat İmanov slaydlar əsasında Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər paketi barədə ətraflı məlumat verib.

Layihənin əhatə dairəsi barədə danışan baş idarə rəisi bildirib ki, 5 istiqamət üzrə 37 əsas maddədə və 75 alt maddədə dəyişiklik nəzərdə tutulur. Bunlar investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması və uyğunlaşdırma xarakterli dəyişikliklərdir. Dəyişikliklərin "yaşıl iqtisadiyyat", tibbi turizm, avtomobil sənayesi və gəmiqayırma, ticarət şəbəkələri və bazarlar, mədəniyyət sektoru və dövlət-özəl tərəfdaşlığı sahələrində tətbiqi nəzərdə tutulur. Layihənin qəbulunda dövlət-özəl tərəfdaşlığı çərçivəsində iri investisiyaların cəlb edilməsi, "yaşıl iqtisadiyyat"ın dəstəklənməsi, o cümlədən ənənəvi nəqliyyat vasitələrindən ekoloji təmiz nəqliyyat vasitələrinə keçidin davam etdirilməsi, uçotsuz və qanunsuz sahibkarlığın dairəsinin məhdudlaşdırılması, bazarlar üzərində vergi uçot nəzarətinin təmin edilməsi, xidmət sahələri üzrə mikro sahibkarların vergi yükünün optimallaşdırılması, beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması, mədəniyyət sektoru, o cümlədən kino və teatr sahəsində inkişafın dəstəklənməsi və gəlirliliyin artırılması kimi nəticələr hədəflənib.

Sonra baş idarə rəisi sadalanan sahələrin hər biri üzrə ayrı-ayrılıqda nəzərdə tutulan dəyişiklikləri diqqətə çatdırıb.

Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin müzakirəsi zamanı çıxış edən deputatlar Vüqar Bayramov, Ziyad Səmədzadə, Əli Məsimli, Tahir Mirkişili, Müşfiq Cəfərov və Rövşən Muradov dəyişikliklərin ölkəmizdəki fiskal siyasətin mahiyyətinə uyğun olduğunu, Azərbaycanın iqtisadi təhlükəsizliyi üçün bir sıra məsələləri əhatə etdiyini diqqətə çatdırıblar, qeyd və təkliflərini səsləndiriblər.

İclasda çıxış edən Maliyyə Nazirliyinin şöbə müdiri Fikrət Şirinov Vergi Məcəlləsinə bu dəyişikliklərdə nəzərdə tutulan güzəştlərin dövlət büdcəsinə təsiri barədə məlumat verib.

Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli deputatların səsləndirdikləri məsələlərə münasibət bildirdikdən sonra Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, gündəliyin növbəti məsələləri birinci oxunuşda olan 3 qanun layihəsidir. Bunlar "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə, "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Bildirilib ki, bu qanun layihələrinə təklif olunan dəyişikliklər texniki, uyğunlaşdırma və təşviqetmə məqsədi daşıyır.

Sonra hər üç qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*"Azərbaycan"*

# Azərbaycan Prokurorluğunun veteranının yubileyi münasibətilə tədbir keçirilib

**Uzun müddət prokurorluq orqanlarında şərəfli xidmət yolu keçmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri və prokurorluğun veteranı Ruslan Hacıyevin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.**



Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə keçirilən tədbir zamanı Ruslan Hacıyevin prokurorluq orqanlarında keçdiyi xidmət illərinə nəzər salınaraq, onun qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı əldə etdiyi nailiyyətlər, həmçinin beynəlxalq əlaqələr, ekstradisiya və hüquqi yardım, daha sonra həmkarlar ittifaqı fəaliyyəti sahəsində uzunmüddətli səmərəli fəaliyyəti qeyd edilib.

Ruslan Hacıyev prokurorluq orqanlarında qulluq keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu bildirərək göstərilən diqqət və qayğıya görə öz dərin minnətdarlığını bildirib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və sonda xatirə şəkli çəkilib.

# Prokurorluğun işçilərinin hakim vəzifələrinə təyin edilməsi ilə əlaqədar tədbir təşkil olunub



**Hakimlik vəzifələrinə seçilməklə bağlı müsabiqədə müvəffəqiyyət əldə etmiş, Azərbaycan Respublikasının Prezidentinin 19 noyabr 2024-cü il tarixli sərəncamı ilə prokurorluq işçiləri Elvin Ələsgərovun Lənkəran Rayon Məhkəməsinin hakimi, Nazlı Heydərovanın isə Şəmkir Rayon Məhkəməsinin hakimi vəzifələrinə təyin edilməsi ilə əlaqədar tədbir keçirilib.**

Azərbaycan Respublikası baş prokurorunun birinci müavini Elçin Məmmədovun rəhbərliyi ilə keçirilən tədbirdə qeyd olunan prokurorluq əməkdaşları təbrik edilib. Baş prokurorun birinci müavini səmərəli fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdikləri nailiyyətlərə görə baş prokuror Kamran Əliyev tərəfindən verilmiş prokurorluğun fəxri fərmanını onlara təqdim edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşüb, səmimi söhbətlər edib və sonda xatirə şəkli çəkilib.

COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq





# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva COP29-da təqdim edilən inklüziv sərgi ilə tanış olublar





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi tərəfindən COP29-un "Yaşıl Zona"sındakı "Art Pavillion"da təqdim edilən sərgi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Mərkəzdə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi üçün aparılan işlər barədə məlumat verib.

Bildirilib ki, sərgidə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi və "DOST Evi" filialının həssas əhali qruplarına aid benefisiarları və təlimçilərinin 50-dən çox əl işi nümayiş etdirilir.

Əl işləri sırasında "yaşıl dünya"ya, ətraf mühitin mühafizəsinin, təbiəti qorumağın vacibliyinə həsr olunmuş sənət nümunələri də yer alıb.

Leyla Əliyeva və Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin əlilliyi olan şəxslərdən ibarət benefisiarlarının ifasında təqdim edilən konsert proqramını da izləyiblər.

Müslüm Müslümzadə, Səbinə Əsgərova, Xaliq Şərifov, Səməd Novruzov, Nurlan Əhmədov, Fərid Abdullayev tərəfindən Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri ifa olunub. Təqdim edilən sərgi və konsert proqramı böyük maraqla qarşılanıb.

Sonra Leyla Əliyeva və Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları ilə görüşərək onlarla söhbət edib, xatirə şəkilləri çəkdiriblər.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakıda ilk inklüziv iaşə obyekti olan "Kaşalata" kafeni ziyarət edib





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakıda əlilliyi olan gənclərin də çalışdığı ilk və yeganə inklüziv iaşə obyekti olan "Kaşalata" kafeni ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, kafenin həmtəsisçiləri Natavan Məmmədova və Aytən Eynalova qarşılayıblar.

Heydər Əliyev Fondunun vitse-prezidentinə əlilliyi olan şəxslərin inklüziv mühitdə məşğulluğuna dəstək məqsədilə yaradılan bu inklüziv kafenin fəaliyyəti barədə məlumat verilib. Qeyd olunub ki, Bakının Ü.Hacıbəyli küçəsi, 57 ünvanında yerləşən "Kaşalata" kafe "Birgə və Sağlam" İB-nin təşəbbüsü ilə təsis edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, KOBİA, SOCAR, "Pasha Holding" və "Trendyol Azərbaycan"ın dəstəyi ilə yaradılan "Kaşalata" kafedə



məşğulluğu təmin edilən 20 nəfər gəncdən 10 nəfəri əlilliyi olan şəxslərdir.

Leyla Əliyeva kafedə yaradılmış şərait və iş mühiti ilə tanış olub, burada məşğulluğu təmin edilmiş əlilliyi olan gənclərlə görüşərək onlarla söhbət edib.

Autizmli gənclərdən ibarət "Mavi Ürəklər" xor və ritm qrupu tərəfindən "Sən ey uşaqlıq" mahnısı ifa olunub. Autizmli şəxslər Leyla Əliyevaya hazırladıqları əl işlərini hədiyyə ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti "Kaşalata" inklüziv kafesinin əməkdaşları ilə xatirə fotoları çəkdirib.

COP29 Baku Azerbaijan

# Büdcə müzakirələri davam etdirilib

**Noyabrın 20-də Milli Məclisin Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Mədəniyyət komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin müavini Rafael Hüseynov çıxışında Azərbaycanın 33 illik müstəqillik tarixindən söz açıb. O bildirib ki, bu dövr ərzində əldə edilən ən böyük nailiyyətimiz müstəqillikdir və bu gün ölkəmiz müstəqil dövlət kimi güclü inkişaf yolundadır. Rafael Hüseynov 1991-1992-ci illəri xatırlayaraq, müstəqilliyimizin ilk illərində zəif olan büdcə və manatın gündən-günə dəyərdən düşdüyünü, lakin bu gün müzakirəyə təqdim olunan büdcənin 40 milyard manata yaxınlaşdığını bildirib. Bu artım Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir.

Rafael Hüseynov həmçinin Heydər Əliyevin müstəqilliyin ilk illərində ölkəmizi ağır vəziyyətdən çıxararaq, möhkəm təməllər üzərində inkişafını təmin etməyi bacardığını vurğulayıb. O, bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın bütün sahələrdə mühüm uğurlar qazandığını və güclü iqtisadiyyatın demokratik, hüquqi dövlətin əsası olduğunu qeyd edib. Həmçinin Azərbaycanın əldə etdiyi Zəfərin möhkəm iqtisadi potensiala əsaslandığını, ölkə rəhbərinin həm böyük siyasətçi, həm də iqtisadiyyatçı olduğunu bildirib.

Büdcə layihəsinin Maliyyə Nazirliyi və əlaqədar qurumların böyük zəhməti bahasına hazırlandığını deyən vitse-spiker xüsusi vurğulayıb ki, bu sənədin əsas müəllifi ölkə Prezidenti cənab İlham Əliyevdir.

Sonra söz alan maliyyə naziri Samir Şərifov çıxış edərək, əvvəlcə cari il sentyabrın 1-də keçirilmiş növbədənkənar parlament seçkilərindən sonra formalaşmış VII çağırış Milli Məclisin yeni tərkibini təbrik edib və deputatlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib.

Maliyyə naziri 2025-ci il dövlət və icmal büdcələrinin layihələrinin, həmçinin növbəti il üçün icmal büdcənin əsas göstəricilərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunduğunu bildirib. O deyib ki, layihə hazırlanarkən Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərinin ehtiva etdiyi məqsədlərin reallaşdırılması vəzifəsi rəhbər tutulub, gözlənilən meyillər, həmçinin qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin göstəricilərinə ehtimal olunan təsirləri nəzərə alınıb. Bu zaman əsas prioritetlər kimi ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur rayonlarının bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası və bu ərazilərə Böyük qayıdışın təmin edilməsi, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası əsas vəzifələr kimi qəbul edilib. Bununla yanaşı, əməkhaqqı, pensiya, sosial təminat, ünvanlı sosial yardım və təqaüd xərclərinin, səhiyyə, təhsil, mədəniyyət və ölkəmizin ərzaq təhlükəsizliyinin, beynəlxalq fəaliyyətlə əlaqədar xərclərinin, dövlət borcuna xidmətlə bağlı xərclərinin, bir sözlə, dövlətin əsas funksiyalarının yerinə yetirilməsi üçün tələb olunan bütün xərclərin maliyyə təminatı üçün müvafiq məbləğdə vəsait dövlət büdcəsində proqnozlaşdırılmışdır.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsinin xərcləri 41367,7 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 1625,0 milyon manat və ya 4,1 faiz çoxdur. Layihəyə əsasən, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38316,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 1928,0 milyon manat və yaxud 5,3 faiz çoxdur.

Dövlət gəlirlərinin 49 faizi və ya 18773,0 milyon manatı neft-qaz sektorunun, 51 faizi və ya 19543,0 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür, bu isə cari illə müqayisədə 924,0 milyon manat və yaxud 5 faizdən artıqdır.

Diqqətə çatdırılıb ki, Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti hesabına 14481,0 milyon manat gəlirlər təmin olunacaqdır. Gələn il vergi orqanlarının xətti ilə 15500,0 milyon manat məbləğində daxilolmalar nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 230,0 milyon manat və ya 1,5 faiz çoxdur. O cümlədən qeyri-neft sektoru üzrə 11670,0 milyon manat, cari illə müqayisədə 980,0 milyon manat və ya 9,2 faiz çox vəsaitin daxil olması nəzərdə tutulur. Gömrük orqanlarının xətti ilə büdcəyə 6600,0 milyon manat, cari illə müqayisədə 165,0 milyon manat və ya 2,6 faiz çox daxilolmanın təmin edilməsi nəzərdə tutulur.

2025-ci il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3052,0 milyon manat məbləğində nəzərdə tutulub. Cari illə müqayisədə 303,0 milyon manat və ya 9 faiz artacaqdır. Dövlət büdcəsi kəsirinin ÜDM-də xüsusi çəkisi 2,4 faiz təşkil edəcək. Büdcə kəsirinin maliyyələşdirilməsi ənənəvi mənbələr hesabına - özəlləşmədən daxilolmalar, daxili və xarici borclanma və 2025-ci ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının və məqsədli büdcə fondlarının sərbəst qalığı hesabına örtülməsi nəzərdə tutulur.

Qeyd olunub ki, ölkə Prezidenti gələn ilin əsas prioritetləri sırasına ölkənin hərbi potensialının gücləndirilməsi, milli təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması və hərbi sənaye kompleksinin inkişafı ilə bağlı xərcləri daxil etmişdir. Bu tapşırıqlardan irəli gələn vəzifələrin icrası, eləcə də son vaxtlar Ermənistanın genişmiqyaslı militarizasiya siyasətinə qarşı cavab tədbirlərinin görülməsi məqsədilə ölkəmizin müdafiə və milli təhlükəsizlik xərclərinin artırılmasına xüsusi diqqət yetirilməsi vacibdir. Buna əsasən, müdafiə və milli təhlükəsizliklə bağlı xərclərə 20,3 faiz həcmində və ya 8396,0 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Bu 2024-cü ilin proqnozu ilə müqayisədə 17,8 faiz və ya 1270,0 milyon manat çoxdur.

Bu il olduğu kimi, növbəti ilin prioritet xərcləri sırasında xüsusi yer verilən istiqamətlərdən biri də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün 4 milyard manat vəsait nəzərdə tutulub.

Digər prioritet istiqamət - Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulmuş sosialyönümlü tədbirlərin maliyyələşdirilməsi üçün 893 milyon manat və investisiyayönümlü layihələr üçün 1100,0 milyon manat, cəm olaraq 1993,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası üçün 150 milyon manat vəsait ayrılacaq.



Diqqətə çatdırılıb ki, vətəndaşların rifahının yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi də növbəti ildə prioritet məsələlər olaraq nəzərdə saxlanılır. Belə ki, 2025-ci il üçün dövlət büdcəsinin sosialyönümlü xərcləri 2024-cü illə müqayisədə 1370,0 milyon manat və ya 8,8 faiz artırılaraq 16910,0 milyon manata çatdırılır. Bu dövlət büdcəsinin xərclərinin tərkibində sosialyönümlü xərclərin dövlət büdcəsində çəkisi 41 faizə qədər yüksələcəkdir. Əməkhaqqı, pensiya və sosial müavinətlər, ünvanlı sosial yardım və təqaüd xərcləri üzrə minimum əməkhaqqı, minimum pensiya, minimum ehtiyac meyarı, yaşayış minimumunun artımları üçün müvafiq məbləğdə vəsait nəzərdə tutulub.

Bildirilib ki, büdcə layihəsində digər prioritet sahə olan - təhsil xərclərinə 4946,0 milyon manat proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 396,0 milyon manat və ya 8,7 faiz çoxdur. Gələn il dövlət və icmal büdcələrində səhiyyə xərcləri üçün ümumilikdə 3525,0 milyon manat vəsait nəzərdə tutulur ki, bu da 2024-cü ilə nisbətən 5,3 faiz çox deməkdir. Səhiyyə xərclərinin dövlət büdcəsində çəkisi 4,8 faiz olmaqla, 2024-cü ilə nisbətən 0,1 faizdən çox yüksələcəkdir.

Diqqətə çatdırılıb ki, sosial müdafiə və sosial təminat xərcləri üçün 4812,0 milyon manat vəsaitin ayrılması planlaşdırılır ki, bu da 2024-cü illə müqayisədə 9,6 faiz və ya 420,0 milyon manat çoxdur. Bir sıra təqaüdlərin maliyyələşdirilməsi üçün 1943,0 milyon manat, ünvanlı dövlət sosial yardımların verilməsi üçün 457,0 milyon manatın ayrılması nəzərdə tutulub. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,5 faiz olmaqla 635,0 milyon manat təşkil edəcək ki, bu da cari illə müqayisədə 60,0 milyon manat və yaxud 10,4 faiz çox deməkdir. Növbəti ildə muzeylərin, qoruqların, kitabxanaların, mədəniyyət mərkəzlərinin, habelə musiqi kollektivlərinin maliyyə təminatı, kino ilə bağlı xərclər, həmçinin xarici ölkələrdəki mədəniyyət mərkəzlərinin saxlanması üçün 242,0 milyon manat nəzərdə tutulub. Bədən tərbiyəsi və gənclər siyasəti xərcləri üçün 69,0 milyon manat, cari illə müqayisədə 20,0 milyon manat, 39,5 faiz çox vəsait nəzərdə tutulub. Turizm fəaliyyətinin stimullaşdırılması üçün 65,0 milyon manatın ayrılması nəzərdə tutulub.

İclasda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2025-ci il üçün dövlət büdcəsi layihəsinə dair palatanın rəyini səsləndirib. O, büdcə parametrlərini formalaşdıran makroiqtisadi proqnozlar, habelə büdcə parametrlərinin layihələndirildiyi dövrdə ölkədə makroiqtisadi meyillər barədə söhbət açıb. Büdcə zərfinə daxil edilən sənəd və göstəricilərin "Büdcə sistemi haqqında" qanuna, büdcə zərfinin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olduğunu, büdcə sənədləşməsinin beynəlxalq təcrübəyə əsaslandığını deyib.

Palata sədri büdcənin gəlirləri və xərcləri, kəsiri, fiskal risklər, neftin qiyməti, icmal büdcənin təhlili, ortamüddətli büdcə planlaşdırılması ilə bağlı qeydlərini diqqətə çatdırıb. Vüqar Gülməmmədov bildirib ki, rəyin hazırlanması prosesində müvafiq dövlət orqanları ilə müzakirələr əsasında büdcə zərfinin məlumat və göstəricilərinə düzəlişlər edilib, Hesablama Palatasının əvvəlki göstəricilərində qeyd edilmiş məsələlər tam və ya qismən nəzərə alınıb. Təhlillər qanun layihəsində əks etdirilmiş dövlət büdcəsinin gəlir və xərclərinin əsasən düzgün proqnozlaşdırıldığını deməyə əsas verir. 2025-ci ilin baza ssenarisi üzrə proqnozları növbəti il ölkədə əlverişli makroiqtisadi mühitin, o cümlədən iqtisadi artım, məqbul inflyasiya, profisitli tədiyə balansı və sabit məzənnənin müşahidə ediləcəyini göstərir.

Sonra iclasda Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, deputatlardan Azay Quliyev, Göydəniz Qəhrəmanov, Tənzilə Rüstəmxanlı, Azər Allahverənov, Şahin Seyidzadə, Ceyhun Məmmədov, Novruzəli Aslanov çıxış edərək, növbəti ilin dövlət büdcəsinin layihəsinin yüksək səviyyədə hazırlandığını qeyd ediblər. Çıxış edənlər təqdim olunan sənədlə bağlı bəzi fikirlərini, rəy və təkliflərini bildiriblər, suallarını səsləndiriblər.

Maliyyə naziri Samir Şərifov, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, səsləndirilən sualları cavablandırıblar.

Milli Məclis Sədrinin müavini Rafael Hüseynov iclasa yekun vuraraq, növbəti ilin büdcə layihəsi ilə bağlı səmərəli müzakirələrin keçirildiyini qeyd edib.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Noyabrın 20-də Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclası keçirilib.

Milli Məclis Sədrinin müavini Musa Qasımlı iclası açaraq, tədbirdə "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını deyib. O, Azərbaycanda ən yüksək səviyyədə təşkil edilən dünyanın mötəbər tədbirlərindən olan COP29-la eyni vaxtda gələn ilin büdcə layihəsinin müzakirələrinin keçirilməsini cənab Prezident İlham Əliyevin mükəmməl dövlət və hökumət idarəçiliyinin təzahürü kimi qiymətləndirib. Musa Qasımlı gələn ilin büdcə layihəsinin spiker Sahibə Qafarovanın tövsiyəsinə uyğun olaraq Milli Məclisdə səmərəli və geniş müzakirələrinin keçirilməsini parlamentlə hökumət arasında qurulmuş işgüzar münasibətlərin göstəricisi kimi dəyərləndirib.

Vitse-spiker büdcə layihəsinin qanunvericiliyə uyğun olaraq tərtib edildiyini, layihənin milli maraqlarımıza, ölkə Prezidentinin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair müəyyən etdiyi 5 Milli Prioritetə, nəzərdə tutulmuş digər dövlət proqramlarında qarşıya qoyulan hədəflərə cavab verdiyini deyib. Vurğulanıb ki, dövlətimiz və millətimiz üçün ən vacib məsələlərdən biri olan işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və vətəndaşlarımızın dədə-baba torpaqlarına qayıtması büdcə layihəsində xüsusi yer tutur.

Bildirilib ki, dövlətimizin müdafiəsi, milli təhlükəsizliyi və inkişafı bir-biri ilə sıx şəkildə bağlı olduğundan büdcə layihəsində müdafiə və təhlükəsizliyə ayrılan vəsaitlərin artırılması ümummilli maraqlarımızın təmin edilməsinə yönəldilib. Musa Qasımlı deyib ki, vətəndaşın mənafeyi, onun sosial rifahı dövlətimizin siyasətində başlıca yerdə dayandığından layihədə sosialyönümlü xərclərin artırılması əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Musa Qasımlı bildirib ki, təhsilin hamı üçün əlçatan olması möhtərəm cənab Prezidentimiz İlham Əliyevin siyasətinin vacib tərkib hissələrindən biri olduğundan büdcə layihəsində təhsil xərclərinin 750 milyon 700 min manatının və ya 15, 2 faizinin ali təhsil və dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi üçün nəzərdə tutulması dövlətimizin vətəndaşlara, təhsil almaq istəyən hər bir şəxsə xüsusi qayğısının göstəricilərindən biridir.

Layihədə elmin inkişafına da xərclərin artırılması proqnozlaşdırılır. Həmçinin ailənin qorunmasına xüsusi diqqət yetirən dövlətimiz bu sahədə bir sıra ciddi tədbirlər görür və gələn il üçün bu məqsədlərə də vəsaitin artırılması nəzərdə tutulub. Vitse-spiker layihədə kənd təsərrüfatı sahəsinə ayrılan vəsaitin artırılmasını qeyri-neft sektorunun inkişafına və ərzaq təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə xidmət edəcəyini vurğulayıb.

Sonra iclasda maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib. O diqqətə çatdırıb ki, 2025-ci il üzrə dövlət və icmal büdcələrinin layihələri, sonrakı üç il üçün icmal büdcənin əsas göstəriciləri Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi ölkəmizin prioritet inkişaf istiqamətlərini və hədəflərini özündə ehtiva edir.

2025-ci il dövlət büdcəsinin əsas parametrləri ilə bağlı diqqətə çatdırıb ki, növbəti ildə dövlət büdcəsinin gəlirləri 5,3 faiz artırılaraq 38 milyard 316 milyon manat, xərcləri isə 4,1 faiz artırılaraq 41 milyard 367,6 milyon manat proqnozlaşdırılır. O qeyd edib ki, büdcə gəlirlərinin artması ölkə iqtisadiyyatının inkişafının və dayanıqlılığının göstəricisidir. Büdcə xərclərinin artırılması isə hökumətin insanların rifah halının yaxşılaşdırılması üçün əlavə tədbirlər keçirmək və buna nail olmaq niyyətini özündə ehtiva edir.

Dövlət büdcəsinin kəsiri 3 milyard 52 milyon manat proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 9 faizi azdır. Maliyyə naziri gəlirlərin formalaşma mənbələri və parametrləri barədə ətraflı məlumat verib, büdcə xərclərinin strukturunu diqqətə çatdırıb. Bildirilib ki, növbəti ilin prioritet xərclərində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı xərclər xüsusi əhəmiyyət kəsb edir. Qeyd edilib ki, ənənəvi olaraq 2025-ci ildə də sosialyönümlü xərclər prioritet təşkil edəcək. Növbəti ilin dövlət büdcəsində bu xərclər 16 milyard 910 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 1 milyard 370 milyon manat və ya 9 faizə yaxın çoxdur. Əməkhaqqı, pensiya və sosial müavinətlər, ünvanlı sosial yardım və təqaüd xərcləri üzrə minimum əməkhaqqı, minimum pensiya, minimum ehtiyac meyarı, yaşayış minimumunun artımları üçün müvafiq məbləğdə vəsait nəzərdə tutulub.

Növbəti ildə təhsil xərclərinə 4 milyard 946 milyon manat vəsait ayrılacaq və bu, cari illə müqayisədə 8,7 faiz çoxdur. Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq üçün tələbə kreditlərinin verilməsi üçün növbəti ilin büdcəsində Təhsil Tələbə Kredit Fondunun nizamnamə kapitalının 126 milyon manata çatdırılması nəzərdə tutulur. Elmin maliyyələşdirilməsi üçünsə 244,4 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2024-cü illə müqayisədə 3,5 faiz çoxdur.

Gələn ilin büdcəsində məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, sağlamlıq imkanları məhdud olan şəxslər və onların ailə üzvləri ilə sosial-psixoloji, pedaqoji işin təşkili, həmçinin uşaq və ailələrə dəstək mərkəzlərinin saxlanılması ilə bağlı tədbirlər üçün 7,4 milyon manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulub. Eyni zamanda kənd təsərrüfatı xərcləri üçün 1 milyard 172 milyon manat vəsait nəzərdə tutulub. Nazir bildirib ki, kənd təsərrüfatı xərclərinin 45 faizi və yaxud 528 milyon manatı ölkənin ərzaq təhlükəsizliyi tədbirlərinin maliyyə təminatına sərf ediləcək.

Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, müasir suvarma üsullarının tətbiqinə, subartezian quyularının saxlanılmasına və digər meliorasiya tədbirlərinə xərclərin 43,6 faizi və yaxud 511 milyon manatı yönəldiləcək. Cari illə müqayisədə bu göstərici 11 milyon manat çox deməkdir. Digər kənd təsərrüfatı tədbirləri üçün 133 milyon manat və ya xərclərinin 11,4 faizi həcmində vəsait ayrılacaq. Buraya baytarlıq tədbirləri, kənd təsərrüfatı heyvanlarının, bitkilərin sığortalanması və kənd təsərrüfatı sahəsində maddi-texniki təminatın möhkəmləndirilməsi kimi tədbirlər daxildir. Çıxışının sonunda nazir icmal büdcənin parametrlərini diqqətə çatdırıb.

Sonra elm və təhsil naziri Emin Əmrullayev çıxış edib, 2025-ci ilin dövlət büdcəsində elm və təhsilə ayrılan vəsaitlərlə bağlı fikirlərini bölüşüb. Son ildə tikilən və təmir edilən məktəb binaları və məktəbəqədər təhsil müəssisələri barədə məlumat verən nazir bildirib ki, növbəti ildə təhsil xərcləri üçün ayrılmış vəsaitin 2 milyard 395 milyon manatı və ya 47,5 faizi ümumi təhsil xərcləri üçün nəzərdə tutulub. Məktəbəqədər təhsilə 467,4 milyon manat və ya cari illə müqayisədə 3,6 faiz çox vəsait yönəldiləcək.

Təhsilin adambaşına maliyyələşməsi tədbirlərindən söz açan təhsil naziri ali təhsildə əhatəliliyin artırılmasından danışıb, peşə təhsilində keyfiyyətin artırılması üzrə planların icrasının davam etdirildiyini vurğulayıb.

Tədbirdə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2025-ci il üçün dövlət büdcəsi layihəsinə dair palatanın rəyini səsləndirib. Palata sədri gələn il üçün dövlət büdcəsi gəlirlərinin və xərclərinin, habelə büdcə kəsiri və kəsirin maliyyələşdirilməsinin təhlilini təqdim edib, bəzi qeydlərini açıqlayıb.

Sonra iclasda Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxış ediblər.

2025-ci ilin dövlət büdcə layihəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun tərtib olunduğunu qeyd edən komitə sədrləri layihəni gələn ilin sosial-iqtisadi inkişafının maliyyə planı, həmçinin bir siyasi əhəmiyyətli sənəd kimi yüksək qiymətləndiriblər, büdcədə müdafiə və milli təhlükəsizlik məsələlərinə kifayət qədər vəsaitin ayrılmasını günün reallığından irəli gəldiyini vurğulayıblar. Çıxışlarda gələn ilin büdcə layihəsində elm və təhsilə ayrılan xərclərin artırılması təqdirlə qarşılanıb, aqrar sahəyə ayrılan xərclərin məqsədəmüvafiq olduğu, aqrar sektorun yüksəldilməsinə xidmət edəcəyi vurğulanıb, ailələrin, uşaqların sosial müdafiəsi, sosial xidmət müəssisələrinin saxlanılması kimi tədbirlərin önə çəkilməsi yüksək dəyərləndirilib. Çıxışlarda bir sıra qeyd və təkliflər səsləndirilib.

Sonra iclasda Aqrar siyasət komitəsi sədrinin müavini Razi Nurullayev, Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, deputatlar Bəxtiyar Əliyev, Şahin Seyidzadə, Aydın Hüseynov, Elçin Mirzəbəyli, Ceyhun Məmmədov, Mehriban Vəliyeva, Günay Ağamalıyeva, Vasif Qafarov çıxış ediblər, 2025-ci ilin büdcə layihəsi barədə öz fikirlərini və bəzi qeydlərini bildiriblər.

Maliyyə naziri Samir Şərifov, elm və təhsil naziri Emin Əmrullayev səsləndirilən fikirlərə münasibət bildiriblər.

Milli Məclis Sədrinin müavini Musa Qasımlı iclasa yekun vuraraq növbəti ilin büdcə layihəsi ilə bağlı səmərəli müzakirələrin keçirildiyini vurğulayıb.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda Milli Məclisin deputatları, aidiyyəti qurumların struktur bölmələrinin rəhbərləri və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

COP29 Baku Azerbaijan

# COP29: keçmişdən gələcəyə şanlı keçid




## COP29-a YAP-ın töhfəsi

Yeni Azərbaycan Partiyasının yaradılmasının 32-ci ili tamam olur. Hər il biz YAP-ın yaranması ilə bağlı düşüncələrimizi bölüşərkən, həm də təbii olaraq ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızda mövcud olmuş tarixi şəraitə və reallığa nəzər salırıq.

Bu zaman YAP-ın yaradılmasını şərtləndirən şəraitin öyrənilməsinin müasir Azərbaycanın tarixində nə qədər önəmli yer tutduğunu bir daha dərk edirik. Çünki həmin tarixi şəraitdə hadisələrin mərkəzində olan siyasi dühа dünyaşöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev idi.

Ötən əsrin 90-cı illərinə doğru hadisələrin xronologiyasına nəzər yetirək. Mixail Qorbaçov 1985-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçilməsi və Heydər Əliyevə qarşı qərəzli münasibətilə hadisələri arzuolunmaz vəziyyətə gətirdi. M.Qorbaçov Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevi özünə rəqib gördüyü üçün onu siyasi hakimiyyətdən uzaqlaşdırmaq yolunu tutdu. Nəticədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi.

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin təbiri ilə desək, bununla da Kremldəki yeganə və ən böyük qalamız yıxıldı. Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən əvvəl, ermənipərəst M.S.Qorbaçovun Azərbaycana qarşı çirkin siyasətini gerçəkləşdirmək üçün qabaqcadan düşünülmüş planlarını həyata keçirmək kimi niyyətindən irəli gəlirdi. Ulu Öndər Heydər Əliyev bu barədə demişdir: "Siyasi bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" - demiş və bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın "Qarabağ əməliyyatı" mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm".

Qorbaçovun əsas məqsədlərindən biri də Heydər Əliyevin Azərbaycanda başlamış milli azadlıq hərəkatına qoşulmasına mane olmaq idi. O bilirdi ki, Heydər Əliyevin bu hərəkata qoşulması hadisələri sürətləndirəcək. Belə bir məqamda o, 20 yanvar 1990-cı ildə Bakıya qoşun yeridərək xalqımızın azadlıq hərəkatını boğmağa çalışdı.

Ulu Öndər Heydər Əliyev siyasi fəaliyyətdən faktiki təcrid edilmiş vəziyyətdə olmasına baxmayaraq, törədilmiş bu ağır faciəyə laqeyd qalmadı. Qanlı 20 Yanvar faciəsinin ertəsi günü həyatını riskə ataraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi, bəyanatla çıxış edərək xalqımıza qarşı törədilmiş cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etdi.

Heydər Əliyevin bu fəaliyyəti Azərbaycan hakimiyyətində olan manqurtları narahat edirdi. Onlar bu fəaliyyəti görməzlikdən gəlməklə Heydər Əliyevin böyüklüyünü gizlətməyə çalışır, Qorbaçov tərəfindən irəli sürülmüş təcridetmə siyasətinə kölə kimi xidmət edirdilər.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyevin Bakıda qalmasına həmin dövrün siyasi hakimiyyəti bütün cəhdlə mane oldu. Hətta Bakıda hava limanında onun həyatına sui-qəsd cəhdi edildi. Heydər Əliyev Bakını tərk etmək məcburiyyətində qalaraq Naxçıvana getməli oldu. Bir müddətdən sonra yerli əhali Heydər Əliyevin Naxçıvan Ali Məclisinə alternativsiz olaraq namizədliyini irəli sürdü və o, deputat seçildi.

Heydər Əliyev Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi. Hakimiyyət iddiasında olan bütün qüvvələr Heydər Əliyevin böyük siyasətə qayıdışını istəmirdilər. Amma artıq Heydər Əliyev Naxçıvan Ali Məclisindəki fəaliyyəti ilə özünün müstəqillik ideyalarını gerçəkləşdirməyə başlamışdı.

Müstəqil yaşaya bilməyəcəyimizi deyən Ayaz Mütəllibov Azərbaycanın formal olaraq prezidenti seçilməklə ittifaqın bərpa olunmasına çalışırdı. O vaxt "Biz müstəqil yaşamağa qadirikmi?" ritorik sualı qarşısında siyasi qüvvələr iki hissəyə bölünmüşdülər. Bir tərəfdə, qeyd etdiyimiz kimi, müstəqillik carçılarının lideri Heydər Əliyev, digər tərəfdə isə köləlik sevdalıları mütəllibovçular dururdu. Heydər Əliyev yüz illərlə aktual olan və tarixi şüura söykənən bu məsələyə birmənalı qiymət verirdi - Azərbaycan müstəqil olmağa qadirdir.

AXC üzvləri isə cidd-cəhdlə hakimiyyətə gəlmək istəyirdilər. Yeni ittifaq müqaviləsinin Azərbaycanın Ali Sovetində müzakirəsi aparılırdı. Bu ərəfədə Ali Sovet o dövrdəki hakimiyyəti və Moskvanı müdafiə etmək məqsədilə bir çox qeyri-demokratik qərarlar qəbul etdi. Bunlardan biri də Heydər Əliyevin siyasi fəaliyyətinə imkan verməmək üçün Naxçıvan MR parlamenti sədrinin Azərbaycan parlamenti sədrinin müavini olması qaydasının ləğv edilməsi idi. Sonrakı addım prezident seçkisi üçün yaş senzinin müəyyənləşdirilməsi oldu. Təəssüf ki, həmin vaxt "demokratik" cəbhəni təmsil edənlər sonradan hakimiyyətləri dövründə də öz üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilmədilər və əvvəlki hakimiyyətin yolunu davam etdirdilər.

Bütün bu təzyiqlərə baxmayaraq, Heydər Əliyev 7 mart 1991-ci ildə Ali Sovetin sessiyasında ittifaq müqaviləsinin rədd olunmasını təkidlə tələb edərək Azərbaycanın yolunun yalnız müstəqillik olduğunu bildirdi. Həmin vaxt Heydər Əliyev demişdi: "Yeni ittifaq müqaviləsi ilə əlaqədar olaraq təyin olunmuş referendumda iştirak etmək və ya etməmək çox mühüm məsələdir. Azərbaycan xalqının gələcək taleyi həll olunur. Ona görə də mülahizə və təkliflərimi mən də bildirmək istəyirəm. Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai, siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirmiş, Sovet İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların ittifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri ittifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir. İttifaq dağılmağa başlamışdır".

Heydər Əliyev bu tarixi çıxışında SSRİ rəhbərliyində olmuş bir şəxs kimi sovetlər birliyinin siyasi anatomiyasını açaraq onun imperialist bir dövlət olduğunu ifşa etdi. SSRİ-nin rəhbəri M.Qorbaçovun əsl niyyətini ifşa edən Heydər Əliyev deyirdi: "Ölkənin rəhbərliyi yetmiş il mövcud olan ittifaqın yararsız olduğunu bəyan edərək, respublikaları yeni ittifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdir ki, guya ölkədə indiyə qədər həqiqi ittifaq olmayıb, respublikalar heç də ittifaqda yaşamayıb, əsl ittifaq bundan sonra yaranacaqdır. Həqiqəti isə desək, yeni ittifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır".

Heydər Əliyev deyirdi ki, Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır: "Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır". Onun müstəqilliklə bağlı fikirləri gənc nəslin ürəyini riqqətə gətirir, gənclərdə müstəqillik ideyalarını gerçəkləşdirəcək siyasi liderin məhz Heydər Əliyev olduğu qənaətini möhkəmləndirdi.

Yeni Azərbaycan Partiyasının yaradılması zərurətindən danışarkən yaş senzinə qarşı mübarizədə fəallıq edən azsaylı vətənsevər, cəsarət sahibi olan şəxslərin fəaliyyətini qeyd etməmək mümkün deyil. Konstitusiyada 121-ci maddə ilə "yaş senzi" maneəsi yaradan bəzi qüvvələr xalqın Heydər Əliyevin hakimiyyətə qayıdışı tələbinin gerçəkləşməsinin qarşısını almağa cəhd edirdilər. Ağır vəziyyətə dözməyən insanlar qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi dövlət xadiminin yenidən böyük siyasətə qayıdışını tələb edirdilər. Yaddaqalan əsas məqamlardan biri də bu oldu ki, mübariz insanlar etiraz aksiyaları təşkil etməklə heç kimdən qorxmadan, hətta repressiya təhlükəsinin olmasına baxmayaraq, öz mübarizələrini sona qədər davam etdirdilər. O dövrün mətbuatını izlədikdə vəziyyətin nə dərəcədə eybəcər olduğunu görməmək mümkün deyil. Mətbuatda yaş senzinə qarşı etiraz edənlər lağa qoyulur, onlara istehza edilirdi.

Lakin Azərbaycanın vətənpərvər gəncliyi Heydər Əliyev dühasının xalqımızı bu fəlakətli vəziyyət-



dən qurtara biləcəyinə inanırdı. Azərbaycanın yetkin düşüncəli gəncləri bütün təhdidlərə baxmayaraq, öz işıqlı gələcəklərinin dalınca gedirdilər. Bir tərəfdən Moskvaya müti qul kimi xidmət edənlər, digər tərəfdən hakimiyyətə can atan AXC-Müsavat cütlüyü Heydər Əliyev fenomenini görməzdən gəlməyə çalışır, onun heç cür siyasət səhnəsinə qayıtmasını istəmirdilər. Hadisələrin gedişi isə xalqın gerçək liderinin gəlişinə zəmin yaradırdı.

1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 ziyalısı Heydər Əliyevə mətbuatda müraciət etdi. Sözügedən müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Təbii ki, Ulu Öndər Heydər Əliyevin xalq tərəfindən təkidlə hakimiyyətə dəvət edilməsinin çox səbəbləri var idi. 1970-80-ci illərdə həyata keçirdiyi tədbirlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri, ən ağır məqamlarda daim xalqla birlikdə olması, cəsarət göstərərək 20 Yanvar hadisələrinə qiymət verməsi, Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə bu bölgəmizin düşməndən qorunması, 3 sentyabr 1991-ci il sessiyasında Naxçıvan Ali Sovetində "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edilərək Kommunist Partiyasının fəaliyyətinin dayandırılması haqqındakı qərar, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi qəbul edilməsi, Naxçıvan MSSR adından "Sovet Sosialist" sözlərinin çıxarılması və s. onun 1993-cü ildə xilaskarlıq missiyasını da uğurla həyata keçirəcəyinə inamı daha artırırdı.

Müstəqilliyin ilk illərində respublikamızda xaos, anarxiya yaranmış və daxili çəkişmələr özünün pik nöqtəsinə çatmışdı. Vəziyyət o qədər gərgin və idarəolunmaz idi ki, hətta o zaman ölkəyə "rəhbərlik" edən "kor" qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər.

Heydər Əliyev o illərdə ölkədə siyasi hakimiyyətə gəlmək istəyində olmasa da, respublikanın siyasi-ictimai həyatındakı proseslər onu həddindən artıq narahat edirdi. Real vəziyyəti bir daha dərindən və hərtərəfli təhlil edən Naxçıvan Ali Məclisinin Sədri xalqın taleyi üçün narahat olan ziyalıların müraciətini cavabsız qoymadı. Beləliklə, Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına və sədrlik etməsinə müsbət cavab verdi. Onun respublika ziyalılarının müraciətinə cavabı Heydər Əliyev şəxsiyyətinin əqidə manifestidir. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılığını belə ifadə etdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Bundan sonra 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirilən konfransda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın siyasi həyatında canlanma yaratdı. Lakin yenə də maneələr davam edirdi. Amma YAP-ı siyasi sferada məhdudlaşdırmaq cəhdləri uğursuzluğa düçar oldu. Artıq geniş xalq kütləsi böyük siyasət adamının meydanda olmasını sevinclə qarşılayır və ümidləri artırırdı. Xalq Yeni Azərbaycan Partiyasını geniş şəkildə dəstəkləməyə başladı. Həmin tarixi hadisələri dəyərləndirən Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Xalqın Ümummilli Lideri Heydər Əliyevə olan inamı tez bir zamanda siyasi səhnədə parlayan YAP-ın tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan yaratdı. Azərbaycan xalqının Heydər Əliyevə göstərdiyi yüksək etimad YAP-ın qısa zamanda təşkilatlanmasına, ölkənin bütün regionlarında dayaqlarının yaradılmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Xalqın inamı və sevgisi nəticəsində partiyanın yaradılmasından 7 ay sonra Heydər Əliyev siyasi hakimiyyətə gəldi. Bu, siyasi həyatda nadir hadisələrdən biri kimi Azərbaycan politoloji tarixinə yazıldı. Belə bir tarixi gerçəklik şəraitində partiya özünü xalqa identifikasiya etməyi bacardı.

Xalqını və dövlətini hər şeydən üstün tutan dahi liderin iyunun 9-da Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Ümummilli Lider Azərbaycan dövlətçiliyini xilas etdi, onun növbəti yüksəlişinin əsasını qoydu. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətimizin bütün sahələrində - siyasi, iqtisadi və mədəni sahələrdə baş verən cahanşümul transformasiya prosesləri Azərbaycanın dünya birliyində tanınmasına və özünə layiq yer tutmasına güclü təkan verdi.

Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi prioritetlər partiyanın Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, ictimai-siyasi sabitlik, milli həmrəyliyi, sosialyönümlü iqtisadiyyatının formalaşmasında əsas fəaliyyət istiqaməti olmuşdur. Bütün bunlar dahi siyasətçi Heydər Əliyevin adı ilə bağlı idi.

Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyev partiyanın VII Qurultayında çıxış edərək bu barədə deyib: "Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi".

1993-cü ildə ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşdə Ulu Öndər bildirmişdir: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik". 2005-ci ilin mart ayında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini cənab İlham Əliyevin partiyanın sədri seçilməsi ilə Heydər Əliyevin gənclərə yönəlik fikirləri daha çox gerçəkləşməyə başladı. Eyni zamanda Prezident İlham Əliyevin YAP-ın Sədri seçilməsindən sonra gənclər daha çox partiyaya maraq göstərməyə başladılar. Bundan sonra partiyada gənclərin sayı artmağa başladı. Təsadüfi deyil ki, bu gün partiya üzvlərinin 300 minə yaxın hissəsini gənclər təşkil edir.

Heydər Əliyev şəxsiyyətinin gücü hər kəsə yaxşı bəllidir. Bu güc xalqın gücü ilə birləşdikdən sonra qarşısıalınmaz bir qüvvəyə çevrildi və dağılmaq üzrə olan bir məmləkət sabitlik və quruculuq dövrünə qədəm qoydu. Bu gün Heydər Əliyev ideyalarına və siyasi kursuna daim sədaqətlə xidmət edən 730 mindən çox üzvü olan YAP təkcə Azərbaycanın yox, bütövlükdə, regionun ən güclü siyasi partiyasıdır.

YAP-ın siyasi həyatında Birinci vitse-prezident Mehriban Əliyevanın da rolu danılmazdır. Mehriban Əliyevanın partiya sıralarında yüksək səviyyədə təmsil olunması Azərbaycanda humanizm prinsiplərinin daha da genişlənməsinə böyük bir töhfədir.

Prezident İlham Əliyevin 2018-ci il mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda müstəqillik haqqındakı sözləri çox düşündürücüdür. Cənab Prezident demişdir: "Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan, demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir".

Danılmaz faktdır ki, müasir, müstəqil Azərbaycanın həyatının ən möhtəşəm anlarını, uğurlarını və tarixi qələbələrini məhz partiyamızın yaradıcısı, Ümummilli Lider Heydər Əliyev və onun layiqli varisi cənab İlham Əliyev yazıb. Ümummilli Lider müstəqil Azərbaycan dövlətini qurdu, onun layiqli davamçısı isə torpaqlarımızı 30 illik işğaldan xilas etdi. Dünya hərb və diplomatiya cəbhəsində cənab İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini əyani surətdə gördü. Cənab İlham Əliyev nəinki Cənubi Qafqaz regionunun, eyni zamanda müasir dünyanın taleyində mühüm rol oynayan liderlərdən biri kimi qəbul olunur. Bu gün nəinki YAP üzvləri, bütün xalqımız cənab İlham Əliyevin rəhbərliyi, yüksək səviyyədə yerinə yetirdiyi tarixi sərkərdə missiyası nəticəsində tariximizin ən şərəfli anlarını yaşamasından qürur duyur. Tarix isə öz şərəf səhifəsinə Ali Baş Komandanımızın adını qızıl hərflərlə əbədi həkk etmişdir.

Həyat isə davam edir, qarşıda bizi yeni zəfərlər gözləyir. İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə dediyi fikirləri ilə yazını tamamlamaq istəyirəm: "...Mən bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə, bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik".

*Yeni Azərbaycan Partiyası Qafqazda öz liderliyini saxlamaqda və ictimai-siyasi həyatımızın lokomotivi olmaqda davam edir. Hazırda dünyanın ən vacib toplantılarından biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsində də ölkənin ən nüfuzlu böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının xidməti az deyil.*

*YAP bundan sonra da Azərbaycanın inkişafına və yüksəlişinə özünün layiqli töhfələrini verməkdə davam edəcək.*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

COP29 Baku Azerbaijan

# COP29: keçmişdən gələcəyə şanlı keçid

**Azərbaycanın siyasi tarixində böyük rolu olan Yeni Azərbaycan Partiyasının yaranmasından 32 il ötür. YAP xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin son dərəcə ağır və mürəkkəb günlərində, ölkənin ciddi vətəndaş qarşıdurmasına məruz qaldığı bir dövrdə ziyalıların təşəbbüsü və fəal iştirakı ilə yaranıb. 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis olunması ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.**




## Heydər Əliyev yolunun uğurlu davamı

Müstəqilliyimizin ilk illərində respublikada cərəyan edən proseslər orta və yaşlı nəslin yadındadır. Hakimiyyətə yiyələnmiş qaragüruh qüvvələrin dövlətin idarəedilməsindəki naşılıqları, qüsurları, o cümlədən xəyanətə yol vermələri Azərbaycanın müstəqil dövlət kimi gələcəyini sual altında qoymuşdu. Hətta Azərbaycanın parçalanması ilə bağlı çirkin ssenarilər işə salınmışdı. Bütün bunlar ölkə vətəndaşlarını dərindən narahat edirdi və hər kəs Azərbaycanı yalnız Heydər Əliyevin xilas edəcəyinə inanırdı.

Bu baxımdan ölkəni böhrandan çıxarmağa qadir yeganə siyasətçi olan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə siyasi partiyanın yaranması həmin dövrün, zamanın tələbi idi. Məhz belə bir vaxtda yaranan YAP tarixi bir vəzifəni, missiyanı yerinə yetirmək zərurətindən siyasi meydana daxil oldu. YAP müxalifət partiyası kimi yaranmışdı. Lakin YAP bugünkü bəzi siyasi qruplar kimi dövlətə və xalqa qarşı müxalifətdə deyildi. YAP o dövrdə Azərbaycanı dərin siyasi, iqtisadi, hərbi böhrana salan, ölkəni parçalanmağa doğru aparan qüvvələrə qarşı müxalifətdə idi. Ona görə YAP yarandığı ilk gündən xalqın bütün təbəqələrinin böyük rəğbətini qazandı, qısa müddətdə onun sıralarına on minlərlə insan qoşuldu. Bütün bunların nəticəsi kimi YAP təsis olunduqdan qısa müddət sonra hakim partiyaya çevrildi.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqımızın istək və arzusu ilə siyasi hakimiyyətə qayıdışı YAP-ın da fəaliyyət istiqamətlərinə mühüm təsir göstərdi. 1993-cü il oktyabrın 3-də YAP-ın Sədri Heydər Əliyevin respublikamızın prezidenti seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmləndi, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirdi. YAP ümummilli vəzifələrin həyata keçirilməsinə, o cümlədən dövlət quruculuğuna böyük töhfələr verdi. Hakim partiyaya çevrilən YAP



həm də Ümummilli Liderin ideyasının məhsulu kimi Azərbaycan cəmiyyətinin avanqard siyasi qüvvəsi olaraq özünü göstərdi.

Ümummilli Lider Azərbaycanın milli ideologiyasından, milli baxışlarından danışarkən qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının proqramında əks etdirilən prinsiplər, əslində, Azərbaycan xalqının, dövlətimizin söykəndiyi ali prinsiplərdir. Heydər Əliyev bu prinsipləri müəyyən edərkən Azərbaycan xalqının keçdiyi tarixi yolu, milli-mənəvi dəyərləri, eyni zamanda perspektivdə qarşımızda duran vəzifələri nəzərə alıb.

Möhtərəm Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının 2005-ci il martın 26-da keçirilən III Qurultayında YAP-ın Sədri seçilməsindən sonra bu təşkilat uğurlar partiyasına çevrildi. Faktlara diqqət yetirdikdə, ötən müddət ərzində Heydər Əliyev ideyalarına söykənən partiyamızın ilbəil gücləndiyinin bir daha şahidi oluruq. Bu, təkcə partiyamızın deyil, müasir Azərbaycanın taleyidir. Çünki partiyamız müasir, müstəqil dövlətimizlə eyni addımlayır. Dövlət başçısı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu uğurla davam etdirərək, Azərbaycanı dünya birliyinin layiqli dövlətləri sırasına qoşub. Müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası bu gün sıralarında 730 mindən artıq üzvü birləşdirir. Bu, təkcə statistika deyil, eyni zamanda ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir.

Böyük məmnunluqla qeyd etməliyik ki, YAP ölkəmizdə fəaliyyət göstərən digər partiyalardan müqayisəolunmaz dərəcədə güclüdür. Partiyamızda Azərbaycan cəmiyyətinin ən yüksək intellektə malik olan təbəqələri toplaşıb. Bu insanlar vahid azərbaycançılıq ideologiyası ətrafında birləşiblər. O cümlədən yüksək intellektli gənclərin YAP sıralarında birləşməsi bizim gücümüzü artırmaqla yanaşı, partiyanın gələcəyi üçün də mühüm amildir.

Ulu Öndər Heydər Əliyevin ideyalarına söykənən, bütün məsələlərdə milli maraqları rəhbər tutan YAP həm də hər bir situasiyaya hazır olan partiyadır. Ona görə də hər zaman bütün məsələlərə, o cümlədən seçkilərə hazırdır və bütün seçkilərdə qələbə qazanır. Partiyamız həm kəmiyyət, həm keyfiyyət, həm də yerli strukturların mükəmməlliyi baxımından çox güclüdür.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın əldə etdiyi bütün uğurlar həm də YAP-ın nailiyyətləridir. Bu baxımdan həm ötən 21 ildə Azərbaycanın nail olduğu iqtisadi inkişaf, həm də torpaqlarımızın işğaldan azad olunması Ulu Öndər Heydər Əliyevin arzularının, YAP-ın məqsəd və məramlarının həyata vəsiqə alması deməkdir.

Uğurlarımız isə davamlıdır. Bu günlərdə Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası da təsdiq edir ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra yaranmış yeni tarixi reallıqda da respublikamız mühüm nailiyyətlərə imza atacaq. Əlbəttə, bu prosesdə YAP üzvləri də fəallıq nümayiş etdirəcək, Azərbaycanın inkişafına layiqli töhfələrini verməkdə davam edəcəklər.

Yeni Azərbaycan Partiyasının yaranmasının 32-ci ildönümü münasibətilə partiyamızın bütün üzvlərini təbrik edir, respublikamızın daha da inkişafı və qüdrətlənməsi naminə fəaliyyətlərində onlara uğurlar arzu edirəm.

**Mübariz QURBANLI,**
***Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü***

## YAP-ın siyasi hədəfləri və "yaşıl platforma"sı

**Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırdılar.**

Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Ovaxtkı hakimiyyət partiyanın Bakı şəhərində təşkilatlanmasına imkan vermədiyindən, ölkəmizin müxtəlif bölgələrindən gəlmiş 550-dən artıq nümayəndənin iştirak etdiyi təsis konfransı Naxçıvan Dövlət Dram Teatrında keçirildi. Ulu Öndər həmin günü belə xatırlayırdı: *"Biz 1992-ci ilin şaxtalı bir günündə, istilik olmayan bir zalda, Naxçıvan Dövlət Teatrının binasında paltoda və çoxları papaqda oturaraq ilk konfransımızı keçirirdik. Üşüyürdük, əlimizi əlimizə sürtürdük. Amma iradəmiz yüksək idi, iradəmiz güclü idi. Gələcəyə çox nikbinliklə baxırdıq... Məni sevindirən odur ki, ağır şəraitdə Naxçıvanda keçirdiyimiz konfrans ölkənin və partiyanın böyük inkişaf yolunu təmin etdi".*

Zəmanəmizin ən mütəşəkkil siyasi təşkilatlarından biri olan Yeni Azərbaycan Partiyası ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi kimi meydana gəldi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ilin noyabrında Naxçıvanda ana müxalifət partiyası kimi yaranan və demokratik prinsiplərə söykənməklə az keçmədən hakimiyyətə gələn Yeni Azərbaycan Partiyası 32 ildir dövlətimizə, xalqımıza, ən yeni dövrdə şanlı dövlətçilik tariximizin yazılmasına ləyaqətlə xidmət edir. Sosial sifariş olaraq meydana atılan Yeni Azərbaycan Partiyası ölkəmizdə qurtuluş və tərəqqinin simvolu kimi qəbul edilməklə bərabər, həm də Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin siyasi istinad mənbəyidir.

Yeni Azərbaycan Partiyası güclü liderin ətrafında yaranmış partiyadır. Partiyanın yarandığı dövrə nəzər salanda görürük ki, zəngin dövlətçilik və idarəetmə təcrübəsinə malik olan, ömrünü və bütün fəaliyyətini öz xalqına və dövlətinə xidmətə həsr edən bir şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam, etimad və dəstəyi artırırdı. Yeni Azərbaycan Partiyasının fəaliyyəti ölkə xilaskarı Heydər Əliyev siyasi xətti olaraq qəbul edilirdi. Bu səbəbdən Yeni Azərbaycan Partiyası qısa müddət ərzində ümumxalq partiyasına çevrildi, Azərbaycanın tərəqqisi yolunda fəaliyyətini uğurla davam etdirərək ölkəmizin möhtəşəm nailiyyətlər əldə etməsinə fundamental töhfələr verdi.

Yeni Azərbaycan Partiyasının qısa müddətdə xalqın sevimli partiyasına çevrilməsinin tək bir səbəbi var idi - xalqın partiyanın sədrinə olan sevgisi, inamı. Zaman göstərdi ki, xalq xilaskara - dahi lider Heydər Əliyevə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz gələcəyini təmin etmiş oldu.

1993-2003-cü illərdə Azərbaycanda elə bir sahə olmadı ki, diqqətdən kənarda qalsın. Ulu Öndər ölkə həyatında baş verən bütün problemlərə həssaslıqla yanaşdı və onların həllinə çalışdı. Bir zamanlar xəyal edilən nəhəng iqtisadi layihələr həyata keçirildi. Dövlət, ordu quruculuğu sahəsində ciddi işlər görüldü. Azərbaycan beynəlxalq arenaya çıxdı. Xarici ölkələr, beynəlxalq təşkilatlar məhz Ulu Öndərin siyasi nüfuzuna arxalanaraq müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığa başladılar.

Təbii ki, dövr, zaman dəyişir, qarşıya yeni vəzifələr qoyulur. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən qarşıya qoyduğu əsas prioritet məsələlərdən biri ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etmək, Azərbaycanın qazandığı təcrübə ilə nümunə olmasıdır. Məhz bu çağırışların



reallıqda öz əksini tapması son 21 ilin davamlı uğurlarını, Azərbaycanın beynəlxalq aləmdə təqdir olunan və öyrənilməsinin vacibliyi vurğulanan inkişaf modelini şərtləndirən əsas amillər sırasında oldu. Azərbaycan xalqının Prezident cənab İlham Əliyevin ətrafında sıx birləşməsi, həyata keçirilən siyasəti dəstəkləməsi, gələcəyə böyük inamla addımlaması Yeni Azərbaycan Partiyasına olan inam və məhəbbəti gücləndirdi. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin yaratdığı inkişaf konsepsiyasının dayaqları üzərində tərəqqi edərək yeni dövrün reallıqlarına uyğun çevik, özünəməxsus, modern bir idarəetmə platforması formalaşdırdı. Azərbaycanın siyasi lideri idarəçilik fəlsəfəsinin yeni komponentlərini yaratmaqla dövlət aparatı sistemində ən mükəmməl və demokratik meyarlara əsaslanan unikal bir idarəetmə formulu müəyyən etdi. Bu gün Azərbaycanın bütövlükdə inkişafı, əldə etdiyi uğurlar Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin yorulmaz, fədakar fəaliyyəti, onun cəsarəti və eyni zamanda uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycan keçən dövr ərzində kifayət qədər tarixi nailiyyətlər qazanmışdır. Bu uğurlar həm iqtisadiyyatın, həm sosial sahənin inkişafı, eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunun artması sayəsində əldə edilmişdir. Eyni zamanda bu uğurlar içərisində ölkədə əldə edilmiş milli birlik və bu birliyin nəticəsində uzun illər ərzində işğal altında olan torpaqlarımızın azad olunmasını xüsusilə vurğulamaq lazımdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə başlayan Vətən müharibəsi 44 gün davam etdi və qazanılan parlaq qələbə hərb tariximizin ən şərəfli səhifəsi oldu. 24 saatdan az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusunun qalıqları tam şəkildə tərk-silah edilərək ölkəni tərk etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi. Beləliklə, antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində dövlət suverenliyi və Konstitusiya quruluşu tam bərpa edildi.

Azərbaycan ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti ilə həm siyasi meydanda, həm də döyüş meydanında qalibdir. Azərbaycan xalqı öz Liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirir. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev böyük fədakarlıqla və qətiyyətlə Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək, 9 noyabr 2020-ci il tarixdə Azərbaycan xalqına müraciətində də dediyi kimi, ata vəsiyyətini yerinə yetirdi, həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası nəticəsində işğalda olan torpaqlarımızı azad etdi, xalqın inamını özünə qaytardı. Ən nəhayət, əldə olunan qələbə həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Yeni Azərbaycan Partiyası da məhz xalqın birliyinin partiyasıdır. Vətən müharibəsində əldə etdiyimiz tarixi zəfərlə Azərbaycan xalqının, eyni zamanda Yeni Azərbaycan Partiyasının ən mürəkkəb və ən çətin, həm də ən ali məqsədi reallaşdırıldı.

Bütün dövlətlərdə hakimiyyətdə olan siyasi partiyaların qəbul etdiyi qərarlar ölkənin siyasi həyatına birbaşa təsir edir. Bu baxımdan, Yeni Azərbaycan Partiyasının 5 mart 2021-ci il tarixdə keçirilən VII Qurultayı təbii olaraq ölkə ictimaiyyətinin diqqət mərkəzində idi. Həmçinin Vətən savaşındakı şanlı Qələbədən sonra və ölkədə aparılan islahatlar fonunda qurultayın keçirilməsi, həm də ölkənin gələcək inkişafı baxımından da önəmli hadisə sayılırdı. Hakim partiyanın bu ali toplantısı vacib qərarların qəbul edilməsi ilə yadda qaldı. Bununla da ölkənin siyasi həyatında tamamilə yeni bir strategiyanın əsası qoyuldu. Siyasi partiyaların daha səmərəli və təsirli fəaliyyətə səbəb olacaq qoşulma nümunəsi müxalifətdə olan partiyalar üçün də bir nümunədir. Siyasi partiyalar sistemində müşahidə olunan tendensiyalar Yeni Azərbaycan Partiyasının gücündən xəbər verir. İqtidar nisbətən zəif qüvvələrin daha güclü qüvvəyə qoşulmaq istəyinə qarşılıq verir. Siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulması Yeni Azərbaycan Partiyasının siyasi mövqeyinin daha da güclənməsinə xidmət edən uğurlu bir addımdır. Çünki Yeni Azərbaycan Partiyasının ideoloji prinsipləri milli həmrəyliyə və inkişafa xidmət edir.

Cənab Prezident qurultayda geniş, dərinməzmunlu və proqram xarakterli çıxış edərək VII Qurultayın keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirərək qeyd etdi:

*"Prezident seçkilərindən sonra bəyan etdiyim proqram icra olunur və biz ardıcıllıqla öz hədəflərimizə çatırıq. Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyuldu. Biz ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatırıq".*

Yeni Azərbaycan Partiyasının VII Qurultayı bir daha göstərdi ki, o, çoxmillətli bir ölkənin, sülhü, sabitliyi, tolerant, ümumbəşəri dəyərləri həyat tərzinə çevirən, müxtəlif xalqların birgəyaşayışına nail olan, tarixlə müasirliyi özündə birləşdirən bir ölkənin - Azərbaycanın hakim partiyasıdır. Onun başında xalqımızın arxalandığı, inandığı, güvəndiyi, etibar etdiyi, etimad göstərdiyi, dünyada yaşayan bütün azərbaycanlıların lideri, Müzəffər Ali Baş Komandan İlham Əliyev dayanır.

Bütün bunlar sübut edir ki, Yeni Azərbaycan Partiyası perspektivli hədəflərə yol açan, dünənin, bu günün və gələcəyin partiyasıdır. Yeni Azərbaycan Partiyasının yeni proqramı müasir dövrün çağırışlarını və ölkəmizin davamlı inkişafını nəzərə almaqla özündə mütərəqqi dəyər və meyarlar, prinsiplər, realist vizyon və məsul missiyanı birləşdirir.

Yeni Azərbaycan Partiyası müstəqil dövlətçilik, azərbaycançılıq, qanunlara hörmət, vətəndaş həmrəyliyi və sosial ədalət prinsiplərinin həyata keçirilməsinin ideya təminatı olaraq Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirir, möhkəmləndirir. Nəticədə ölkəmiz beynəlxalq tədbirlərin, eləcə də nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrilib. Bunun nəticəsidir ki, mötəbər beynəlxalq təşkilatların rəhbərləri öz tədbirlərinin Azərbaycanda keçirilməsini təsadüfən müəyyənləşdirmirlər. Son illər Azərbaycanın dünyada sabit məkan kimi tanınması da bunun ən bariz nümunəsidir. Xüsusilə son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər.

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu evsahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə yüksəldir. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur. Bununla bərabər, Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə prosesinə ciddi töhfə verən ölkə kimi tanınması onun COP29-a evsahibliyi etməsi reallığını yaratdı. Azərbaycanın bu sahədə uzun illərdir həyata keçirdiyi ardıcıl siyasət və layihələr, enerji mənbələrinin inkişaf etdirilməsi, o cümlədən külək və günəş enerjisi stansiyalarının qurulması baxımından ölkəmiz böyük işlər reallaşdırdı. Yeni Azərbaycan Partiyasının hər bir üzvü ötən dövrdə "yaşıl iqtisadiyyat"a keçidlə bağlı həyata keçirilən bütün layihələrdə, yaşıllaşdırma aksiyalarında, eləcə də COP29-un uğurlu keçirilməsində yaxından iştirak edərək öz töhfəsini verir.

Yeni Azərbaycan Partiyasının yaranmasının 32-ci ildönümü xalqımızın tarixində çox əlamətdar bir dövrə təsadüf edir. Hazırda COP29-un Azərbaycanda yüksək təşkilatçılıqla keçirilməsinə dünya şahidlik edir. Dünya birliyinin Azərbaycana göstərdiyi inam və etimad isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Ölkəmiz artıq dünyada söz sahibinə çevrilib. Faktlar da təsdiqləyir ki, son 21 ildə dövlət başçısının həyata keçirdiyi müstəqil siyasət nəticəsində Azərbaycanın reytinqi artıb və dünya miqyasında çox güclü mövqelərə sahib olub.

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi deyilənlərin real təsdiqidir. Bu Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi.

Bu gün cənab İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar Yeni Azərbaycan Partiyasının hər bir üzvü tərəfindən yüksək qiymətləndirilir. Sırasında 700 mindən çox insanı birləşdirən partiyamızın hər bir üzvü dünyanı Azərbaycanda birləşdirən COP29-un uğurlu reallaşmasında öz töhfələrini verməkdən böyük qürur və fəxr hissi keçirir.

Partiyanın 32 ildə qazandığı uğurların təməlində sözlə əməl birliyinin rolu inkaredilməzdir. Bu illərdə Yeni Azərbaycan Partiyası monolit siyasi güc kimi ölkənin perspektiv inkişafında mühüm rol oynadığını bir daha nümayiş etdirdi. Əminliklə söyləmək olar ki, bundan sonra da Yeni Azərbaycan Partiyası yeni reallıqlar, həmçinin dövlətin qətiyyətli siyasəti, xalqın sarsılmaz həmrəyliyi fonunda qarşısında duran strateji əhəmiyyətli vəzifələri uğurla yerinə yetirməklə ölkəmizin dinamik inkişafına müstəsna töhfə verəcək.

**Arzu ABDULLAYEV,**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***

COP29 Baku Azerbaijan

# Dünya Bakıda birləşib




## Türk dünyasının "yaşıl həmrəyliy"i

**Son illər Azərbaycan, Qazaxıstan və Özbəkistan iqtisadiyyatın bir çox sahələrində, o cümlədən enerji sahəsində uğurla əməkdaşlıq edirlər. Artıq xeyli vaxtdır "yaşıl enerji"nin ixracı ilə bağlı imkanlarının əlaqələndirilməsi üçün bu ölkələrin iqtisadiyyat və enerji məsələləri ilə məşğul olan ali qurumlarının rəhbərləri vaxtaşırı görüşlər keçirir, danışıqlar aparırdılar. COP29 isə bu sahədə yeni mühüm bir səhifə açdı.**

Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzaladılar. Bu sənədin əhəmiyyətini qeyd etmək üçün Prezident İlham Əliyevin imzalamadan sonra dediyi sözlərə diqqət edək: "Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və "yaşıl enerji" sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir. Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır".

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdı. Həmin vaxtdan da nəzərdə tutulan məsələlərin gerçəkləşməsi istiqamətində tədbirlər davam edir. Bir neçə ay əvvəl Rumıniya paytaxtında sazişin icrası məqsədilə 8-ci Nazirlər-Rəhbər Komitənin iclası keçirildi. Elə həmin tədbirdə də məlum oldu ki, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin nəticələrinin təqdimatının cari ilin noyabrında ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində nəzərdə tutulur. Buxarestdəki iclasda iştirak edən energetika naziri Pərviz Şahbazov bunları vurğulayaraq, həmçinin layihənin statusu, digər komponentləri, atılacaq növbəti addımlar, eləcə də Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında qurulacaq "yaşıl enerji" dəhlizinin inkişafı ilə bağlı fikirlərini bölüşdü.



Azərbaycanın "yaşıl gündəliy"i artıq dünyaya bəllidir. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə 157 giqavat təşkil edir. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin tikdiyi 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq "Xızı-Abşeron" külək enerjisi stansiyasını tikir. Bu gün artıq bir sıra bölgəmiz də "yaşıl enerji" layihələrinin gerçəkləşdirildiyi məkan kimi tanınır. COP29 çərçivəsində Böyük Britaniyanın BP şirkəti ilə 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda təməli qoyuldu. "Yaşıl enerji" zonası elan olunmuş Naxçıvan MR-də, eləcə də Biləsuvar və Neftçala rayonlarında da yeni layihələr gerçəkləşəcək. 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu hələ görüləcək işlərin hamısı deyil, belə ki, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Dost və qardaş Qazaxıstan və Özbəkistan respublikaları da zəngin "yaşıl enerji" mənbələrinə malikdir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bu barədə belə dedi: "Bu sazişin praktiki nəticələri Orta dəhlizin iqtisadiyyatlarımızı birləşdirən "yaşıl körpü" qismində inkişafına töhfə verəcək. Bu əsas sahədə sıx əməkdaşlıq üç dövlət arasında təcrübə və qabaqcıl texnologiyalar mübadiləsini gücləndirəcək və enerji təhlükəsizliyimizin gələcəkdə də möhkəmləndirilməsinə kömək edəcək. "Yaşıl enerji" karbon neytrallığına doğru irəliləyən Qazaxıstan üçün prioritet istiqamətdir. Biz qazıntı resurslarından asılılığımızı azaltmaq, texnoloji yenilikləri inkişaf etdirmək və ekoloji davamlılığımızı dəstəkləyə biləcək infrastruktur yaratmaq üçün fəal işləyirik. Qazaxıstan xarici tərəfdaşlarla ümumi gücü 43 giqavat olan "yaşıl layihə"lərin həyata keçirilməsinə dair razılaşmalar əldə edib".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sözügedən layihənin ekoloji əhəmiyyətini xüsusi qeyd edərək dedi: "Nəql ediləcək enerji külək və günəş enerjisidir, iqlimə təsiri azaltmağa kömək edəcək bərpaolunan və təmiz mənbədir. Bununla biz Paris Sazişi çərçivəsində iqlimin qorunması üzrə birgə səyləri və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağı dəstəkləyirik. Ölkələrimiz əhəmiyyətli dərəcədə bərpaolunan enerji resurslarına malikdir və qlobal enerji keçidinə mühüm töhfə verə bilər. Özbəkistanda bu istiqamətdə genişmiqyaslı işlər aparılır, "yaşıl enerji"nin inkişafı üçün böyük proqram qəbul edilib. Biz 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırırıq. Bundan başqa, ilin sonunadək biz əlavə olaraq 2,6 giqavat bərpaolunan enerji və 300 meqavat enerjisaxlama sistemlərini şəbəkəyə birləşdirəcəyik. Hər il təxminən 2 giqavat günəş və külək enerjisi istehsal etmək gücünü işə salırıq".

Əlavə edək ki, Səudiyyə Ərəbistanı və bu ölkənin "ACWA Power" şirkəti həm Azərbaycanla, həm Qazaxıstanla, həm də Özbəkistanla bərpaolunan enerji sahəsində sıx əməkdaşlıq və tərəfdaşlıq edir. Ona görə də hər üç dövlət başçısının bunu məmnunluqla və minnətdarlıqla qeyd etməsi də təsadüfi deyil. Sözügedən üçtərəfli görüşdən sonra hər üç prezidentin iştirakı ilə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Səudiyyə Ərəbistanı Krallığı arasında bir sıra yeni sənədlər də imzalandı.

Beləliklə, Azərbaycan-Qazaxıstan-Özbəkistan "yaşıl enerji" ixracı layihəsi mühüm bir layihədir. Onun iqtisadi səmərəsini hər üç dövlət hiss edəcək. Belə ki, layihə çərçivəsində minlərlə iş yeri açılacaq, enerji infrastrukturu inkişaf etdiriləcək, texnoloji və biznes əlaqələri genişlənəcək. Əsas nəticə olaraq əhalinin həyat səviyyəsi yüksələcək. Üçtərəfli görüşdə bunlar bir daha vurğulandı. Qeyd edildi ki, bərpaolunan enerji təkcə iqtisadi məqsəd deyil, bu həm də sabaha ötürülən bir töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissinin nəticəsidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Devid KRİMER: "COP29-da müxtəlif ölkələrdən olan insanlar arasında qarşılıqlı əlaqənin olmasından çox məmnunam"

**"İqlim dəyişikliyinin su ehtiyatlarına təsiri müxtəlif ölkələrdə müşahidə olunur. Bu problemin müsbət nəticəsi daha çox insanın, xalqların birlikdə işləyə bilmələrindən asılıdır. Onlar bir-biri ilə suyun miqdarı və keyfiyyəti haqqında məlumat və monitorinqi paylaşa bilərlər".**



Bunu AZƏRTAC-a müsahibəsində Beynəlxalq Hidrogeoloqlar Assosiasiyasının (IAH) prezidenti Devid Kennet Krimer deyib.

"Düşünürəm ki, biz sosial ədalətə əmin olmalıyıq. İnkişaf etməkdə olan ölkələrdə bir çox insan sosial ədalətlə maraqlanır, çünki onlar zəngin ölkələrin yoxsul ölkələr üçün işi çətinləşdirməsini istəmirlər. COP29-un müxtəlif insanların stendləri vasitəsilə çağırışlarını, fərqli perspektivləri başa düşməyə kömək edəcəyini düşünürəm. Müxtəlif ölkələrdən olan insanlar arasında bu cür qarşılıqlı əlaqənin olmasından çox məmnunam. Ümid edirəm ki, bu, suyun qorunmasını inkişaf etdirəcək", - deyə assosiasiyanın prezidenti bildirib.

## UNWTO: "COP29 turizm sektorunun qlobal iqlim gündəminə daxil edilməsilə tarix yazır"

**"Report" xəbər verir ki, bunu Ümumdünya Turizm Təşkilatının (UNWTO) baş katibi Zurab Pololikaşvili COP29 çərçivəsində təşkil olunmuş Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə nazirlərin birinci görüşündə bildirib.**

O qeyd edib ki, belə böyük tədbiri təşkil etmək asan deyil: "Bu tədbirin Bakıda keçirilməsi həqiqətən tarixi addımdır. Azərbaycanı, bütün regionu və dünyanı bu mühüm tədbirin burada təşkil olunması münasibətilə təbrik edirəm. COP29 ilk dəfədir ki, burada keçirilir və biz bilmirik ki, növbəti 10 və yaxud 20 ildə bu bölgəyə yenidən gələcəkmi?"

Baş katib vurğulayıb ki, COP tarixində ilk dəfə olaraq turizmlə bağlı məsələlər gündəmə daxil edilib və bu, sektor üçün böyük əhəmiyyət daşıyır: "29 il ərzində heç vaxt turizmdən danışılmayıb. Bu, ilk dəfədir və buna görə bu gün turizm sənayesi üçün tarixi gündür. Bu hadisənin Azərbaycanda baş verməsindən çox məmnunam, çünki bu, böyük və vacib bir ənənənin başlanğıcıdır".

Z.Pololikaşvili əlavə edib ki, turizm sülhün təmin olunmasında mühüm rola malikdir: "Sülhdən danışarkən turizm ən güclü alətlərdən biridir. Eyni zamanda iqlim dəyişikliyi və ətraf mühit problemləri, o cümlədən ərzaq tullantıları kimi məsələlər də turizmə təsir edir və bu sahədə yeni çağırışlar yaradır".

O, ilk dəfə 4 il əvvəl Qlazqoda keçirilən COP tədbirində iştirak etdiyini və orada təşkilatın üzvlərinə iqlim dəyişikliyinə qarşı mübarizədə həllin bir hissəsi olmaq imkanı təqdim etdiyini xatırladıb: "Bu günə qədər 800 imzalanma var və biz işimizi davam etdiririk. Bunun kifayət olmadığını bilirik, lakin addım-addım irəliləyirik. Əməkdaşlıq və birlik çox vacibdir. Sülh, iqlim dəyişikliyi və ərzaq tullantıları kimi məsələlərdə həmrəylik əsasdır".

## COP29-un kamerunlu iştirakçısı: "Təbii fəlakətlərin qarşısını almaq üçün hamı səfərbər olmalıdır"

**"COP29-da təşkilatçılıq yaxşı səviyyədədir". Bunu COP29-da iştirak edən Kamerunun Milli İqlim Dəyişikliyi Rəsədxanasının şöbə müdiri İzabella Zuh deyib.**

Qonaq ölkəsində iqlim dəyişmələri ilə bağlı çoxlu problemlərin olduğunu vurğulayaraq bildirib:

"Biz seldən, quraqlıqdan, sürüşmədən çox əziyyət çəkirik. Çalışdığım rəsədxanada bu məsələlərlə bağlı çoxlu proqnozlar veririk. Bu problemlər nəticəsində itkin düşmə və insan ölümü halları yaşayırıq. Baş verən təbii fəlakətlərin qarşısını almaq üçün hamı səfərbər olmalıdır".










COP29
Baku
Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb







# "Azərbaycan COP tarixində yüksək təşkilatçılığı ilə nümunə ortaya qoydu"

**Noyabrın 11-dən etibarən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edən Azərbaycan dünyanı birləşdirən ölkə kimi beynəlxalq ictimaiyyətin gündəminə düşdü. 196 ölkədən gəlmiş 70 mindən çox iştirakçı, o cümlədən 80-dən artıq prezident, vitse-prezident və baş nazir dünyanın ekoloji fəlakətdən xilası üçün Bakıya toplaşdılar.**

**COP29 iqlim dəyişmələrinin yaratdığı fəsadların aradan qaldırılması üçün real həll yollarının təklif edildiyi platforma kimi diqqət çəkdi. Yüksək səviyyədə təşkil edilən konfransda iqlim maliyyələşməsi və digər mühüm məsələlərlə bağlı konkret nəticələr əldə edildi. Öz "yaşıl gündəliy"i olan Azərbaycanın çağırışlarının dünya tərəfindən dəstəklənməsi isə COP29-un doğru ünvanda keçirilməsinin təsdiqi oldu.**

**Eyni zamanda ölkəmizə gələn əcnəbi qonaqların hər birinin Azərbaycanın COP29-a yüksək səviyyədə təşkilatçılıq etdiyini məmnunluqla vurğulaması ölkəmizin bu qlobal tədbirə layiqli evsahibliyindən xəbər verdi.**

**Tsantaniaina Helsa Rabekoto:**



- Madaqaskardan qlobal iqlim tədbirində iştirak etmək üçün gəlmişəm. İlk öncə deyim ki, Azərbaycan COP29-da yüksək təşkilatçılıq nümunəsi ortaya qoydu. İstər tranzit imkanlarının əlçatanlığı, istər könüllülərin qonaqlara hərtərəfli kömək göstərmələri, istərsə də tərcümə ilə bağlı dəstəkləri olsun, hər şey mükəmməl səviyyədədir. Tədbirə dünya səviyyəsində böyük diqqətin olması və ölkələrin fəal iştirakı, hərtərəfli müzakirələrin aparılması məndə Bakıda keçirilən COP tədbirindən sonra iqlim dəyişikliklərinin fəsadlarının aradan qaldırılması ilə mübarizədə böyük uğurlar əldə olunacağına ümidlər yaratdı. Xüsusilə də iqlim maliyyələşməsi sahəsində.

Artıq neçə gündür Bakıdayam, amma özümü burada yad hiss etmirəm. Şəhər yaraşıqlı görkəmi ilə adamı özünə cəlb edir. Tarixilik və müasirlik bir vəhdət təşkil edir. İnsanlarınız da çox gözəl, mehriban, gülərüzdürlər. Azərbaycana ilk dəfədir gəlirəm, amma əminəm ki, bu, son olmayacaq. Çünki ölkənizlə bağlı düşüncələrim yalnız müsbətdir. Gələcəkdə ailəmlə mütləq ölkənizə səyahətə gəlməyi düşünürəm.

**Rauşan Jeteyeva:**



- Qazaxıstan Ftiziopulmanoloqlar Assosiasiyasının üzvü olaraq COP29-a dəvət edilmişəm. Assosiasiyamızın digər üzvləri ilə bərabər iqlim dəyişikliklərinin sağlamlığa təsiri mövzusunda keçirilən tədbirdə iştirak etdik. Burada digər ölkələrdən də çoxlu nümayəndə var.

Azərbaycana, Bakıya ilk dəfədir gəlirəm. Bakıya aşiq oldum. Qadınlarınız çox gözəldir. Mədəniyyətiniz olduqca rəngarəng, maraqlıdır. "Yaşıl zona"da Azərbaycan pavilyonunda sərgilənən əl işlərini, xalçaları çox bəyəndim. Onu da deyim ki, mədəniyyətlərimiz, insanlarımız arasında oxşarlıqlar çoxdur. Siz də bizim kimi qonaqpərvər və mehribansınız. Bütün bunlar bizi daha da doğmalaşdırır.

**Fidelis Fater Loryue:**



- Nigeriyadan gəlmişəm. Nigeriya da ekoloji fəlakətlərdən əziyyət çəkən ölkələr arasındadır. Dünya getdikcə inkişaf edir, amma təəssüf ki, bu inkişafın pis tərəfi də var. Fabrik və zavodlardan çıxan tullantılar, habelə karbon emissiyalarının atmosferə buraxılması kimi hallar "yaşıl dünya"mızı sürətlə məhv edir. Bu bizim hamımızı, dünyanın bütün insanlarını narahat edir. Çünki planet hamımızındır. Ona görə də iqlim dəyişmələrinin yaratdığı fəsadlardan birdəfəlik yaxa qurtarmaq üçün effektiv həll yolları ortaya qoyulmalıdır. Hesab edirəm ki, Bakının evsahibliyi etdiyi COP29-da qəbul olunan qərarlar dünyamızın gələcəyi üçün mühüm əhəmiyyət kəsb edəcək. BMT-nin bu qlobal tədbirindən ən böyük gözləntim isə iqlim dəyişmələrindən daha çox zərərçəkən ölkələrə maliyyə dəstəyinin göstərilməsi ilə bağlıdır.

COP-a sədrlik edən Azərbaycanın bu xüsusda səylərini alqışlayıram.

**Gülsüm Sağlam:**



- İlk dəfədir ki, Azərbaycana gəlirəm və artıq on gündən çoxdur ki, buradayam. Türkiyədən ölkənizə səyahət məqsədilə gəlmişdim, amma Bakıda təşkil olunan COP29 da mənim üçün xoş sürpriz oldu. Səyahətimin bu tədbirlə üst-üstə düşəcəyini bilmirdim. Bu fürsəti qaçırmaq istəmədim və COP29-un "yaşıl zonasına" bilet aldım. Burada maraqlı pavilyonlar quraşdırılıb. Milli ab-havada təşkil olunan Azərbaycan pavilyonu isə xüsusi diqqət çəkir. Müxtəlif ölkələrdən gəlmiş xeyli sayda insanın COP29-da bir ailə kimi birləşməsi, səmimi ortamın mövcudluğu insanda xoş əhvali-ruhiyyə yaradır.

Ümumilikdə Azərbaycanla bağlı təəssüratlarım möhtəşəmdir. İnsanlarınız çox mehriban, istiqanlıdırlar. Bakının gözəlliyinə, səliqəsinə, sözün əsl mənasında, heyran oldum. Dənizkənarı Milli Park çox xoşuma gəldi, hər yer tərtəmizdir. Yerdə bir dənə də olsun tullantı görmədim. Azərbaycanda ən yaddaqalan gəzintim isə turla Qarabağa getməyim oldu. Şuşanı, Laçını, Xocalını, Xankəndini gördüm. Yolboyu işğal zamanı burada ermənilər tərəfindən törədilən dağıntılara rast gəldik. Eyni zamanda dövlətinizin bu ərazilərdə yenidən tikinti-quruculuq işləri aparmasına şahidlik etdik. Bütün bunları görmək həm üzücü, həm də sevincli idi. Çox fərqli duyğular yaşadım, ürəyim titrədi, gözlərim doldu. Biz iki dövlət, bir millətik. Azərbaycanın Qarabağ Zəfəri türk dünyasına qürur bəxş edib.

**Pavel Melnikov:**




- Rusiyanın Kolomna şəhərindən gəlmişəm. "Yaşıl zona"da keçirilən müxtəlif tədbirlərə qatıldım, burada olan pavilyonları ziyarət etdim. Azərbaycanın təşkil etdiyi COP məkanı xoşuma gəldi. Genişdir və bu əraziyə gəlmək çox əlçatandır. Eyni zamanda tədbirin təşkilatçılıq məsələləri yüksək səviyyədə həll olunub.

COP29 mühüm tədbirdir. İnanmaq istəyirəm ki, iqlim problemlərinin həlli məsələləri yalnız danışıqlarda qalmayacaq. Real işlər görüləcək. Bu, insanların özündən də çox asılıdır. Planetimizin xilası üçün hər kəs əlindən gələni etməlidir. Məsələn, sadə insanlar olaraq plastik tullantıları təbiətə atmayaraq dünyamıza böyük fayda vermiş olarıq.

**Radin Rahemzadeh:**

- Bakının evsahibliyi etdiyi COP29 tədbirinin əhəmiyyəti olduqca böyükdür. İqlim dəyişiklikləri və onların yaratdıqları fəsadlar ciddi məsələlərdir. Mən də bu iqlim tədbirində iştirak etmək üçün ABŞ-nin Kaliforniya ştatından gəlmişəm. COP29-da dünyanı narahat edən çox ciddi məsələlər müzakirə edilir. Əminəm ki, iqlim dəyişmələrinin yaratdığı problemlərin




həlli istiqamətində Bakıda düzgün qərarlar qəbul ediləcək.

Bura gəlməzdən əvvəl ölkəniz haqqında xeyli məlumat toplamışam. Azərbaycanın neft-qaz sahəsindən əldə etdiyi gəlirləri "yaşıl enerji"nin inkişafına yönəltməsi olduqca təqdirəlayiq, həmçinin digər ölkələr üçün nümunədir. Artıq indidən Azərbaycanın dünyada "yaşıl enerji" ixracatçısı kimi öz sözünü deyəcəyini söyləmək mümkündür.

COP29-un təşkili barədə fikirlərim çox müsbətdir. Diqqətimi çəkən məqamlardan biri də "mavi" və "yaşıl" zonalarda ən kiçik detalına qədər hər şeyin təbiətin qorunmasına çağırış formasında təşkil olunmasıdır. Məsələn, Dənizkənarı Milli Park pavilyonunda nümayiş etdirilən bitki və güllərin, ağacın təbii olması və elə bulvarın özündən gətirilməsi məni heyran etdi.

Bakının gözəlliyi isə bir ayrı aləmdir. Gündüzlər səliqə-sahmanı, təmizliyi, bir-birindən yaraşıqlı binaları ilə gözoxşayan Bakı, gecələr bərq vurur. Adam şəhərinizi seyr etməkdən doymur. İnsanlarınızın gülər üzünü, mətbəxinizin dadını isə ömür boyu unutmayacam.

**Chinyere Azuka Uzoma:**



- COP29 kimi tədbirlər olduqca önəmlidir. Ekoloji problemlərin yaşandığı ölkələrdən birinin, Nigeriyanın vətəndaşı olaraq deyirəm ki, təbiətin sürətlə məhv olması, yalnız hazırda bu problemlərlə üz-üzə olan ölkələr üçün deyil, bütövlükdə dünya üçün fəlakət deməkdir. Sel, daşqın, fırtına, zəlzələ kimi dağıdıcı təbiət hadisələrinin arealı getdikcə genişlənir. Düşünürəm ki, "yaşıl enerji"yə keçid əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər.

Belə tədbirlər həm də müxtəlif dil, din, irqə sahib insanların bir araya gələrək ortaq problemləri həll etmələri üçün vacib platforma rolunu oynayır. Bakı isə tədbiri yüksək səviyyədə təşkil etməklə bu işə mühüm töhfə verir.

Ölkənizin insanları və mədəniyyəti yaxşı mənada məni heyran etdi. Bakıda tarixi yerlər çox olsa da, şəhər həm də müasir binaları ilə diqqət çəkir. Ağ şəhər isə paytaxtınızın ən möhtəşəm ünvanlarındandır. Qadınlarınızın gözəlliyini, onların zövqünü də çox bəyəndim. Burada hər kəsdən mehribanlıq, kömək gördüm. "Mavi" və "yaşıl" zonalarda könüllüləriniz səylə və gülərüzlə hər kəsə yardım edirlər. Onlar mənə də tərcümə ilə bağlı kömək göstərdilər. COP29-a evsahibliyi edən Bakıda özümə xeyli azərbaycanlı dost da qazandım.




*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*








COP29 Baku Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar










## Milli irsin təbliği məkanı

**Dünyanın müxtəlif ölkələrindən gələn beynəlxalq təşkilatların nümayəndələri, media təmsilçiləri, turistlər COP29 tədbirində bir yerə toplaşıblar. Beynəlxalq konfrans ölkəmizin qlobal miqyasda ətraf mühit məsələlərinə verdiyi töhfənin göstəricisi oldu.**

İqlim dəyişikliyinə və onun yaratdığı fəsadların aradan qaldırılmasına həsr olunan COP29 milli, mədəni və tarixi zənginliyin ən mükəmməl təbliği ilə əlamətdardır. Bu məqsədlə "yaşıl zona"da yaradılan "Azərbaycan" pavilyonu xüsusi diqqət çəkir. Pavilyonda milli xalça və digər toxuculuq nümunələri, təsviri və dekorativ sənət örnəkləri, milli geyimlər və sənətkarlıq məmulatları nümayiş olunur. Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələri tərəfindən yaradılmış, ölkəmizin əsrarəngiz təbiətini, zəngin flora və faunasını, habelə mətbəxini nümayiş etdirən əl işləri "yaşıl zona"nı ziyarət edən yerli və əcnəbi qonaqların böyük marağına səbəb olur.

### Misgərlik sənətinə xüsusi maraq var

Milli ornamentli xalçalarımızla bəzədilmiş pavilyonda ustalarımız qədim əl sənətlərini nümayiş etdirir, ustad dərsləri keçirlər. Onlardan biri ömrünün 40 ilindən çoxunu misgərliyə həsr etmiş Nəzər Əliyevdir. Lahıcda doğulub, böyüyən, atasından, babasından misgərlik sənətini öyrənən usta deyir ki, bu sənəti 7-8 nəsildir davam etdirirlər: "Sənətin nəsildən-nəslə keçməyinin müsbət tərəfi odur ki, dünyaya göz açandan bu işlə məşğul olur, daha tez püxtələşirsən. Biz özümüz belə öyrənmişik, sonrakı nəsillərə də bu ənənəni olduğu kimi ötürürük. Lahıcın mərkəzi küçəsində emalatxanamız var. Zaman keçdikcə misgərliyə tələbat azala, bu sənətə ehtiyac qalmaya bilər. Onu zaman göstərəcək. Amma hələ ki var, yaşayır, nə qədər canımız sağdır, davam etdirəcəyik".

Əvvəllər misgərlərin sayının 1000 nəfərdən çox olduğunu deyən Nəzər usta təəssüflə qeyd edir ki, hazırda onların sayı 4-5-i keçmir: "1861-ci ildə təhkimçilik hüququ ləğv olunanda Lahıcda 251 misgərlik emalatxanası olub. Onların hərəsində 3-4 nəfər işləyirdi. İndi isə misgərlərin sayı bir əlin barmaqlarını keçmir. Misgərlik qədim və qiymətli sənətdir. Əgər elə olmasaydı, "Lahıcın misgərlik sənəti" 2015-ci ildə UNESCO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməzdi. Sənətimizin davam etdirilməsi üçün dövlətimiz bizə çox böyük dəstək verir. Gəlir vergisindən azad edilmişik, emalatxanamız üçün əmlak vergisi ödəmirik".

COP29-da fəxr və qürurla iştirak etdiyini söyləyən N.Əliyev konfransa gələn qonaqların misgərlik sənətinə böyük maraq göstərdiyini vurğulayır: "Başqa xalqların nümayəndələrindən misgərliyə belə maraq gözləmirdim. Bu, məni olduqca təəccübləndirir və həm də zövq verir. Qədim sənətimizi nümayiş etdirmək üçün Moskva, Paris və Vyana şəhərlərində, Qazaxıstan, Özbəkistan və Gürcüstanda keçirilən tədbirlərdə dəfələrlə iştirak etmişəm. Babalarımızdan miras qalan sənətimizi tanıtmaq mənim üçün fəxrdir".

### Xalçalarımız yüksək sənətkarlığı ilə fərqlənir

Xalqımızın mədəniyyət tarixində özünəməxsus yer tutan ən qədim sənət növlərindən biri də xalçaçılıqdır. Tarixi mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu hələ Tunc dövründə meydana gəlib. Azərbaycan xalçaları yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir.

"Azərbaycan" pavilyonunda qədim xalçaçılıq sənətimizin sərgilədiyi bölmə də özünəməxsusluğu ilə diqqət çəkir. Xalçaçılığın sirlərini 5 yaşından öyrənməyə başlayan Sevinc Səfərova 40 ildən artıqdır ki, bu sənətlə məşğul olduğunu deyir: "Evimizdə anam da, nənəm də xalçaçı olublar. Gözəl xalça toxumaq böyük zəhmət, təcrübə və zövq tələb edir. O, yalnız məişət əşyası deyil, həm də xalqımızın tarixini, mədəniyyətini özündə əks etdirir, nəsildən-nəslə ötürür, yaşadır. Xalçaların üzərində olan hər rəngin, hər naxışın öz mənası var. Onlar zənginliyin, bolluğun, baharın, məhəbbətin, qəhrəmanlığın, qələbənin, gücün, qüdrətin, alovun, müqəddəsliyin, dini ayinlərin təzahürüdür. Biz həm də duyğularımızı, düşüncələrimizi xalçalara köçürür, özümüzü ifadə edirik".

Sevinc Səfərova xarici qonaqların rəngarəng çalarlara və müxtəlif naxışlara sahib xalçalarımıza, onların ərsəyə gəlmə prosesinə böyük maraq göstərdiklərini deyir: "Tədbirdə olmaqdan, sənətimi nümayiş etdirməkdən, tanıtmaqdan çox məmnunam. Hər gün müxtəlif xalqların nümayəndələri yaxınlaşıb xalçaçılıqla maraqlanır, müxtəlif suallar verirlər. Turistlərin bəziləri düşünürlər ki, bu sənət artıq köhnəlib. Eşidəndə ki, hər birimizin evində hələ də xalça var, interyerimizin demək olar ki, ayrılmaz hissəsidir, bu, onların təəccüb və marağına səbəb olur. Qonaqlar yaxınlaşıb xalçaya ilmək atmaq istəyirlər, mən də onlara kömək edirəm. Burada toxuduğum xalçada pavilyonumuza yaxınlaşan hər əcnəbi qonağın ən azı iki ilməsi var".

### "Sənət növlərimizi tanıtmaq müqəddəs borcumuzdur"

Bədii sənətkarlığın xüsusi növlərindən olan şəbəkə sənəti özündə xalqımızın bədii ənənəsini əks etdirir. Şəbəkə mismar və yapışqandan istifadə edilmədən hazırlanan rəngli şüşə və taxtaların birləşməsindən ibarət həndəsi naxışlı qədim sənət növüdür. Şəbəkə üsulu ilə hazırlanan qədim tikililərə Bakıda Təzəbəy hamamını, Şəkidə isə Şəki xan sarayını misal göstərmək olar. 40 ildən çoxdur bu sənətlə məşğul olan Tofiq Rəsulov "Azərbaycan" pavilyonunda ustad dərslərində tədbir iştirakçılarına qədim xalq sənətimizi nümayiş etdirir. Şəkidən gələn usta artıq 4 nəsildir bu sənətlə məşğul olduqlarını deyir: "Sənətimiz nəsildən-nəslə ötürülür, yaşadılır. Hazırda mənimlə birgə iki oğlum da şəbəkə sənəti ilə məşğuldur. Fəxr edirəm ki, 2002-2004-cü illərdə XVIII əsrin bəzəyi olan Şəki xan sarayını bərpa etmək mənə nəsib olub".

Şəbəkənin incə sənət olduğunu qeyd edən usta hətta bir millimetrlik səhvin onun dağılmasına səbəb olduğunu deyir: "Burada riyaziyyat, həndəsə və rəsmxət elmlərini bilmək lazımdır ki, işi mükəmməl görəsən. Əjdəri, Cəfəri, Nəbati naxışlı, 6, 8, 12 bucaqlı və s. şəbəkə növləri var. Şəbəkəyə yeni bir detal əlavə edəndə, təzə bir növ olur. Tarixən şəbəkə üçün ən yaxşı material Şərq çinarı hesab edilib. Hazırda o, nadir ağac növü sayıldığından onunla eyni struktura malik olan meşə fıstığı ağacından istifadə edirik".

Tofiq Rəsulov deyir ki, COP29 tədbiri Azərbaycanın qədim və zəngin tarixi-mədəni irsinin təbliği baxımından olduqca əlamətdardır. Bu tədbirdə qədim sənət növlərimizi tanıtmaq müqəddəs borcumuzdur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*










## COP29-da ən çox diqqətçəkən Azərbaycan pavilyonudur

### Xalqımızın milli adət-ənənələri ziyarətçilərdə böyük maraq doğurub

**Noyabrın 11-də Bakıda açılmış COP-29 konfransında 60-a yaxın dövlət öz pavilyonunu təqdim edib. Bunların arasında ən çox diqqətçəkən və ziyarət olunan isə Azərbaycan pavilyonudur. Burada nümayiş olunan xalqımızın milli adət-ənənələrinə aid sənətkarlıq nümunələri - toxuculuq, yundan ip əyirmək, misgərlik, habelə musiqi, rəqslər və müxtəlif şirniyyatların təqdimatı ziyarətçilərdə böyük maraq doğurub.**

Heydər Əliyev Fondu və Sıfır Atık Fondu COP29-un "yaşıl zona"sında davamlılıq və sosial inkişaf naminə səylərini birləşdiriblər. Bu əməkdaşlıq Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və Türkiyənin Birinci xanımı Əminə xanım Ərdoğanın ətraf mühit, sosial inkişaf mövzusundakı təcrübələrinə əsaslanır.

Heydər Əliyev Fondu, ekoloji təşəbbüsləri ilə yanaşı, Azərbaycanın mədəni irsinin qorunmasına, eləcə də təhsil və sosial məsuliyyət layihələrinə dair səylərini artırır. Hər iki fond, cəmiyyətlərinin mədəni dəyərlərinə və təhsil səviyyəsinə töhfə verərkən, davamlı həllər yaratmağı hədəfləyir.

Sıfır Atık Fondu bu platformada resurs səmərəliliyi, tullantıların idarə edilməsi və təkrar emal sahəsindəki qabaqcıl layihələrini nümayiş etdirir. Türkiyənin sıfır tullantı yanaşmasını beynəlxalq arenada təbliğ etmək və ətraf mühitin qorunması üzrə maarifləndirməni artırmaq məqsədilə fond öz tədris proqramlarını və innovativ həllərini təqdim edir.

Pavilyonda Heydər Əliyev Fondu gənc nəslin maarifləndirilməsinə yönəlmiş layihələr və təşəbbüslər vasitəsilə sosial inkişaf öhdəliyini nümayiş etdirir. Sıfır Atık Fondu isə su səmərəliliyi və sıfır tullantı təcrübələrinə fokuslanaraq ətraf mühitin qorunması üzrə təşəbbüsləri vurğulayır. Bu əməkdaşlıq hər iki fondun ətraf mühit və sosial məsuliyyət sahələrində liderliyini önə çəkir.

Pavilyon davamlı inkişaf hədəflərinə töhfə verən layihələri ilə yanaşı, hər iki ölkənin sosial və mədəni sahələrə baxışını təqdim edir.

### "Gənclər evi" pavilyonu

COP29-un "yaşıl zonası"nda Gənlər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən "Gənclər evi" pavilyonunda hər gün müxtəlif tədbirlər və görüşlər keçirilir. Bura bütün gənc liderlərin, fəalların və qonaqların bir araya gəlməsi, fikirlərini bölüşməsi və unudulmaz xatirələr yaratması üçün canlı, rəngarəng və qonaqpərvər bir məkandır.

"Gənclər evi"ndə davamlılıq, iqlim liderliyi üzrə seminarlar, vörkşoplar və dünyanın hər yerindən gənclərin səslərini əks etdirən panel müzakirələri, yaradıcı sessiyalar, şəbəkə görüşləri, müsabiqələr və maraqlı oyunlar keçirilir. Pavilyonda xüsusi guşə yaradan İdrak liseyi şagirdləri ölkəmizdə keçirilən BMT forumunda iqlim dəyişikliyinə qarşı mübarizədə zəruri addımların atılması, birgə və davamlı inkişafın təminatı ilə bağlı qoyulan bütün öhdəlikləri yerinə yetirməyə hazır olduqlarını bildirirlər. Bu tədris ocağı COP29 layihəsi ilə çıxış edərək iqlim savadlılığının artırılmasına, iqlim həllərinə fəal şəkildə töhfə verə biləcək gəncliyin yetişdirilməsinə önəm verdiyini sərgiləyir.

### "Azərbaycanın təcrübəsindən yararlanacağıq"

COP29-da "SOCAR Green"in pavilyonu SOCAR-ın bərpaolunan və təmiz enerjiyə sadiqliyini nümayiş etdirmək üçün əsas platforma rolunu oynayır. Pavilyon tanınmış beynəlxalq şirkətlər və təşkilatlarla innovativ layihələr, təşəbbüslər və tərəfdaşlıqlar təqdim etməklə şirkətin davamlı enerji gələcəyinə keçidə rəhbərlik etmək missiyasını vurğulayır.

Pavilyonda, həmçinin "SOCAR Green"in aşağıkarbonlu layihələrinin inkişafı və idarə olunması, "yaşıl enerji" sahəsində qabaqcıl təcrübə, biliklərin toplanması və istifadəsi kimi strateji prioritetləri əks olunub.

Digər pavilyonlara gəldikdə isə, Rusiya stendi taxtadan düzəldilmiş ənənəvi qırmızı yuva kuklaları - matryoşkalarla və buğda sünbülləri ilə bəzədilib.

Qırğızıstan pavilyonu öz milli koloriti ilə seçilir - burada keçədən hazırlanmış qırğız yurtasını görmək olar.

Çin stendində tədbir iştirakçıları üçün yelpiklər rənglənir və onlara hədiyyə verilir.

Oman pavilyonu isə 2025-ci ilin fevralında sultanlıqda iqlim həftəsini elan edir.

Növbəti COP30 konfransı Braziliyada keçiriləcək. Bu ölkənin rəngarəng stendində "COP30-da görüşənədək" yazısı bunu xatırladır. Braziliyanın Turizm Nazirliyinin baş koordinatoru Karolina Favero de Souza Bakıda qarşılaşdıqları səmimi və mehriban münasibətdən, BMT Forumunun yüksək səviyyədə təşkil olunmasından danışdı: "Bu, iştirakçıların özlərini evdəki kimi hiss etməsinə səbəb olur. Gələn il Braziliyada keçiriləcək COP30 konfransında Azərbaycanın təcrübəsindən yararlanacağıq".

Bakıda keçirilən COP29 noyabrın 22-də öz işini bitirəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*






COP29 Baku Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır

## *Dünya Turizm Təşkilatının baş katibi:* "Turizm sülh də daxil olmaqla, bir çox dəyişikliyin böyük hissəsidir"

**"COP29 bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki heç vaxt bu konfranslarda turizm haqqında geniş formatda danışılmamışdı. Bu, ilk dəfədir və buna görə də BMT-nin Turizm Təşkilatı və turizm sənayesi üçün tarixi bir gündür. Mən çox sevinirəm ki, bu hadisə Azərbaycanda baş verir".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri noyabrın 20-də Bakıda COP29 çərçivəsində keçirilən Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşündə Dünya Turizm Təşkilatının (UNWTO) baş katibi Zurab Pololikaşvili səsləndirib.

Baş katib bildirib ki, bu görüşün təşkili böyük və vacib bir ənənənin başlanğıcıdır, çünki turizm sülh də daxil olmaqla, bir çox dəyişikliyin böyük bir hissəsidir. İlk növbədə, sülhdən danışdıqda, turizm sülhü bərqərar etmək üçün ən güclü alətlərdən biridir. Sülh bu gün dünyada heç vaxt olmadığı qədər vacibdir. "Biz iqlim dəyişikliyindən, ətraf mühit problemlərindən, qida israfından danışırıq. Bu yeni çağırışlar turizmə və onun effektivliyinə təsir edir", - deyə o əlavə edib.

Zurab Pololikaşvili, həmçinin diqqətə çatdırıb ki, ilk dəfə COP26-da turizm üzrə yaranan platforma bu gün artıq beynəlxalq qurumlar, hökumətlər və özəl sektoru da əhatə etməklə genişlənib. Vurğulayıb ki, bu sahədə əməkdaşlıq və həmrəylik çox vacibdir.

## "COP29-da məqsədlərimizə nail ola bildik"

**"Mən Azərbaycana Nigeriyadan gəlmişəm. COP29-da maraqlı söhbət və müzakirələr oldu. Burada mən indiyə qədər çox şey öyrəndim və iqlim müdafiəsi ilə bağlı bir çox yüksək intellektli şəxslərlə əlaqələr qurdum".**



Bu barədə AZƏRTAC-a açıqlamasında COP29-un nigeriyalı iştirakçısı, Birləşmiş Millətlər Təşkilatının Təlim və Tədqiqat İnstitutunun (UNITAR) "Prince Uwagboe" Fondunun rəhbəri Osawemwenhio Uwagboe deyib.

"Bu mənim iştirak etdiyim sayca ikinci COP-dur. Dubayda keçirilən COP28-də də iştirak etmişəm. Gələn il Braziliyada keçiriləcək COP30-da da iştirak etməyi düşünürəm. COP29-da məqsədlərimizə nail ola bildik, çünki biz buraya kifayət qədər çox geniş proqramla gəlmişik. Qarşıdakı günləri səbirsizliklə gözləyirik. Mən Azərbaycanda keçirilən builki COP29 təşkilatçılarını çox yüksək qiymətləndirirəm. Bakı olduqca gözəl şəhərdir. Mən heç vaxt burada olmamışdım. Bakı haqqında çox şey bilmirdim və bura bir xəzinəyə bənzəyir. Bu gözəl şəhərə yenidən gəlmək istərdim", - deyə Osawemwenhio Uwagboe əlavə edib.

## *İnger ANDERSEN:* "Qlobal emissiyaların 8,8 faizi turizm sektorunun payına düşür"

**"Məni heyran edən odur ki, COP29 sədrliyi ilk dəfə turizm məsələsini iqlim dəyişikliyi kontekstində qəti şəkildə gündəmə gətirib. Bu, çox vacibdir, çünki emissiyalar üzrə hesabatlar bizə göstərir ki, hazırda doğru istiqamətdə irəliləmirik, 2023-cü ildə emissiyalarımız azalmaq əvəzinə 1,3 faiz artıb".**



Bu fikirləri noyabrın 20-də Bakıda COP29 çərçivəsində keçirilən Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşündə BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen deyib.

"Əslində, 2030-cu ilə qədər 1,5 dərəcə Selsi həddində qalmaq istəyiriksə, emissiyalarımızı 41 faiz azaltmalıyıq. İki dərəcə həddinə çatmaq istəyiriksə, - düşünürəm, bunu istəmirik, - o zaman emissiyalarımızı 28 faiz azaltmalıyıq. Bunun üçün beş ilimiz var, lakin bu, tamamilə mümkündür".

UNEP-in icraçı direktoru diqqətə çatdırıb ki, qlobal emissiyaların 8,8 faizi turizm sektorunun payına düşür və turizm sektorunun yaratdığı emissiyaların 70 faizi nəqliyyat vasitələri tərəfindən meydana gəlir. Bütün bu məqamlar turizm sektoruna yeni baxışları labüd edir, emissiyaların azaldılması imkanlarını nəzərdən keçirməyi tələb edir.

İ.Andersen yekunda vurğulayıb ki, turizm sektorunun iqlim dəyişikliyi kontekstində dayanıqlılığı təmin etmək üçün böyük potensialı var.




# Paytaxtın hər küçəsində COP29 ab-havası var

### Bu qürurverici sözləri COP29 iştirakçılarından tez-tez eşitmək olur

**Son dörd ilin böyük qələbələr sevincini yaşayan xalqımızın qəlbi qürur hissilə döyünür. Bakıda dünyanın bütün dövlətlərinin, eləcə də ən nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-su sessiyası (COP29) kimi mötəbər tədbir uğurla davam etdirilir.**

Odur ki, bu günlərdə paytaxtın gəzməli və görməli məkanlarında olan qonaqların sayında çoxluq müşahidə olunur. COP29-un iştirakçıları tədbirdən sonrakı vaxtlarını səmərəli keçirmək üçün gözəlliyi ilə bir-birindən diqqətçəkən parklara, xiyabanlara, İçərişəhərə, xüsusilə şəhərimizin simvoluna çevrilən Dənizkənarı bulvara, Zəfər parkına və digər tarixi ünvanlara üz tuturlar.

Qız qalasının yaxınlığında Afrikadan - Keniyadan gəlmiş COP29-un iştirakçısı Hassan Muqambi ilə söhbətləşirik. İlk tanışlıqdan üzündə təbəssüm yaranır: "Jurnalistlərə böyük hörmətim var, bu sənəti çox sevirəm..."

COP29-da iştirak etmək üçün Azərbaycana gəldiyini deyən Hassan Muqambi bildirdi:

- İqlim dəyişiklikləri ilə məşğul oluram. Konfrans dünyamız üçün mühüm önəm daşıyır. Heç birimiz iqlim dəyişikliyinin dəhşətli fəsadlarından sığortalanmamışıq. Bu gün Afrika ölkələri iqlim dəyişikliklərinə görə ən çox əziyyət çəkənlərdir. Bakıda bu nüfuzlu sammitdə mühüm qərarlar qəbul etdik. Yerin orta temperaturu və hava şəraitinin uzunmüddətli dəyişməsi dünyanı narahat edir. Gələcək onilliklərdə vəziyyətin daha da pisləşəcəyi ehtimalı olsa da, elm adamları təcili tədbirlərin iqlim dəyişikliyinin ən pis təsirlərini məhdudlaşdıra biləcəyini düşünürlər.

Ölkəmizdə ikinci dəfə olduğunu bildirən afrikalı qonaq şəhərimizin onu heyran etdiyini dedi. Qeyd etdi ki, Bakı gözəlliyi ilə yanaşı, təmizliyi ilə də diqqət çəkir:

- Parklar, xiyabanlar şəhərə xüsusi gözəllik verir. Yol kənarlarında əkilmiş ağaclar diqqətimi çəkdi. Sevindirici haldır ki, yeni ağaclar, kollar əkilir. Bu, ətraf mühitin qorunması üçün çox vacibdir.

Çoxsaylı gəzinti iştirakçısı sırasında Zəfər parkına yollanırıq. Buradakı ziyarətçi çoxluğu heyranlıq doğurur. Etiraf edək ki, bu, həm də ölkəmizin evsahibliyi etdiyi COP29 çərçivəsində Azərbaycana gələn turistlərin sayının artması ilə əlaqədardır. Mötəbər tədbirə qatılan müxtəlif xalqların, millətlərin nümayəndələri Azərbaycanın əsrarəngiz paytaxtını öz gözləri ilə görürlər. Onlar tədbirdə iştirak etməklə yanaşı, milli-mənəvi dəyərlərimizə - musiqimizə, yeməklərimizə, tarixi abidələrimizə də böyük maraq göstərdiklərini və paytaxtımızın arxitekturasını bəyəndiklərini bildirdilər. Qeyd etdilər ki, dünyanı narahat edən qlobal məsələlərin Bakıda müzakirə olunması Azərbaycana olan inamı göstərir.

Növbəti müsahibimiz Abdullah Saleh Samed COP29-da iştirak etmək üçün Dubaydan gəlib. Özünün İordaniyadan olduğunu deyən logistika üzrə mütəxəssis Bakının COP29-a yüksək səviyyədə hazırlaşdığını dedi:

- Bu mötəbər konfransda müzakirə edilən məsələlər dünyanın diqqət mərkəzindədir. Mən də tədbirdə iştirak edirəm. Bu gün bəşəriyyəti ən çox narahat edən problemlərdən biri iqlim dəyişmələridir. İqlim böhranı təhlükəsini yaradan amillər, onunla mübarizə aparmaq yolları araşdırılır. Tədbirdə iqlim fəaliyyətində Azərbaycanın qlobal əməkdaşlıq üçün yüksək standartlar müəyyən etmək səylərindən bəhs edilir. İnanırıq ki, COP29 dünya üçün böyük töhfələr verə bilər.

Rusiya Federasiyasından gəlmiş Yekaterina Krıylova ilk dəfədir Azərbaycanda olur. Dedi ki, burada olduğu 2 həftə ərzində şəhərin görməli yerlərini gəzib:

- Azərbaycan irimiqyaslı qlobal tədbirlərə yüksək səviyyədə evsahibliyi edir. COP29-a hazırlıq tədbirləri də təqdirəlayiqdir. Hər şey əladır. Demək olar ki, idealdır. Bu mötəbər tədbirə dünyanın hər yerindən çoxlu nümayəndə heyəti gəlib. Mövzu müasir dövr üçün çox aktualdır.

Aydındır ki, iqlim böhranı sərhəd tanımır, hamıya təsir edir. Bu səbəbdən Bakıda keçirilən Birləşmiş Millətlər Təşkilatının COP29 konfransına böyük maraq var. Çünki konfransın əsas gündəliyi xüsusilə həssas ölkələr üçün iqlim dəyişikliyi ilə mübarizə məqsədilə lazımi maliyyənin necə təmin edilməsidir. Təbii fəlakətlərlə effektiv mübarizə aparmaq üçün əməkdaşlıq zəruridir. Bu baxımdan ekoloji problemlərdən qorunmaq üçün dünya ölkələri həmrəy olmalıdırlar.

Azərbaycanda olduğum müddətdə muzeyləri gəzdim. Qədim xalçaçılıq sənəti ilə bağlı çoxlu məlumat topladım. Regionlara da səfər etmək fürsətini qaçırmadım. Gəncə şəhərində və Quba rayonunda oldum.

Qonaq Bakı ilə bağlı xoş təəssüratlarını da bildirdi:

- İndiyədək 10-a yaxın ölkədə olmuşam. Ölkəniz, paytaxt Bakı xüsusilə xoşuma gəldi. Şəhər təhlükəsiz və çox gözəldir. Mərkəzi park, Dənizkənarı bulvar, içərişəhər, Ağ şəhər və digər yerlər möhtəşəmdir. Xalqınız qonaqpərvər və mehribandır. Bir sözlə, Azərbaycanda olmaqdan məmnunam. Memarlıq baxımından maraqlı çoxsaylı bina diqqətimi çəkdi. Tarixi abidələr, çoxmədəniyyətli mühit və yaşıl parklar gözlərimdən yayınmır. Alış-veriş mərkəzlərindən xeyli müxtəlif əl işləri və suvenirlər almışam. Paytaxtınızın hər küçəsində, hər yerində COP29 ab-havası var.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




















COP29 Baku Azerbaijan

# Azərbaycanın "yaşıl təşəbbüsləri"nə qlobal dəstək



## COP29 çərçivəsində "Dayanıqlı, rəqəmsal Orta dəhliz və onun hüdudlarından kənar" mövzusunda nazirlərin "dəyirmi masa"sı keçirilib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) Urbanizasiya, Nəqliyyat və Turizm Günü keçirilib. Bu çərçivədə "Dayanıqlı, rəqəmsal Orta Dəhliz və onun hüdudlarından kənar" mövzusunda nazirlərin "dəyirmi masa"sı təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin təşkilatçıları Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE), BMT-nin Asiya və Sakit okean ölkələri üçün İqtisadi və Sosial Komissiyası (ESCAP) olub.

"Dəyirmi masa" Orta dəhliz və digər beynəlxalq dəhlizlərdə dayanıqlılıq və rəqəmsallaşmanın təşviqi, qarşılıqlı əlaqə və iqlim fəaliyyətinin yaxşılaşdırılması üçün regional əməkdaşlığın gücləndirilməsi məqsədi daşıyıb. Tədbirdə region və onun hüdudlarından kənar ölkələrin nəqliyyat sahəsinə məsul nazirləri və yüksəksəviyyəli rəsmiləri, beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev təhlükəsiz, etibarlı və ekoloji cəhətdən təmiz qlobal nəqliyyat sisteminin qurulmasında rəqəmsallaşmanın əhəmiyyətini vurğulayıb: "Azərbaycan ekoloji dayanıqlılığı gücləndirmək, tranzit vaxtlarını və istixana qazı emissiyalarını azaltmaq üçün Orta dəhliz boyunca rəqəmsal həllərin inteqrasiyasına sadiqdir".

"Dayanıqlı və rəqəmsal nəqliyyat dəhlizlərinin yaradılması daha səmərəli nəqliyyat və ticarət dövriyyəsi vasitəsilə karbon emissiyalarını azaltmaqla, alternativ enerji mənbələri və "ağıllı nəqliyyat" həllərindən istifadə etməklə və yalnız avtomobil daşımalarından asılı olmadan daha davamlı, dayanıqlı olan çoxsaylı nəqliyyat növlərinin inteqrasiyası yolu ilə Paris Sazişinin məqsədlərinə çatmaqda mühüm rol oynayır", - deyə BMT Baş katibinin müavini, Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibi Armida Alişahbana qeyd edib.

"Rəqəmsal dəhlizlər səmərəliliyi artıran, əməliyyatları asanlaşdıran və nəticədə daha "yaşıl təchizat" zəncirləri yaradan davamlı şəbəkə formalaşdırmaq üçün önəmlidir. Xəzər dənizi vasitəsilə Avropa və Asiyanı birləşdirən Orta dəhliz davamlı, rəqəmsal inkişaf üçün böyük potensiala malik strateji marşrutlardan biridir. Məqsədyönlü səylərlə biz bu dəhlizi tam rəqəmsal və ahəngdar işləyən marşruta çevirə, xərcləri azalda, bütün maraqlı tərəflər üçün proqnozlaşdırıla bilən şəffaflığı artıra bilərik", - deyə BMT Baş katibinin müavini və Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi Tatyana Molçan vurğulayıb.

"Dəyirmi masa"da Orta dəhliz və qlobalmiqyaslı digər nəqliyyat marşrutlarında davamlılıq və rəqəmsallaşmanı təşviq etmək üçün bu istiqamətdə son nailiyyətlər, eləcə də təşəbbüslər müzakirə olunub. Yaşıl, dayanıqlı nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı uğurlu təcrübələr, enerji səmərəliliyinin artırılması üçün intellektual nəqliyyat sistemlərindən istifadə nümunələri nəzərdən keçirilib. İnnovativ texnologiyaların yükdaşımalarda karbon qazı emissiyasının azaldılmasına təsiri, dayanıqlı nəqliyyat ələqələrinin təmin edilməsində avtomatlaşdırma və süni zəkanın potensial rolu barədə fikir mübadiləsi aparılıb.

"Dəyirmi masa"da nəqliyyat dəhlizlərinin rəqəmsallaşmaya keçidinin işçi qüvvəsinə təsiri, insan resurslarının inkişafı və "yaşıl iş yerləri"nin yaradılması imkanları da araşdırılıb. Tədbirdə qeyd edilib ki, son geosiyasi dəyişikliklərdən əvvəl Azərbaycan Orta dəhlizin strateji potensialını anlayaraq nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə proaktiv sərmayə qoyub. Orta dəhliz infrastrukturunun genişləndirilməsi indi də prioritetdir. Azərbaycan həmçinin tarif siyasətinin uyğunlaşdırılması, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, nəqliyyat və dəmir yolu müəssisələrinin fəaliyyətinin sinxronlaşdırılması məqsədilə tərəfdaş ölkələrlə fəal əməkdaşlıq edir.

Vurğulanıb ki, ölkənin rəqəmsal strategiyasının mərkəzi komponenti Rəqəmsal Nəqliyyat və Logistika İnformasiya Sistemidir. Bu platforma dəhliz boyunca yüklərin səmərəli izlənilməsi, proqnozlaşdırılması və idarə olunmasını dəstəkləyərək şəffaflığı təmin edəcək.

"Dəyirmi masa"nın yekunlarına dair kommünike qəbul olunub. Kommünike regionda dayanıqlı inkişaf və rəqəmsal transformasiya prosesini irəlilətmək üçün kollektiv öhdəliyi əks etdirir.

## COP29-da "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksəksəviyyəli cənub-cənub siyasi dialoqu" mövzusunda tədbir keçirilir

**Bakının evsahibliyi etdiyi COP29 çərçivəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Beynəlxalq Əmək Təşkilatının (BƏT) təşkilatçılığı ilə "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksəksəviyyəli cənub-cənub siyasi dialoqu" tədbiri başlayıb.**




AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək tədbirin gündəliyinə "yaşıl iqtisadiyyat"a əmək bazarında ədalətli keçid üçün hamıya layiqli "yaşıl iş yerləri"nin inkişafının, dairəvi iqtisadiyyat yanaşmalarının təşviqi, bu sahədə təcrübə mübadilələrinin aparılması, Beynəlxalq Əmək Təşkilatının Tölimatlarının tətbiqi məsələlərinin müzakirəsi daxildir.

Müxtəlif ölkələrdən, BMT-dən və digər beynəlxalq təşkilatlardan yüksəksəviyyəli rəsmilərin iştirak etdiyi tədbirdə Şərqdə əmək münasibətləri üzrə ilk kollektiv müqavilə olan "Mazut Konstitusiyası"nın 120 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iqlim dəyişikliyinin nəticələrinin yumşaldılması və təsirinin azaldılmasının yalnız birgə səylərlə mümkün olacağını bildirib. Nazir "yaşıl iqtisadiyyat"a keçid dövründə əmək bazarı ilə bağlı çağırışlara uyğun olaraq ölkəmizdə görülən tədbirləri, həmçinin sosial müdafiə sisteminin gücləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. Dövlət sosial xidmətlərinin keyfiyyətinin daha da artırılması üçün nazirliyin xidmət sahələrində rəqəmsal həllərdən və süni intellektin üstünlüklərindən istifadə edildiyini, 160 xidmətin 90 faizindən çoxunun rəqəmsallaşdırıldığını qeyd edib.

Həmçinin e-sosial portalının, "Əmək və Məşğulluq" altsisteminin və digər rəqəmsal alətlərin önəmini, rəqəmsal transformasiyanın sosial islahatların uğuru üçün vacibliyini və sosial müdafiə sisteminin daha çevik və dayanıqlı olmasına imkan verdiyini bildirib. O, Azərbaycanda aparılan sosial islahatlar, təkcə son 6 ildə ölkədə 4 milyon insanı əhatə edən 4 sosial islahat paketinin icra edildiyini vurğulayıb. Qeyd edilən dövrdə 624 min işsiz və işaxtaran şəxsin münasib işlərlə təmin edildiyini, 35 min şəxsin peşə hazırlığına, 2700-dən çox insanın əməkhaqqının birgə maliyyələşdirmə proqramına, 92 min şəxsin özünüməşğulluq proqramına cəlb olunduğunu bildirib.

S.Babayev sosial-iqtisadi inkişaf və inklüziv cəmiyyətin formalaşması və ekoloji təmiz gələcəyin qurulmasında əməkdaşlıq, anlaşma və birgə səylərin təsir olunduğunu vurğulayıb.

Həmçinin BMT İnkişaf Proqramının Baş katibinin köməkçisi, Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Marcos Neto, BƏT-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Beate Andres, BMT Avropa İqtisadi Komissiyasının icra katibinin müavini, BMT-nin Avropa və Mərkəzi Asiya Ətraf Mühit və İqlim Dəyişikliyi Problemləri üzrə Koalisiyasının həmsədri Dmitri Mariyasin, BMT-nin İqlim Dəyişikliyi Təsirlərinin Azaldılması Departamentinin rəhbəri Ceyms Qrabert, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibinin müavini Erik Manzi, Beynəlxalq İşəgötürənlər Təşkilatının Asiya ölkələri üzrə vitse-prezidenti Sonya Janahinin çıxışları dinlənilib. Onlar "yaşıl iş yerləri"nin inkişaf etdirilməsinin, bu istiqamətdə fəaliyyətin təşviqinin "yaşıl iqtisadiyyat"a keçid üçün vacibliyini vurğulayıblar.

Tədbir panel sessiyalarla, müvafiq sahələrdə təcrübələrin mübadiləsi ilə davam edib. Sessiyalarda BMT İnkişaf Proqramının mütəxəssisi Sanqji Li, Qırğızıstanın Əmək, Sosial Təminat və Miqrasiya Nazirliyinin şöbə müdiri Bermet Karabayeva, Mançester Universitetinin (Böyük Britaniya) professoru Yan Miles, SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva, Çinin Müəssisə Konfederasiyasının icraçı vitse-prezidenti və Baş katibi Zhu Hongren, AHİK sədrinin müşaviri Fuad Ələkbərov və digərləri çıxış ediblər.

Tədbir çərçivəsində inklüziv və genderə cavab verən və ədalətli keçidi hədəfləyən iqlim tədbirlərinin inteqrasiyasına dair təşkil olunan regional "dəyirmi masa"da əmək və əhalinin sosial müdafiəsi nazirinin birinci müavini Akmadi Sarbassov, Qırğızıstanın əmək, sosial təminat və miqrasiya nazirinin birinci müavini Muhtarbek Baymurzayev, Tacikistanın əmək, miqrasiya və məşğulluq nazirinin müavini Qiyomiddin Davlatzoda, Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini Lütfihak Alpkan, Özbəkistanın məşğulluq və yoxsulluğun azaldılması nazirinin müavini Rano Turdiboeva, Serbiyanın Əmək Nazirliyinin müşaviri Jelena Vasiç, İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin baş direktoru Azər Bayramov və digərlərinin "yaşıl iqtisadiyyat"a ədalətli keçid üçün həll yolları, gender bərabərliyinə və inklüzivliyə diqqətin artırılması ilə bağlı fikirləri dinlənilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov "yaşıl iqtisadiyyat"a keçidin sürətli və uğurlu olmasının ilk növbədə biznesin dayanıqlılığından, ixtisaslı və peşəkar işçi qüvvəsinin potensialından və onun səmərəli idarə olunmasından, yeni sosial dəstək mexanizmlərinin işlənib hazırlanmasından asılı olacağını vurğulayıb.

Qeyd edək ki, "Hər kəsə ədalətli keçid üçün nəzəriyyədən təcrübəyə: regionlararası yüksəksəviyyəli cənub-cənub siyasi dialoqu" noyabrın 21-də də davam edəcək.

## Camşed ŞOİMZODA: "Azərbaycanın yaratdığı Mərkəzi Asiya-Avropa nəqliyyat dəhlizləri Tacikistan üçün yeni imkanlar açır"



**Unikal su və hidroenerji ehtiyatlarına malik olan Tacikistan iqlim dəyişikliyi ilə bağlı ciddi çağırışlarla üzləşir. Qlobal istiləşmə və ölkənin şirin su ehtiyatlarının böyük hissəsinin cəmləşdiyi dağlıq bölgələrdə buzlaqların sürətlə əriməsi şəraitində resursların dayanıqlı idarə edilməsi məsələsi xüsusilə aktuallaşır. Mərkəzi Asiyanın əsas ölkələrindən biri olan Tacikistan təkcə yeni çağırışlara uyğunlaşmağa deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlıqda fəal iştirak etməyə çalışır.**

**Bakıda keçirilən COP29 konfransı çərçivəsində Tacikistan Respublikasının energetika və su ehtiyatları nazirinin birinci müavini Camşed Şoimzoda "Report" agentliyinə eksklüziv müsahibəsində ölkəsinin buzlaqların əriməsi ilə necə mübarizə apardığı, su ehtiyatlarının dayanıqlı idarə edilməsi üçün hansı təşəbbüslərin həyata keçirildiyi və regional əməkdaşlığın niyə böyük əhəmiyyət kəsb etməsi barədə danışıb. Söhbət zamanı həmçinin energetika sahəsində Tacikistan-Azərbaycan əməkdaşlığının perspektivləri və iqlim maliyyələşdirilməsinin vaxtında həyata keçirilməsinin əhəmiyyəti də müzakirə edilib.**

*- Tacikistan iqlim dəyişikliyi şəraitində su ehtiyatları sahəsində hansı çağırışlarla qarşı-qarşıyadır?*

- Tacikistan su ehtiyatlarına görə ən zəngin Mərkəzi Asiya ölkəsidir. Biz bütün Mərkəzi Asiyanın su ehtiyatlarının 60 faizini formalaşdırırıq və çaylarımız region üçün mühüm rol oynayır. Lakin vəziyyət birmənalı deyil. Tacikistanın cənub hissəsi çayların yuxarı axarında yerləşir ki, bu çaylar da tamamilə burada formalaşır və region ölkələrini su ilə təmin edir. Şimalda isə biz artıq çayların aşağı axarında yerləşirik və digər ölkələrdən daxil olan su ehtiyatlarından qismən asılıyıq.

İqlim dəyişiklikləri artıq ciddi təsir göstərir və buzlaqların əriməsi xüsusi təhlükə yaradır. Ölkəmizin 93 faizi dağlarla əhatə olunub və Tacikistan haqlı olaraq buzlaqlar vətəni adlandırılır. Burada dünyanın ən böyük kontinental buzlağı yerləşir. Lakin iqlim dəyişikliyi səbəbindən son 30 ildə ölkə mindən çox mikrobuzlaq itirib. Bu, regionun su balansına əhəmiyyətli təsir göstərən bərpaolunmaz itkilərdir. Bununla əlaqədar təcili tədbirlər görülməlidir.

*-Tacikistan iqlim dəyişikliyi ilə mübarizə istiqamətində hansı səylər göstərir və regional əməkdaşlıq nə dərəcədə vacibdir?*

- Tacikistan üçün iqlim dəyişikliyi, sadəcə, dəbdə olan bir mövzu deyil, hər gün üzləşdiyimiz sərt reallıqdır. Onların mənfi təsiri xüsusilə su ehtiyatları vasitəsilə hiss olunur. Son beş il iqlim dəyişikliyinin məhz su vasitəsilə necə güclənildiyini göstərir. Statistikaya görə, qlobal iqlim dəyişikliyinin təsirlərinin 74 faizi su ilə əlaqəlidir, Tacikistanda isə bu göstərici 80 faizdən yüksəkdir.

Belə çağırışlar şəraitində ölkəmiz iqlim proseslərini fəal şəkildə öyrənir və adaptasiya tədbirləri görür. Lakin iqlim dəyişikliyinin təsirlərini aradan qaldırmaq üçün yalnız milli səylər kifayət deyil. Regional və qlobal xarakter daşıyan problemlər ölkələrin səylərinin birləşdirilməsini tələb edir.

Maliyyə dəstəyi, ekoloji təşəbbüslər və infrastruktur inkişafının özündə ehtiva edən dəqiq əməkdaşlıq mexanizmlərinin işlənib hazırlanması son dərəcə vacibdir. Yalnız resursların və təcrübənin birləşdirilməsi yolu ilə iqlim dəyişikliyi ilə səmərəli mübarizə aparmaq və yeni reallıqlara uyğunlaşmaq mümkündür.

*- İnkişaf etmiş ölkələr iqlim dəyişikliyi ilə mübarizəyə kifayət qədər maliyyə vəsaiti ayırırmı və bu vəsait nə dərəcədə ədalətli bölüşdürülüb?*

- Tədbirin təşkilatçısı kimi Azərbaycan diqqəti haqlı olaraq maliyyələşdirmə məsələlərinə yönəldib və biz bu mövqeyi tam dəstəkləyirik. Təəssüf ki, iqlim maliyyələşdirilməsində ciddi problemlər mövcuddur. Beynəlxalq maliyyə tərəfdaşları vəsaitlərin ayrılması ilə bağlı gurultulu bəyanatlar versələr də, onların ölkələrə verilməsi prosesi çox vaxt gecikir. Nəticədə pullar ünvanlarına çatanda bir çox adaptasiya tədbirləri artıq köhnəlmiş olur.

## Zhang LİNG: "Azərbaycan təhlükəsiz nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır"

**Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (CICA) prioritet sahəsi olan təhlükəsiz və effektiv nəqliyyat dəhlizlərinin inkişafında Azərbaycan əlaqələndirici ölkə kimi mühüm rol oynayır.**



"Report" xəbər verir ki, bunu CICA-nın baş katibinin müavini Zhang Ling BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən "Dayanıqlı Əlaqələrə Gedən Yollar: CICA və onun Üzv Dövlətlərinin, həmçinin Asiyada Regional Təşkilatların Təhlükəsiz, Effektiv və İqlimə Davamlı Nəqliyyat Dəhlizləri üçün Səyləri" mövzusunda tədbirdə deyib.

O bildirib ki, Avropa və Asiyanı birləşdirən əsas tranzit qovşağı kimi Azərbaycan davamlı əlaqənin transformativ potensialının nümunəsi göstərir: "Bir çox CICA üzv dövlətlərinin tranzit ölkələr olduğunu nəzərə alsaq, nəqliyyat dəhlizləri regional əməkdaşlığı gücləndirmək üçün ümumi baxışımızın tərkib hissəsidir".

O qeyd edib ki, CICA-nın ümumi təşəbbüsləri beş əsas meyarı əhatə edir: "Bunlara iqtisadiyyat, ekologiya, humanitar sahələr, təhdid və çağırışlar daxildir. CICA-ya üzv dövlətlər iqlimə davamlı nəqliyyat dəhlizlərinin inkişafına xüsusi diqqət yetirməklə, iqtisadi və ekoloji ölçülərə əhəmiyyətli töhfələr verməyə sadiqdirlər".

# COP-ların ən mükəmməli 29-cusu oldu

















## Azərbaycan bu günlərdə dünyanın mərkəzinə çevrilib

**Beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi Azərbaycan iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə yüksək töhfələrini verir. Respublikamızın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi buna bariz nümunədir.**

Azərbaycanın ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınmasına xüsusi əhəmiyyət verdiyi paytaxtımızda keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) günlərində bir daha diqqətə çatdırılır. Bu mötəbər tədbirdə iştirak etmək üçün dünyanın dörd bir yanından gələnlər ölkəmizin qlobal problemin həllində səylərini yüksək dəyərləndirirlər.



COP29 sədrliyi tərəfindən təşkil və idarə olunan "yaşıl zona"da ilk həmsöhbətimiz olan sudanlı **Tasneem Elfatih Hajeltom Siedahmed** iştirakçısı olduğu beynəlxalq tədbirin əhəmiyyətindən danışdı. O bildirdi ki, iqlim dəyişmələrinin təsirlərinə qarşı mübarizəni dəstəkləmək, dünyanı təhdid edən qlobal problemin həllinə çalışmaq bütün dövlətlərin prioritet məsələsi olmalıdır: "Azərbaycan bu istiqamətdə atdığı mühüm addımlarla, həyata keçirdiyi real işlərlə nümunədir. Maliyyə və iqlim dəyişikliyinin təsirlərinə qarşı müqavimətlə bağlı ölkənizin təşəbbüsləri bizim üçün olduqca ümidverici və təqdirəlayiqdir. Əminik ki, prosesə töhfə vermək imkanı olan ölkələrdən daha böyük maliyyə resursları əldə edə biləcəyik".

COP29-un sudanlı iştirakçısı qeyd edib ki, bu gün hamımız iqlim dəyişikliyindən təsirlənirik: "Səbəblər müxtəlifdir. İqlim dəyişikliyinə təsir göstərən amillərdən biri dünyada baş verən münaqişələrdir. Unutmaq olmaz ki, harada yaşamağımızdan asılı olmayaraq, bizim bir dünyamız var. Yer kürəsini münaqişələrin, iqlim dəyişmələrinin gətirdiyi fəlakətlərdən qorumalıyıq. Azərbaycanın yüksək səviyyədə evsahibliyi etdiyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında müzakirə edilən məsələlər, səsləndirilən fikirlər bütün dünyaya bir çağırışdır".

Həmsöhbətimizlə birlikdə tədbirin keçirildiyi məkanda - "yaşıl zona"da təşkil olunmuş Azərbaycan pavilyonunu dolaşırıq. Sudanlı iştirakçı burada nümayiş etdirilən əl işlərini çox bəyəndiyini deyir. Bildirir ki, əl işləri Azərbaycan xalqının zəngin mədəniyyətə malik olduğundan xəbər verir. Qonaq Azərbaycan mətbəxini də tərifləyir: "Yeməklərinizi, xüsusilə də şirniyyatlarınızı çox sevdim", - deyir.



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak etmək üçün müxtəlif ölkələrdən gələnlər arasında gənclər az deyil. Çindən gəlmiş **Ting Gui** də gənclərin təmsilçisidir. Qonaq COP29-un təşkilatçılığını yüksək qiymətləndirir, tədbirdəki ümumi koordinasiyanı və könüllülərin fəaliyyətini xüsusilə vurğulayır. Bildirir ki, Azərbaycanın belə böyük və əhəmiyyətli tədbirin təşkilində göstərdiyi səylər möhtəşəmdir: "Tədbirin çox yaxşı planlaşdırıldığı, yüksək səviyyədə koordinasiya olunduğu dərhal nəzərə çarpır. Təşkilati işlər yüksək səviyyədə həyata keçirilib. Könüllülərin hazırlığını, yardım göstərməyə həmişə çalışdıqlarını xüsusilə qeyd etmək istəyirəm", - Ting Gui deyir.

COP29-un çinli iştirakçısı bildirdi ki, iqlim dəyişikliyi ilə gənclərin güclü mübarizəsi təqdirəlayiqdir: "Burada digər ölkələrin nümayəndə heyətlərindəki gəncləri görmək mənə olduqca xoş təsir bağışlayır, eyni zamanda da ümidləndirir. Onlar bizi öz ölkələrinin çağırışları barədə məlumatlandırırlar. İqlim dəyişmələrinə qarşı mübarizədə biz gənclər necə kömək edə, dəstək verə bilərik, mən bu barədə COP29 çərçivəsində keçirilən konfransda çıxışımda da fikirlərimi bölüşəcəyəm. Düşünürəm ki, iqlim dəyişikliyi ilə mübarizə üçün gənclərin təşəbbüs və fəaliyyətlərinə böyük ehtiyac var. Gənclər bu məsələlərdə fəallıqlarını daha da artırmalıdırlar. Belə qlobal, bəşəriyyəti təhdid edən problemin həlli məsələsində gənclərin səsi eşidilməlidir. Çünki gələcəyin sahibi onlardır. İllər sonra bu günün gəncləri indiki liderlərin yerində olacaqlar. O zaman onlar özləri də problemlərlə üzləşəcəklər. Məlumdur ki, problemlər aradan qaldırılmadıqca, sabaha saxlandıqca, daha da böyüyür, həll olunması çətinləşir. Odur ki, gənclərin səsi çox önəmlidir. COP29-da bunun üçün hər cür şərait yaradılıb, geniş meydan verilib".



**Amanda Villyam** COP29-a Birləşmiş Krallıqdan gəlib. Azərbaycanın evsahibliyi etdiyi yüksəksəviyyəli COP29 tədbirində iştirakından məmnunluğunu ifadə edən qonaq deyir: "Burada iştirak etmək bizim üçün olduqca əhəmiyyətlidir. Çünki COP29 konfransı iqlim dəyişikliyi mövzusunda geniş müzakirələrin aparılması üçün vacib platformadır. COP29 bütün bəşəriyyət üçün mühüm olan ekoloji problemləri, təhlükələrə yol açan iqlim dəyişmələrinə qarşı birgə mübarizənin əhəmiyyətini diqqətə çatdırır. Düşünürəm ki, iqlim maliyyəsinin təmin edilməsinin vacibliyini tam şəkildə COP29 əks etdirir".

Ölkəmizdə gördüyü insanpərvərlik, qonağa ehtiram Amanda Villyama xoş təsir bağışlayıb. O, ölkəmizin paytaxtına gəldiyi gündən danışır: "Bakıda olduğum ilk gün yolu itirdim. Bir azərbaycanlı xanım mənə kömək etdi, yolu göstərdi. Mənə maraqlı gələn onun birinci dəfə gördüyü və heç tanımadığı bir adama göstərdiyi yüksək diqqət, qayğıkeşlik, mehribanlıq oldu. Sonrakı günlərdə müşahidə etdim ki, bunlar, ümumiyyətlə, azərbaycanlılara xas xüsusiyyətlərdir. Onu da deyim ki, Azərbaycan xalqı mehriban olduğu qədər də qonaqpərvərdir. Belə bir xalqı tanımaq, Bakı kimi gözəl şəhərdə olmaq, həqiqətən də, sevindiricidir. Burada gördüklərim xoş xatirələrə çevriləcək, heç zaman yaddaşımdan silinməyəcək".



COP29-un özbəkistanlı iştirakçısı **Serqey Dorjyev** qeyd edir ki, Azərbaycan iqlim dəyişmələrinə qarşı mübarizədə təşəbbüskar və fəal ölkədir: "Qardaş ölkənin bütün uğurları, yüksək nailiyyətləri kimi bu əhəmiyyətli məsələlərdə də göstərdiyi həssaslıq və geniş fəaliyyəti bizi çox sevindirir". Serqey Dorjyev Özbəkistanda da iqlim problemlərini həll etmək üçün geniş islahatlar həyata keçirildiyini vurğulayır: "Qlobal problemin daha da dərinləşməməsi, gələcəkdə geri dönüşü mümkün olmayan bir həddə çatmaması, vəziyyətin pisləşməsinin qarşısını almaq üçün ayrı-ayrı ölkələrdə deyil, bütün dünyada tədbirlər genişləndirilməlidir. Qardaş Azərbaycanın yüksək səviyyədə təşkil etdiyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası bu mənada, bütün dünya üçün əhəmiyyətli platformadır. Bu tədbir bir daha diqqətə çatdırır ki, hər kəs öz bacarığı, gücü yetdiyi qədər dünyanın bu günü üçün təhlükə, sabahı üçün təhdid olan ekoloji problemlərin həllinə, iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılmasına çalışmalıdır. Heç kim yaxasını kənara çəkməməlidir. Biz də burada Afrikanın səhralarında sudan əziyyət çəkən xalqlara özümüzün yeni texnologiyamızı təklif edirik. Deyim ki, bu texnologiya Afrika qitəsində sudan qıtlıq çəkən insanların problemlərinin aradan qaldırılmasına yardım etmək, təmiz su hasil etmək imkanı verir".

Serqey Dorjyev qeyd edir ki, COP29 təkcə təbiətdə baş verən iqlim dəyişikliklərini müzakirə etmək üçün bir platforma deyil, həm də insanlara xeyirxah xidmətlər göstərmək üçün yaranmış bir fürsətdir.

Ölkəmizdə ilk dəfə olduğunu söyləyən özbəkistanlı qonaq 2020-ci ildə böyük Qarabağ Zəfəri zamanı Bakıya gəlmək, qardaş xalqın sevincinə şərik olmaq istədiyini bildirdi. Azərbaycana gəlmək arzusunun, nəhayət, reallaşdığına şad olduğunu deyir.



Söhbətə qoşulan digər özbəkistanlı qonaq - **Yelena Bazarova**nın da Azərbaycana ilk gəlişidir. O, ölkəmizdə baş verən hadisələri izləndiklərini, Zəfərimizə sevindiklərini qeyd edir. Bildirir ki, Azərbaycanın böyük qələbəsindən sonra bütün sahələrdə inkişafı daha da güclənib. Bakıya gəlib bunu öz gözləri ilə görmək qonağı məmnun edib: "Azərbaycanda olduğum üçün şadam. Bakıda gözəllikləri yalnız gözlərimizlə görmürük, həm də bütün qəlbimizlə duyuruq".

Yelena Bazarova vurğulayır ki, qlobal miqyasda ən böyük problemlərdən biri iqlim dəyişmələri və bununla bağlı yaranan ətraf mühit böhranıdır. Dünya ölkələrinin buna laqeyd yanaşmamasının vacibliyini diqqətə çatdıran COP kimi genişmiqyaslı tədbirlərin keçirilməsi təqdirəlayiqdir. Dost və qardaş ölkə kimi Azərbaycanın bu regionda ilk dəfə COP29 konfransına evsahibliyi etməsi bizim üçün qürurvericidir. Tədbir çox yüksək səviyyədə təşkil olunub, burada işgüzar ab-hava var. Bizi xoş qarşılayırlar, özümüzü evdəki kimi hiss edirik".

Yelena Bazarova ümidvar olduğunu bildirir ki, bu beynəlxalq tədbirin keçirilməsi qardaş xalqlar arasında münasibətlərin daha da genişlənməsinə, əməkdaşlıqda yeni uğurlu addımların atılmasına da vasitə olacaq.



**Angela Kedaitiene** söhbətimizin əvvəlində bildirdi ki, indiyədək bir çox beynəlxalq tədbirlərdə iştirak edib. COP29 kimi böyük və mötəbər bir tədbirə Azərbaycanın evsahibliyi xüsusilə diqqətəlayiqdir. Qonaq qeyd edir ki, ölkəmiz bu məsuliyyətli işin öhdəsindən layiqincə gəlib.

"Yaşıl zonada" əməkdaşımızın həmsöhbəti olan Angela Kedaitiene vurğulayır ki, Azərbaycanın dünyada neft ölkəsi olaraq tanınmasına baxmayaraq, belə bir mövzudakı həssaslığı təqdirəlayiqdir. "Mən əslən litvalıyam. Bu beynəlxalq tədbirdə Cenevrəni təmsil edirəm. Professoram. Əvvəllər də Avropa Komissiyası ilə əməkdaşlıq etmişəm və dünyanın bir sıra böyük, tanınmış universitetləri ilə əlaqələrim var. O cümlədən Azərbaycanda da dostlarım çoxdur. Hesab edirəm ki, COP29 mənim üçün yeni tanışlıqlar imkanı yaradacaq. Əlaqələrimiz daha da genişlənəcək. Biz təbiətdə baş verən kataklizmlərə qarşı insanların münasibətlərini də öyrənməyə çalışırıq".

Angela Kedaitiene qeyd edir ki, ölkəmizdə olmaq, dünyanın bir çox yerindən gəlmiş on minlərlə iştirakçının qatıldığı COP29-da iştirak etmək olduqca maraqlı və əhəmiyyətlidir: "Ümid edirəm ki, Braziliyada keçiriləcək növbəti COP sammitində biz hamımız öz fəaliyyətimizi və səylərimizi müzakirə etmək üçün yenidən bir araya gələcəyik".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

















COP29 Baku Azerbaijan

# Dünya ekoloqlarının Bakı Sammiti









## COP29-un tərəfdaşı olan "ACWA Power" Xəzərin külək enerjisi potensialını gerçəyə çevirmək istəyir



**COP29-un "yaşıl zona"sında 58 yerli və xarici şirkətin məhsullarının nümayiş olunduğu pavilyonlar arasında bir stenddə maraq daha çoxdur. Bu stenddə bərpaolunan enerji mənbələrindən bəhs olunur. Onun sahibi isə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətidir.**

Ona görə də elektrik enerjisi və mineralsızlaşdırılmış su stansiyalarının layihə müəllifi, investoru və operatoru olan "ACWA Power" şirkətinin COP29-un enerji və su məsələləri üzrə rəsmi tərəfdaşı seçilməsi təsadüfi deyil. Bu tərəfdaşlıq həm də şirkətin bərpaolunan enerji sahəsində dayanıqlı təcrübələri tətbiq etmək öhdəliyinə sadiqliyinin göstəricisidir.

Şirkətin baş investisiya direktoru Tomas Brostrom deyir ki, belə möhtəşəm iqlim tədbirinin Bakıda keçirilməsindən dolayı çox məmnundur. Ötən il Dubayda baş tutan COP28-lə builki COP29-u müqayisə edən direktorun sözlərinə görə, son illər Azərbaycanda energetika sahəsi üzrə aparılan islahatlar, ölkədəki əlverişli investisiya iqlimi, xarici sərmayələrin qorunması, dinamik inkişaf və sabitlik hər bir investor üçün önəmli rol oynayır: "Şirkətimizin Azərbaycanda fəaliyyət göstərməkdə maraqlı olması da təsadüfi deyil. Çünki bu məsələdə dövlətlərarası əlaqələrimiz böyük əhəmiyyətə malikdir. "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının inşasını reallaşdıran və bu sahədə böyük təcrübəsi olan, eləcə də səmərəli fəaliyyəti ilə dünyada tanınan "ACWA Power" şirkətinin indiyədək tikintisini gerçəkləşdirdiyi stansiyaların enerji istehsalının gücü 42 min meqavatdan çoxdur".

Onu da qeyd edək ki, dünyanın ən böyük mineralsızlaşdırılmış su təchizatçısı olan "ACWA Power" şirkəti "yaşıl hidrogen" sənayesində novatorçu və qlobal enerji keçidi üzrə liderdir. 2004-cü ildə Ər-Riyad şəhərində təsis edilmiş şirkət o dövrdən bu günə kimi 4000-dən çox insanı işlə təmin edib. Hazırda şirkət Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiyanın 143 ölkəsində fəaliyyət göstərir. Öz strategiyalarını BMT-nin iqlim hədəflərinə uyğunlaşdıran "ACWA Power" enerjidən səmərəli istifadəni artırmaq, su ehtiyatlarından səmərəli istifadəni təmin etmək və ətraf mühitə təsiri minimuma endirmək üçün qlobal səviyyədə bərpaolunan enerji layihələri həyata keçirir. Hətta Özbəkistanda şirkətə məxsus kollec fəaliyyət göstərir. Təhsil müəssisəsi sırf bərpaolunan enerji üzrə ixtisaslı mütəxəssilər hazırlayır.

Şirkətin Azərbaycandakı layihəsi - "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməli 2022-ci ilin noyabrında qoyulub. Layihə çərçivəsində hər biri 6MVt gücündə olan turbinlər quraşdırılır. Abşeron rayonunun Pirəküşkül kəndində 17, Xızı rayonunun Stalçay kəndində 23 turbinin quraşdırılması planlaşdırılıb. Layihənin ümumi dəyəri 300 milyon dollardır. Stansiyada illik 1 milyard kilovat/saat elektrik enerjisi istehsal olunması nəzərdə tutulur ki, bu da 220 milyon kubmetrədək qaza qənaət etmək deməkdir. Stansiyanın 2025-ci ildə istismara verilməsi gözlənilir.

"ACWA Power" COP29-un "yaşıl zona"sında enerji sektorunun gələcəyini düşünən lider şirkət kimi dayanıqlı və məsuliyyətli təsrübələrini tətbiq etməyə sadiq qaldığını sərgiləyir. Pavilyonda təmsilçilərlə söhbət edərkən aydın oldu ki, şirkətin məqsədi qlobal enerji sənayesində çalışan həmkarları, eləcə də potensial tərəfdaşları və iqlim müdafiəçiləri ilə əməkdaşlıq əlaqələri qurmaq və enerji keçidində irəliləyiş əldə etmək üçün COP29 platformasından yararlanmaqdır.

Ötən 10 gündə COP29 "yaşıl" və "mavi" zonalarda fəaliyyətini uğurla davam etdirir. Bu uğurun əldə edilməsində rolu olan "ACWA Power" indiyə kimi keçirdiyi təqdimat, seminar, müxtəlif proqram və layihələrlə digər özəl və dövlət qurumları ilə çoxsaylı müqavilə və memorandum imzalayıb. Bir neçə gün əvvəl şirkətin baş direktoru Marko Arkelli AZPROMO ilə birlikdə təşkil olunmuş "COP29 Biznes, İnvestisiya və Filantropiya İqlim Platforması"nda fikirlərini söyləyərkən bildirib ki, şirkət Səudiyyə Ərəbistanı və Özbəkistanda "yaşıl hidrogen"ə sərmayə qoyub. Lakin "ACWA Power" pavilyonunun təmsilçilərinin sözlərinə görə, COP29 çərçivəsində şirkət üçün ən önəmli layihə SOCAR və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında bağlanan memorandumdur. Xəzər dənizinin Azərbaycan sektoru 157 qiqavatlıq külək enerjisi imkanlarına malikdir. Bu, çox böyük potensialdır və onu fürsətə çevirmək "ACWA Power" şirkətinin gələcəkdə həyata keçirmək istədiyi layihələrdəndir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*











## "Yaşıl mədəniyyət"

**XXI əsr süni intellekt erası, canlı və qeyri-canlı həyatın "ağıllı" modifikasiyası, innovativ inkişafla yanaşı, yeniliklərə yönəlik gərginliklər, təbiətin "istismarı" ilə iqlimin dəyişməsi, canlı həyatın bütün parametrlərinin - torpağın, havanın, suyun, təbiətin qorunması problemləri aktual müzakirə predmetidir.**



Dünyanın 200 ölkəsinin yekdil qərarı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinə Azərbaycanın evsahibliyi etməsi BMT səviyyəsində mövcud etibarlı tərəfdaş olmasından, respublikamızın nüfuzundan və beynəlxalq müstəvidə geosiyasi mövqeyindən irəli gəlir. Bu həm də dünya siyasətində Azərbaycanın iştirak yerinin göstəricisi, dövlətlər və beynəlxalq təşkilatların ölkəyə olan marağının ifadəsi, "yaşıl iqtisadiyyat"a keçid strategiyası məntiqidir. Bu missiyaya uyğun olaraq 2024-cü il ölkəmizdə Azərbaycan Prezidentinin sərəncamı ilə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub.

Xatırladaq ki, 2024-cü il sentyabrın 20-24-də BMT-nin Nyu Yorkdakı baş qərargahındakı tədbirdə "Gələcəyin sammiti" tədbiri keçirilmişdi. 22 ölkədən iştirakçıları olan 44 QHT nümayəndəsi iqlim ədaləti fəalları müxtəlifliyi, inklüzivliyi və gender bərabərliyinin təşviqinin təbliğində COP29 sədrliyinə dəstək nümayiş olunmuşdur.

Bakı COP29 tədbiri IV sənaye inqilabının "yaşıl enerji"li "yeni sənaye inqilabı" mədəniyyətinə doğru bəyanat və çağırışların səsləndiyi dünya səviyyəli tədbirdir. COP29 Bakı tədbirinin məğzi yeni "yaşıl hərəkatlı həyat" və "yaşıl iqlimli dünya yaradaq" mahiyyətlidir.

COP29-da, gender strateji xətti də xüsusi əhəmiyyət daşıdı. Belə ki, qadın siyasətçilərin, qadın rəhbər və birinci xanımların iştirakı ilə "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusundakı konfransda əsasən gender balansı ehtiva olundu. Bu aspektdən, 2024-cü il noyabrın 12-də COP29 çərçivəsində "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" adlı konfransda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, İtaliyanın baş naziri Ciorcia Meloni, Moldova Respublikasının Prezidenti Maya Sandu, Şimali Makedoniya Respublikasının Prezidenti Gordana Silyanovska-Davkova, Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan, BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Regina De Dominikis, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və s. iştirak ediblər.

Bu konfransın mühüm istiqaməti Mərkəzi Asiya və türkdilli ölkələrin iqlim dəyişikliyi ilə bağlı apardığı mübarizəni dünya ictimaiyyətinin nəzərinə yetirmək və gənclərin baxışlarını iqlim məsələlərinə yönəltməklə, həm də beynəlxalq öhdəliklər sahəsində keçirilən tədbirlərin yekununa diqqət yetirilməsi idi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bu konfransda ictimai-siyasi və sosial-humanitar paradiqmalı məzmunda ətraflı məruzə ilə çıxış etdi. Xanım Mehriban Əliyevanın məruzəsinin əsas paradiqmaları "ölkələrə sülh və əmin-amanlıq diləməklə" dünyaya barış çağırışı idi.

Birinci vitse-prezident elmi-ictimai yönlü çıxışında "biosferin çirklənməsi, içməli suyun qıtlığı, quraqlıqlar, ərzaq təhlükəsizliyi probleminə" də toxunaraq Azərbaycanın bərpaolunan enerji-"yaşıl mədəniyyət"li uğurlarını real faktlarla açıqladı.

Bəs COP29 Azərbaycana nə qazandırdı...

- Bakının növbəti dəfə beynəlxalq miqyaslı tədbirlərə evsahibliyini layiqli yerinə yetirən regional liderliyi dünyaya nümayiş olundu.

- COP29 böyük qlobal tədbirini keçirməklə ölkənin ictimai-siyasi, daxili sabitliyi, geoiqtisadi gücü, beynəlxalq münasibətlər sistemində yeri və rolu göstəricisini təsdiqlədi.

- Azərbaycanın bütün sahələrində bir sıra dividendlər qazandırmaqla ölkənin inkişafını, milli resurs və mahiyyətini, nüfuzunu daha da yüksəldərək tanıtdı.

- Ölkəyə yönəlik ikili standartlı mövqelərin qarşısının alınmasında Azərbaycanın gerçək reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasına əhəmiyyətli təkan oldu.

- COP29-da ölkənin iqtisadi investisiya, sosial və turistik əhəmiyyətinin böyük olduğunu əks etdirdi. Turizmin, hotelçiliyin, aqrar sektorun, qalanteriya sənayesinin inkişafına yeni bir impuls verəcəkdir. Bu, qeyri-neft sektoru üzrə dövlət büdcəsi gəlirlərinin də artmasına töhfə verəcəkdir.

- Bakıda keçirilən bu vacib platformada "dünyanın 80 faizinin iqlim dəyişikliyindən əziyyət çəkdiyi bir vaxtda" problemin həlli yolları müəyyənləşdirildi.

- Bakı COP29 tədbiri bəşər həmrəyliyinin simvoluna çevrilərək, hamı üçün daha təhlükəsiz, firavan və davamlı gələcək naminə platforma olaraq tarixləşdi.

- COP29 Bakı tədbiri dövlətin iqlim siyasətinin mütəşəkkil formalaşdırılması və inkişaf etməkdə olan ölkələrin "yaşıl mədəniyyət"inin ekoloji şüur və davranışının artmasına zəmin olacaqdır.

Bu yanaşmalardan da COP29 kimi mötəbər bir tədbirin Bakıda baş tutması, təbiətin ani olaraq yaratdığı gözlənilməz fəlakətlərin bəzən öncədən qarşısının alınması, törətdiyi fəsadların aradan qaldırılması və s. bu kimi iqlim dəyişikliyi ilə əlaqədar qərarların qəbulunda Azərbaycanın evsahibliyi ölkənin beynəlxalq səviyyədə aparıcı aktorlardan olduğu faktorudur.

Birinci vitse-prezident Mehriban Əliyevanın məruzəsi Konsensus və Ədalət paradiqmalı, "riyakarlığa yox deyək" Xeyirxahlıq və Həmrəylik mətnli, milli və beynəlxalq müstəvidə Sülh-Barışdırıcılıq missiyasını əxz edən humanitar çağırışlı Azərbaycan rəhbər qadınının motivasiyalı uğur siyasi ictimai-diplomatik fəlsəfəsidir.

*Rəna MİRZƏZADƏ,*
*professor*









COP29 Baku Azerbaijan

# Bakıdan dünyaya ədalət çağırışı

# Həqiqəti yalana satanlar...

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ötən ilin dekabrında 198 dövlətin yekdil qərarı ilə ev sahibi seçilməsi ölkəmizə qarşı inam və etimadın bariz nümunəsi idi.**

Son illər Azərbaycan bütün sahələrdə daha da sürətlənən inkişafı, qətiyyətlə irəliləməsi ilə öz sözünü deyir. Eyni zamanda nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığa önəm verməsini, həmin təşkilatların bəzilərinə sədrlik etməsi ilə mövqeyini nümayiş etdirir. Otuz il Ermənistanın işğalı altında qalmış ərazilərini ordusunun gücü ilə azad edən Azərbaycan qalib dövlət kimi dünyada mövqeyini daha da gücləndirib.

Diqqətəlayiq məsələlərdən biri də ölkəmizin bir-birinin ardınca nüfuzlu beynəlxalq tədbirlərə layiqincə evsahibliyi etməsidir. Odur ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının da yüksək səviyyədə təşkil ediləcəyi gözlənilən idi.

COP29-un başa çatmasına az qalıb. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına Azərbaycanın uğurla evsahibliyi etdiyi bütün dünyada vurğulanır. Tədbirin çox yaxşı təşkili, yüksək səviyyədə koordinasiya olunduğu, bir sözlə, ölkəmizin bu məsuliyyətli işin də öhdəsindən uğurla gəldiyi göz önündədir.

Qərəzli mövqe tutduqlarını açıq-aşkar büruzə verən, COP29-u gözdən salmağa cəhd göstərən bəzi ermənipərəst dairələr məqsədlərinə çata bilmədilər. Onların qarayaxma aksiyalarını, beynəlxalq media orqanlarında dərc edilmiş, hər sətrindən bədxahlıq, yalan, iftira yağan sifarişli məqalələrini Azərbaycan növbəti uğuru - dünyanın ən böyük və mötəbər beynəlxalq tədbirinə yüksək səviyyədə evsahibliyi etməsi ilə puça çıxardı. Onların bəd əməllərinə, qərəzkarlığına cavab olaraq bu gün ölkəmizdən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından dünyanın gələcəyini təhdid edən iqlim dəyişmələrinin fəsadlarından, qlobal problemlərdən xilas etməyə çağırışlar səslənir.

Dünya ictimaiyyətinin Azərbaycanın COP29-un yüksək səviyyədə təşkilatçılığını heyrətlə, hörmətlə seyr etdiyi vaxtlarda da xəbis niyyətli, riyakar, ağa qara deməkdən çəkinməyən diplomatlar yalanlarından utanmaq əvəzinə, bəd əməllərindən qalmırlar.

ABŞ-də islamofob, türkofob, maliyyə fırıldaqçısı, korrupsioner konqresmen kimi məşhur olan, Azərbaycana qarşı hər zaman fitnəkarlıq nümayiş etdirən Frank Peloninin də birdən-birə xislətini dəyişməyəcəyi, haqqın tərəfində dayanıb həqiqəti etiraf etməyəcəyi gözlənilməz deyildi. COP29-da iştirak etməyə, ölkəmizin paytaxtına çoxsaylı görüşlər keçirməyə gələn amerikalı konqresmenin hava limanında Azərbaycan mediasının suallarını cavablandırmaması bunun ilk təsdiqi oldu.

ABŞ-də erməni lobbisinin maraqlarına xidmət göstərmiş, ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə açıq hörmətsizlik nümayiş etdirmiş Frank Peloninin Azərbaycana səfəri haqlı olaraq ictimaiyyət tərəfindən sərt qınaqla, hiddətlə qarşılandı.

Üzdəniraq konqresmenin gəlişindən xəbər tutan yerli QHT rəhbərlərinin və ictimai fəalların Peloninin qalacağı hotelin qarşısına toplaşması onu marşrutunu dəyişməyə vadar etdi. COP29-da keçirildiyi məkanda görünən Frank Peloni burada yerli medianın Azərbaycana qarşı iftira kampaniyaları üçün hər ay erməni lobbi təşkilatlarından nə qədər maliyyə alması, lobbiçilik xidmətləri üçün tariflərinin neçə dollar olması ilə bağlı suallarını cavablandırmadı. Amerkalı konqresmen ABŞ-nin qanunvericilik orqanından təmsilçilərin iştirakı ilə COP29-da keçirilən brifinqdə iştirak təklifindən də haqlı suallardan yayınmaq üçün imtina etdi.

Frank Peloninin qalacağı hoteldə Azərbaycanın bir qrup QHT rəhbərləri və ictimai fəalları etiraz aksiyası, "Azərbaycan xalqından üzr istə!" şüarı ilə qarşıladılar. Nəhayət, Azərbaycanla bağlı bütün addımları düşmənçilik mövqeyində olan amerikalı konqresmen ölkəmizi tərk etdi.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə birgünlük lokal xarakterli antiterror əməliyyatında Ermənistanın otuz ilə yaxın işğalda saxladığı Qarabağ və Şərqi Zəngəzur ərazilərini azad etdi, suverenliyinin tam bərpasına nail oldu. Əgər Frank Peloni kimi diplomatların məqsədi haqqı, ədaləti müdafiə etmək olsaydı, onda gün kimi ortada olan bu həqiqətin üzərinə qara pərdə çəkməyə çalışmazdılar. Etiraf edərdilər ki, ədalətli olan, öz haqqını müdafiə edən, torpaqlarının işğalına son qoyan Azərbaycandır.

Ancaq onlar erməni lobbisinə yarınmaq üçün nə qədər canfəşanlıq etsələr də, yalana, iftiraya əl atsalar da, tarixi faktlar qarşısında hər zaman gülünc görünəcək, ifşa olunacaqlar.

Fakt olan həm də budur ki, Frank Pelonu kimilər əsl işğalçının Ermənistan, Fransa kimi dövlətlər olduğunu bilə-bilə, görə-görə susurlar.

Hələ də dənizaşırı ərazilərinin - Yeni Kaledoniya, Fransız Polineziyası, Fransız Qvianası, Martinik, Qvadelupa, Vallis və Futuna, Korsika, Qəmər Adaları İttifaqı və Haiti kimi ölkələrin yerli əhalisi Fransanın müstəmləkəçilik siyasətindən fəryad edirlər. Öz yurdunda, öz ölkəsində təhlükəsiz şəraitdə, azad və dinc yaşamaq, öz milli-mənəvi sərvətlərinə sahib çıxmaq istəyindən təbii nə ola bilər? Ancaq o xalqlar haqlarını tələb etdiklərinə görə, Emmanuel Makron hökumətinin sərt tədbirləri ilə qarşılaşırlar, fəalları həbs edilir, işgəncələrə məruz qalırlar.

Yüz illərdir ki, Fransanın müstəmləkə altında saxladığı Yeni Kaledoniya, Qvadelupa və Mayotdan sonra bu ilin sentyabrın əvvəlindən Martinikdə bahalığa qarşı etiraz nümayişləri keçirilməyə başladı. Həyatı, gün-rüzgarı onsuz da dözülməz həddə çatan, üstəlik ərzaq və gündəlik tələbat mallarının qiymətinin davamlı artımı ilə daha da yoxsullaşan martiniklilərin də etirazlarına Emmanuel Makron hökumətinin cavabı eyni oldu. Onların da problemlərinin həllinə diqqət göstərilmədi, həyat şəraitlərinin yaxşılaşdırılması üçün heç bir addım atılmadı. Rəsmi Parisin gördüyü tədbirlər yalnız həbslər, komendant saatının tətbiqi oldu.

Bu gün bütün dünyanın gözləri önündə Emmanuel Makron hökuməti Fransanın müstəmləkəçilik siyasətini böyük səylə davam etdirməkdədir. İşğalından qurtula bilməyən həmin ölkələrdə əhalinin vəziyyəti getdikcə daha da ağırlaşır. Dövlətləri müstəqillikdən məhrum edilmiş, azadlıqlarını itirmiş xalqların hayqırtısını Frank Peloni kimiləri eşitmək istəmirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*
















# Fransanın səfiri Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb

**Noyabrın 20-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**

Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüş zamanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib. Bu xüsusda Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin bu mötəbər tədbirinin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa Fransa tərəfindən təşviq edilməsinin, eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulunun qəbuledilməz olduğu vurğulanıb.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu diqqətə çatdırılıb.

Azərbaycanı hədəf alan, eləcə də normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

# *Ficili nazir:* "İqlim maliyyələşdirilməsi mexanizmləri aydın və ədalətli olmalıdır"

**Fici və digər Sakit okean adaları dünyada iqlim dəyişikliyinə az təsir edir. Amma bu ölkələr iqlim dəyişikliyinin mənfi nəticələrindən ən çox əziyyət çəkənlərdir.**



Bu fikirləri COP29-da iştirak edən Fici Respublikasının ictimai işlər, nəqliyyat və meteoroloji xidmətlər naziri Filipe Tuisavau deyib. O, iqlim dəyişikliyi ilə mübarizə və kiçik ada dövlətlərinin (SIDS) dəstəklənməsi kimi vacib məsələlərə toxunub. Nazir iqlim maliyyələşdirilməsi mexanizmlərinin aydın və ədalətli olmasının vacibliyini qeyd edərək, bu sahədə irəliləyişlərin əldə edilməsinin zəruriliyini vurğulayıb.

Filipe Tuisavau maliyyə mexanizmlərinin, xüsusən uyğunlaşma, azaldılma və zərər-təminat mövzularında daha konkret addımların atılmasının zəruri olduğunu deyib. Nazir kiçik ada dövlətlərinin borc yükünü artırmadan iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərini həyata keçirmək üçün qrant əsaslı maliyyələşmənin artırılmasını vacib hesab etdiklərini qeyd edib.

Nazir həmçinin Sakit okean adalarının iqlim dəyişikliyinə həssaslığı ilə bağlı elmi məlumatların beynəlxalq hesabatlarda tam əks olunmasının əhəmiyyətinə diqqət çəkib. Xüsusilə dəniz səviyyəsinin yüksəlməsi, okeanların turşulaşması və ekstremal hava hadisələrinin təsirləri ilə bağlı məsələlərin gələcək İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel (IPCC) hesabatlarında prioritet mövzular arasında yer almasının vacib olduğunu bildirib.

COP29-un təşkilatçılığından da danışan nazir Azərbaycanın qonaqpərvərliyini və tədbirin effektiv təşkilini təqdir edib.

# *Çhaya KAPİLAŞRAMİ:* "Turizmin iqlim gündəliklərinə inteqrasiyasını təmin edən yeni siyasətlər qəbul edilməlidir"

**"İqlim dəyişikliyi turizm sektorunu ciddi şəkildə təhdid edir və bu səbəbdən turizmin iqlim gündəliklərinə inteqrasiyasını təmin edən yeni siyasətlərin qəbulu zəruridir".**



"Report" xəbər verir ki, bunu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Əməliyyatların Koordinasiyası üzrə baş direktoru Çhaya Kapilaşrami COP29 çərçivəsində keçirilən "Turizm sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşü"ndə bildirib.

Ç. Kapilaşrami vurğulayıb ki, turizm sektoru dünyada icmaları və mədəniyyətləri birləşdirən güclü vasitədir:

"Turizm bizi yalnız mədəniyyətlər və icmalarla deyil, onların yerləşdiyi təbii ekosistemlərlə də bağlayır, insanlıq və planetimizə qarşı empatiya və sevgi yaradır. İqlim dəyişikliyi bu sektora ciddi təhdidlər yaradır. Gözəl sahillərdən kiçik ada dövlətlərinə, qədim küçələrdən mədəniyyət paytaxtlarına qədər milyonlarla insanın dolanışığı təhlükə altındadır".

Onun sözlərinə görə, turizm dünya iqtisadiyyatının əsas hissəsidir və qlobal ümumi daxili məhsulun 9 faizini təşkil edir.

"Bu sahəni və onun əsaslandığı ekosistemləri qorumaq üçün təxirəsalınmaz tədbirlər görülməlidir. Qlazqo bizə Turizmdə İqlim Fəaliyyəti haqqında ilk bəyannaməni təqdim etdi. İndi isə Bakıda təqdim olunan yeni bəyannamə sektorun iqlim məqsədlərinə uyğunlaşdırılması üzrə kollektiv səylərimizin miqyas və ambisiyalarını göstərir. Ölkələr yeni və innovativ yollar tapmalı, həm də planetin gözəlliyini məhv etməməlidir", - Ç.Kapilaşrami vurğulayıb.

O əlavə edib ki, bu məqsədlərin ölkələrin milli iqlim planlarına (NDC və NAP) daxil edilməsi vacibdir: "Dekarbonizasiya, ekosistemlərin bərpası və dayanıqlığın artırılması əsas istiqamətlərdir. Azərbaycan hökumətinin liderliyini, Ümumdünya Turizm Təşkilatı ilə əməkdaşlığını və UNEP-in dəstəyini yüksək qiymətləndirirəm. Bu təşəbbüslər dayanıqlı resurslardan istifadəyə, davamlı mobilliyə və tullantıların səmərəli idarə edilməsinə yönəlmiş innovativ transformasiya üçün mühüm addımdır".

Ç. Kapilaşrami hesab edir ki, dövlət-özəl tərəfdaşlıqları təşviq olunmalı və sektor "net sıfır" əməliyyatlara keçid üçün maliyyə resursları ilə təmin edilməlidir: "Turizmin mərkəzində duran icmalar isə unudulmamalıdır. COVID-19 pandemiyası zamanı böyük dayanıqlılıq nümayiş etdirən bu icmaların bərpası və dayanıqlı inkişafı üçün birlikdə işləməliyik".

# *Dominikalı nazir:* "Azərbaycan tərəflər arasında razılaşmaların əldə edilməsi istiqamətində aktiv iş aparır"

**Dünya birliyi iqlim maliyyəsi üzrə məqsədlərə nail olmağı təmin etməlidir.**



Bu fikirləri Dominikanın ətraf mühit naziri Koyzer Frederik bildirib.

Onun sözlərinə görə, maliyyə ilə bağlı danışıqlar davam edir, lakin daha böyük nəticələr əldə etmək lazımdır: "Hesab edirik ki, 200 milyard məbləğ kifayət deyil. İnkişaf etmiş ölkələr məqsədlərə nail olmaq üçün maliyyələşməni artırmalıdırlar".

Nazir Azərbaycanın tərəflər arasında razılaşmaların əldə edilməsi istiqamətində böyük iş apardığını vurğulayıb və ölkənin sədrliyini yüksək qiymətləndirib:

"Biz öz məhdud resurslarımızdan istifadə etməklə iqlim dəyişikliyinin təsirlərini və onların aradan qaldırılması üçün fəaliyyətimizi, o cümlədən iqlim sabitliyinə investisiyaları nümayiş etdirməliyik. Səsimizi lazımi instansiyalara çatdırmalıyıq ki, onlar irəli getməkdə bizə kömək etsinlər".

COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq

## COP29 çərçivəsində "Beynəlxalq aviasiya və iqlim dəyişikliyi" mövzusunda panel müzakirəsi keçirilib



**COP29-un Urbanizasiya, Nəqliyyat və Turizm Günü çərçivəsində "Beynəlxalq aviasiya və iqlim dəyişikliyi" adlı yüksəksəviyyəli panel müzakirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyi və Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) birgə təşkilatçılığı ilə baş tutub.

Paneldə hökumət rəsmiləri, sənaye liderləri və müxtəlif sektorlardan olan maraqlı tərəflər beynəlxalq aviasiyanın dekarbonizasiyası mövzusunda müzakirəyə qatılıblar.

Tədbiri giriş sözü ilə açan ICAO Baş katibinin COP üzrə nümayəndəsi Ceyn Hyup bildirib ki, beynəlxalq aviasiya qlobal əlaqə və iqtisadi artım üçün əsas rol oynamağa davam etsə də, ICAO və onun 193 üzv dövləti 2050-ci ilə qədər sektorun xalis sıfır karbon emissiyalarına nail olmaq öhdəliyini götürür: "Aviasiyada ekoloji cəhətdən təmiz yanacağın istehsalı, istifadəsi istiqamətində potensialın artırılmasına, maliyyələşməyə çıxış xüsusi səylər və əməkdaşlıq tələb edəcək".

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov çıxışında iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib. Bildirib ki, Azərbaycan ekoloji cəhətdən təmiz yük dəhlizlərini inkişaf etdirir, beynəlxalq ekoloji standartlara cavab verən aşağı emissiyalı logistikanı və dayanıqlı yükdaşıma əməliyyatlarını dəstəkləyən siyasəti qəbul edir: "Azərbaycan aviasiya sənayesində ekoloji cəhətdən təmiz təcrübələri daha da inkişaf etdirmək və həyata keçirmək üçün beynəlxalq maraqlı tərəflərlə tərəfdaşlığa açıqdır".

Daha sonra Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyinin Proqram direktoru Məhəmməd Əl-Tayyar çıxışında Səudiyyə Ərəbistanının aviasiya sektorundakı problemləri hərtərəfli həll etmək, eyni zamanda real və davamlı həlləri təmin etmək üçün göstərdiyi səyləri vurğulayıb: "Səudiyyə Ərəbistanının daha dayanıqlı aviasiya sektoruna sadiqliyi onun aşağı karbonlu aviasiya yanacaqlarının tədqiqinə və inkişafına əhəmiyyətli sərmayə qoymasında, həmçinin ICAO kimi tərəfdaşları vasitəsilə beynəlxalq tanınmada özünü göstərir".

Panel müzakirəsi ICAO Baş katibinin COP üzrə nümayəndəsi Ceyn Hyupun moderatorluğu ilə keçirilib.

Tədbirdə spiker qismində London İmperial Kollecinin professoru Sergey Kravçenko, "Saudi Aramco" şirkətinin vitse-prezidenti Musaab Məhəmməd Əlmulla, "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Samir Rzayev, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) Davamlılıq üzrə baş vitse-prezidenti Mari Ouens Tomsen, Hava Nəqliyyatı üzrə Fəaliyyət Qrupunun (ATAG) icraçı direktoru Haldane Dodd, Dövlət Mülki Aviasiya Agentliyinin direktor müavini Nazim Ziyadov və Asiya İnkişaf Bankının (ADB) Nəqliyyat üzrə direktoru Ceyms Leder çıxış ediblər.

Paneldə aviasiya sektorunda emissiyaların azaldılması üçün güclü və qabaqlayıcı qlobal tədbirlərə və ICAO-ya üzv dövlətlərin xalis sıfır (Net Zero) hədəfinə nail olmaq üçün potensial əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb. Eyni zamanda bu istiqamətdə beynəlxalq siyasət və çərçivələrin inkişaf etdirilməsi ilə əlaqədar məsələlər akademik dairələr, sənaye, hökumətlər və beynəlxalq təşkilatların diqqət yetirməli olduğu əsas sahələr barədə fikir mübadiləsi aparılıb.

## *BƏƏ naziri:* "İqlim dəyişikliyi ilə mübarizədə turizm sahəsinin transformasiyasına sadiqik"



**Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) iqlim dəyişikliyi ilə mübarizədə turizm sahəsinin transformasiyasına sadiqdir.**

"Report" xəbər verir ki, bunu BƏƏ-nin iqtisadiyyat naziri Abdullah bin Touq Al Marri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən turizm sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşündə bildirib.

Onun sözlərinə görə, turizm həm mühüm iqtisadi hərəkətverici qüvvə, həm də iqlim dəyişikliyinin təsirlərinə qarşı həssas olan sektordur: "Turizm bir çox ölkələrdə davamlılıq və inklüzivlik baxımından əhəmiyyətli olduğu üçün 2030 Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) əsas hərəkətverici qüvvəsidir.

O bildirib ki, turizm sektoru iqlim dəyişikliyi ilə mübarizədə əsas sahələrdən birinə çevrilməlidir: "Bu sahənin transformasiyasına ehtiyac var. Biz bu transformasiyaya sadiqik. Dayanıqlı turizm BƏƏ-nin Yüzillik strategiyası çərçivəsində iqtisadi diversifikasiya konsepsiyasının təməl daşıdır. Biz turizm əməliyyatlarının dekarbonizasiyası, ekosistemlərin bərpası və iqlim davamlılığının gücləndirilməsi məqsədilə təşəbbüslər həyata keçiririk".

## *Abdul Aleem XAN:* "Yaşıl mobillik" yanaşmasının əsas sütunlarından biri nəqliyyatın elektrifikasiyasıdır"



**Pakistan üçün "yaşıl mobillik" yanaşmasının əsas sütunlarından biri nəqliyyat vasitələrinin elektrifikasiyasıdır.**

"Report" xəbər verir ki, bunu Pakistanın kommunikasiya naziri Abdul Aleem Xan COP29-da İqlim və Urbanizasiya üzrə Nazirlər Toplantısı çərçivəsində "Yaşıl Şəhər Nəqliyyatı" adlı yüksəksəviyyəli "dəyirmi masa"da deyib.

"Milli səviyyədə Pakistan "yaşıl nəqliyyat" təşəbbüslərini dəstəkləyən aydın siyasət çərçivələrinin yaradılmasına sadiqdir. Milli nəqliyyat siyasətimiz iqlim məqsədlərimizlə uzlaşdırılır və hər bir şəhər nəqliyyatı layihəsinin davamlı, azkarbonlu və iqlim şoklarına davamlı olmasını təmin edir", - deyə o vurğulayıb.

Onun sözlərinə görə, Pakistanın "yaşıl iqtisadiyyat"a keçid və dekarbonizasiya sahəsində maliyyə ehtiyacları yüksək olaraq qalır: "Ölkə iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün beynəlxalq iqlim maliyyəsinə çıxışın artırılmasını nəzərdə tutur. Pakistan Paris Sazişinin 6-cı maddəsində nəzərdə tutulan alətlərdən istifadəni də nəzərdən keçirir. Pakistan artıq maliyyələşdirmə mənbələrini şaxələndirməyə kömək edəcək bazar və qeyri-bazar yanaşmalarını, o cümlədən yaşıl-mavi istiqrazları, karbon qiymətləndirmə alətləri və s. müəyyən edib".

## "Nəqliyyat dəhlizləri ilə dayanıqlı gələcəyə doğru: İqlim siyasətində dəmir yolları"



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Azərbaycan Dəmir Yolları" QSC (ADY) və Beynəlxalq Dəmir Yolları İttifaqının (UIC) birgə təşkilatçılığı ilə "Nəqliyyat dəhlizləri ilə dayanıqlı gələcəyə doğru: İqlim siyasətində dəmir yolları" adlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir iqlim dəyişikliklərinə qarşı mübarizədə Azərbaycanın lider rolu və dayanıqlı nəqliyyatın təmin edilməsi, xüsusilə dəmiryol şəbəkəsinin karbon emissiyasının azaldılmasına verdiyi həlledici töhfəyə həsr olunub.

Tədbirin əsas müzakirə mövzuları Azərbaycanın tranzit qovşağı olaraq "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzrə yükdaşımaların artırılmasında aktiv fəaliyyəti, dəmir yolları nümunəsində nəqliyyatda dekarbonizasiya səyləri, ADY-nin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri və Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində artan rolu olub.

ADY sədri Rövşən Rüstəmov tədbirdə "Azərbaycanın regional və qlobal iqlim məqsədlərinə nail olunmasında Azərbaycanın rolu: Ölkənin nəqliyyat strategiyasında dəmir yollarının rolu" mövzusunda çıxış edərək ADY-nin qlobal iqlim çağırışlarına uyğun olaraq 2023-cü ildə BMT-nin Qlobal Sazişinə üzv olması, beynəlxalq GRI və SASB standartları əsasında ADY-də müvafiq diaqnostikanın aparılması və bu diaqnostikanın nəticəsi olaraq ilk dəfə "Dayanıqlılıq hesabatı"nın hazırlanaraq ictimaiyyətə təqdim olunması barədə məlumat verib.

Rövşən Rüstəmov qeyd edib ki, son iki ildə ADY karbon emissiyasının azaldılması istiqamətində mühüm nailiyyətlər əldə edib, Azərbaycan dəmiryol şəbəkəsinin 63 faizi elektrikləşdirilib və bərpaolunan enerjinin potensialından geniş istifadə edilib. 2023-cü ildən etibarən ADY enerji istehlakını 5 faiz, təbii qaz istehlakını 16 faiz, su sərfiyyatını 23 faiz, karbon emissiyasını isə 9 faiz azaltmağa müvəffəq olub. Ötən il sərnişinlərin 100 faizinin, yüklərin isə 80 faizinin daşınması elektrik enerjisi hesabına həyata keçirilib.

ADY sədri bildirib ki, COP29-da əsas gözləntilərdən biri dayanıqlılıq təşəbbüslərinin maliyyələşdirilməsidir: "Bu məsələ həmçinin "Azərbaycan Dəmir Yolları" QSC-nin gündəliyində yer alıb. ADY-nin 2030-cu ilə qədər strategiyasında "yaşıl maliyyələşmə" imkanlarından istifadə etməklə dayanıqlılıq layihələrinin icra edilməsi öz əksini tapıb. Ötən ay Asiya İnkişaf Bankı (AİB) ilə dəmir yollarında dekarbonizasiya sahəsində əməkdaşlığa dair missiya sənədinin imzalanması bunun bariz nümunəsidir".

Sonra Dəmir Yolları Əməkdaşlıq Təşkilatının sədri Miroslav Antonoviç, Beynəlxalq Dəmir Yolları İttifaqının sədri və Polşa Dəmir Yollarının baş icraçı direktoru Alan Berud, AİB-nin Nəqliyyat Sektoru Qrupunun direktoru Ceyms Leder, "Masdar" şirkətinin Azərbaycan üzrə direktoru Murad Sadıxov və ADY sədrinin müavini Arif Ağayev dəmir yollarının ekodost nəqliyyat növü olması, bərpaolunan enerjidən istifadənin artırılması təşəbbüsünün dəstəklənməsi və beynəlxalq maliyyə institutları tərəfindən bu təşəbbüsün maliyyələşdirilməsi kimi məsələlər ətrafında çıxışlar ediblər.

Daha sonra sual-cavab formatında panel müzakirələri təşkil olunub, nəqliyyat ekspertləri və media nümayəndələri adıçəkilən qurumların rəhbərlərinə beynəlxalq dəhlizlərin inkişafı, rəqəmsallaşma, yükdaşımalarda aşağı karbon göstəricilərinə nail olunması üçün gələcək hədəflər barədə suallar ünvanlayıb və bu istiqamətlərdə səmərəli müzakirələr aparılıb.

Sonda ADY ilə UIC arasında "Dəmir yollarının iqlim öhdəliyi" sənədi imzalanıb.

## COP29-da "Şəhərlərin təsiri: Şəhər iqlim gündəliyini necə sürətləndirə bilər?" adlı tədbir keçirilib

**COP29 çərçivəsində Azərbaycan pavilyonunda "Şəhərlərin təsiri: Şəhər iqlim gündəliyini necə sürətləndirə bilər?" adlı sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, sessiyada çıxışında Afrika Birləşmiş Şəhərlər və Yerli Hökumət Təşkilatının baş katibi Jan Pier Elonq Mbassi COP29-un yüksək səviyyədə təşkilatçılığını qeyd edib və öz təşkilatı barədə ətraflı məlumat verib.

"Mən qərargahı Mərakeşin Rabat şəhərində yerləşən submilli təşkilatın ümumi təşkilatı olan Birləşmiş Şəhərlər və Afrika Yerli Hökumətinin baş katibiyəm və Şərqi Afrika üçün Keniya, Nayrobi, Cənubi Afrikada isə Viktoriya şəhərində bizim regional ofislərimiz var. Beləliklə, biz bütün qitəni əhatə edirik. Submilli və yerli hökumətlərin mandatlarının məqsədi bu yerli hökuməti qorumaq, ölkədə söz sahibi olmaqdır. Beləliklə, biz Yerli İdarəetmələr Milli Assosiasiyasının dəstəyinə sahibik", - deyə baş katib vurğulayıb.

İqlim dəyişikliyinin icmalarına təsirindən narahat olduğunu deyən Jan Pier Elonq Mbassi bu dəyişikliyin qitə və şəhərlərə fəlakətli təsirlərini gördüyünü qeyd edib: "Meşə yanğınları, qasırğalar, daşqınlar və quraqlıq kimi daha tez-tez, daha şiddətli və əvvəllər gözlənilməz hadisələr nəticəsində iqlimə davamlı şəhərlər, infrastruktur yenidən işlənməldir. Enerji və su ilə mühafizəsi, şəhərlərimizin və strukturlarımızın iqlim hadisələrinə tab gətirə bilməsini təmin etmək üçün daha çox iş görməliyik".

EY şirkətinin təşkilatçılığı ilə keçirilən sessiyada dünyada şəhərlərin iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün apardıqları səylər müzakirə olunub. Yaşıl sahələrin təkmilləşdirilməsi, istixana qazı emissiyalarının azaldılması və davamlı nəqliyyat seçimlərinin inkişafı kimi əsas ekoloji problemlərə yönəlmiş şəhər rəhbərliyindəki nümunəvi layihələr nümayiş etdirilib.

## CICA və ona üzv dövlətlərin Asiyada nəqliyyat dəhlizləri üçün səyləri müzakirə olunub



**Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Dayanıqlı bağlantıya aparan yollar: CICA və ona üzv dövlətlərin və Asiyada Regional Təşkilatların Təhlükəsiz, Effektiv və İqlimə Dayanıqlı Nəqliyyat Dəhlizləri üçün səyləri" mövzusunda müzakirələr keçirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Ticarət Limanının meneceri Qurban Kərimbəylinin moderatorluğu ilə keçirilən tədbirdə CICA və ona üzv dövlətlər haqqında məlumat verilib.

Tədbirdə Bakı Limanının dünya səviyyəsində "yaşıl liman" kimi inkişafından danışılıb. Azərbaycanın dayanıqlı inkişaf məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərdən bəhs olunub. 28 üzv, 10 müşahidəçi dövlət, 5 müşahidəçi və 6 tərəfdaş təşkilatdan ibarət olan CICA sammiti haqqında məlumat verilərək Azərbaycanın daşıma dəhlizi sahəsindəki geosiyasi potensialı olduğu vurğulanıb.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin beynəlxalq əlaqələr üzrə meneceri Natavan Ağayeva Orta dəhlizin "yaşıl dəhliz"ə çevrilməsindən danışıb. O CICA ilə əməkdaşlığın əhəmiyyətini qeyd edərək, Bakı Limanının Asiya və Avropa arasında mühüm rol oynadığını diqqətə çatdırıb. Həmçinin Ələt limanı haqqında məlumat verərək, Xəzər dənizi vasitəsilə daşımaların həcminin artdığını vurğulayıb: "Regionun logistika və nəqliyyat qovşağı olan Bakı Limanı öz əməliyyat prinsiplərini Dayanıqlı İnkişaf Məqsədləri (DİM) prinsiplərinə uyğunlaşdırmağa, eləcə də regional təchizat zəncirinin inkişaf etdirilməsi üçün dayanıqlı mexanizmlər yaratmaqla qlobal davamlı inkişaf strategiyasına töhfə verməyə çalışır".

COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi














## COP29-un indoneziyalı iştirakçısı: "Biz aqroekologiya layihələri istiqamətində təbliğatımızı həyata keçiririk"

**"Mən İndoneziyada yerləşən Seruni Milli Demokrat Qadın Təşkilatını təmsil edirəm. Biz təşkilatda bütün - yoxsul, tələbə qadınlara əsaslanaraq bu təşkilatı yaratmışıq. Təşkilatımız gender bərabərliyi, qadınların torpaq və təbii sərvətlər üzərində nəzarəti, eləcə də iqlim ədaləti məsələsi üzərində işləyir. COP29 platforması vasitəsilə biz insanların rəhbərlik etdiyi aqroekologiya layihələri istiqamətində geniş ictimaiyyətə təbliğatımızı həyata keçiririk".**



Bunu AZƏRTAC-a açıqlaması zamanı COP29-un indoneziyalı iştirakçısı, Seruni Milli Demokrat Qadın Təşkilatının rəhbəri Triana Kurnia Wardani deyib.

"Biz istərdik ki, qlobal ölkələr səsimizi eşitsin və kənd təsərrüfatı təcrübələrimizi nəzərə alsın. Bunlar ətraf mühiti yüngülləşdirmək, bərpa etmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün bizə təsir edir. Biz COP29-dakı platformamızdan yararlanaraq kampaniyamızı və digər yerli təşkilatlarla əlaqəmizi maksimuma çatdırmaq, bilik bacarıqlarımızı mübadilə etmək, həmçinin təbliğat aparmaq üçün istifadə edirik ki, ölkəmizdə yerli hərəkatımızı da gücləndirə bilək", - deyə Triana Kurnia Wardani əlavə edib.

## COP29-un iştirakçısı: "İnkişaf etmiş ölkələr zəif və ya inkişaf etməkdə olan ölkələrə kömək etməlidirlər"

**"Mən əslən hindistanlıyam, amma Fransada yaşayıram. IEEE-nin (Institute of Electrical and Electronics Engineers) gənc mütəxəssislərini təmsil edirəm. Biz 160-dan çox ölkədə fəaliyyət göstəririk və 250 mindən çox gənci təmsil edirik. Müxtəlif texnoloji sektorlarda, elektrik, elektronika, bir sözlə, bütün texnoloji sahədə işləyirik".**



Bu barədə açıqlamasında COP29-un iştirakçısı Sneha Satish Hegde deyib.

O qeyd edib ki, gənclərlə əməkdaşlıq etmək, onları iqlimə cəlb etmək çox vacibdir. İqlim problemləri üçün mütləq maliyyə lazımdır.

Onun sözlərinə görə, inkişaf etmiş ölkələr zəif inkişaf etmiş ölkələrə və ya inkişaf etməkdə olan ölkələrə kömək etməlidirlər. İnkişaf etmiş ölkələr üçün bu mübarizə bəlkə də 20-50 il davam edir, hazırda inkişaf etməkdə olan ölkələr isə yeni başlayıblar. Onlar başlanğıc mərhələsindədirlər.

"Bu, mənim iştirak etdiyim ilk COP tədbiridir. Dubayda təşkil olunan COP28 haqqında da məlumatlıyam. Düşünürəm ki, bu miqyasda tədbir keçirmək çox çətindir. Mən gənclərin burada könüllü olaraq çalışdığını görürəm. Hər şey çox yaxşı təşkil olunub. Azərbaycan COP29-un uğurlu keçməsi üçün kifayət qədər səy göstərir. Hər kəs burada belə gözəl tədbirin təşkili üçün böyük iş görüb", - deyə Sneha Satish Hegde əlavə edib.

## Madaqaskarlı iştirakçı: "COP29 qlobal ekoloji problemlərin həlli üçün çox vacib tədbirdir"

**"Bu, Azərbaycana ilk səfərimdir və ikinci dəfədir ki, COP konfransında iştirak edirəm. Tədbirin təşkilatçılığı heyranedici səviyyədədir. Burada hər şey son dərəcə rahatdır, heç bir qarışıqlıq yaşanmır. Tədbir yüksək səviyyədə təşkil edilib".**



Bu sözləri COP29 çərçivəsində ölkəmizə gələn madaqaskarlı iştirakçı Mohajy Karine Vognimanorosolo müsahibəsində söyləyib.

BMT layihəsi üzərində çalışdığını bildirən M.K.Vognimanorosolo rəhbərlik etdiyi layihənin mahiyyətinə toxunub: "Üzərində işlədiyim layihə hökumət layihəsi olub, Dünya Bankı tərəfindən maliyyələşdirilir. COP29 çərçivəsində burada iştirak etməkdən böyük məmnunluq duyuram. Tədbirdə yönləndirici işarələr və məlumatlandırma xidmətləri çox yaxşı təşkil edilib. Hər şey yüksək peşəkarlıqla həyata keçirilib və əvvəlki təcrübəmə əsasən deyə bilərəm ki, bu dəfə təşkilatçılıq daha da təkmilləşdirilmiş səviyyədədir. Bir sözlə, COP29 beynəlxalq əməkdaşlıqda və qlobal ekoloji problemlərin həllində çox vacib tədbirdir".

## Ugandanın "Rething" təşkilatının baş icraçı direktoru: "İqlim dəyişmələrinə qarşı mübarizədə maliyyə olduqca vacibdir"

**COP29-da iştirak etməyimizin məqsədi gənclərin iqlimlə bağlı maliyyə dəstəyi almasıdır. Bundan əlavə, istərdik ki, gənclərə iqlim dəyişmələrinə qarşı mübarizədə daha böyük şərait yaradılsın, onlar təkcə ekofəal kimi fəaliyyətlə kifayətlənməsinlər.**



Bunu Ugandanın "Rething" iqlim dəyişmələrinə qarşı mübarizə təşəbbüsünün baş icraçı direktoru David Luganda deyib.

O qeyd edib ki, iqlim dəyişmələrinə qarşı mübarizədə maliyyə olduqca vacibdir. "Biz, həmçinin birgə əməkdaşlığı və gənclər təşkilatları ilə tərəfdaşlığı da qeyd etməliyik. COP29-da danışıqlar aparılmalı, razılıqlar əldə olunmalıdır. Deyə bilərəm ki, burada çox sayda imkanlar mövcuddur. Hansılar ki, bizə yeni tərəfdaşlıqlar qurmağa imkan verir", - deyə o əlavə edib.

## Meksika nümayəndəsi: "Azərbaycan yüksəksəviyyəli ev sahibidir, təşkilatçılıq əladır"

**"Meksika karbon emissiyalarını azaltmaq və iqlim dəyişikliyinin mənfi təsirlərini yumşaltmaq üçün bir sıra tədbirlər həyata keçirir. Ölkə yenilənmə enerjisi şəbəkəsini artırmağa çalışır".**



Bu sözləri açıqlamasında ICC Beynəlxalq Ticarət Palatasının Meksika ofisindən gələn müşahidəçi Erik Hernandes Qalleqo deyib. O qeyd edib ki, Azərbaycan yüksəksəviyyəli ev sahibidir, təşkilatçılıq əladır.

"Azərbaycan və ya hər hansı digər neft və qaz ölkəsi iqlim dəyişikliyinə qarşı mübarizədə daha çox iş görə bilir. Meksikada problem onda idi ki, keçmiş prezidentin fəaliyyəti dövründə təmiz enerjidən istifadənin artması dayandırılmışdı, çünki o, bərpaolunan enerji əvəzinə daha çox neft və qaz istəyirdi".

Erik Hernandes Qalleqo qeyd edib ki, Meksikanın yeni, ilk qadın prezidenti bərpaolunan enerjiyə keçid prosesində yeni texnologiyaların tətbiqinə önəm verir: "Yerli icmalar da daxil olmaqla iqlim dəyişikliyinin azaldılması və uyğunlaşmasına kömək etmək üçün bütün icmaları bu prosesə cəlb edir".

## Emilie BEAUCHAMP: "İqlim böhranının həlli üçün maliyyə sahəsində çox iddialı nəticə əldə etməliyik"

**"COP29-da diqqətim iqlimə uyğunlaşma üzərindədir və mən maliyyə danışıqlarını izləyirəm. Burada vacib olan məqam yeni kollektiv və kəmiyyətlə ölçülə bilən məqsəd üzrə yekun qərarın bir hissəsi kimi uyğunlaşmanın aydın şəkildə tanınmasına əmin olmaqdır".**



Bu sözləri müsahibəsində Beynəlxalq Davamlı İnkişaf İnstitutunun sübut, monitorinq, qiymətləndirmə və öyrənmə üzrə aparıcı işçisi Emilie Beauchamp deyib.

O vurğulayıb ki, məqsəd təkcə iqlimə uyğunlaşma üçün nə qədər maliyyə vəsaitinin olması ilə bağlı deyil, həm də bu vəsaitin ən həssas təbəqələr arasında necə əldə edilməsi və bölüşdürülməsidir.

"Dünyanın iqlim böhranının həllində irəliləyişini istəyiriksə, maliyyə sahəsində çox iddialı nəticə əldə etməliyik", - deyə o bildirib.

## Pakistanlı təmsilçi: "COP29-da könüllülər möhtəşəm iş ortaya qoyur"



Bu sözləri açıqlamasında COP29-da Pakistandan olan təmsilçi Aymen Rafiq Abbasi deyib. O həmçinin nəqliyyat sisteminin də çox yaxşı qurulduğunu qeyd edib: "Azərbaycan tədbiri çox gözəl təşkil edib. Hər şey əlçatandır".

Pakistanlı təmsilçi daha çox iqlim və gender məsələləri ilə əlaqədar COP29-da iştirak etdiyini bildirib. Onun sözlərinə görə, ölkəsi həmçinin konfransın karbon bazarları hissəsi ilə maraqlanır.

## Qabriyel LİLJENSTROM: "Biz iqlim böhranının ortasındayıq"

**"COP29 həqiqətən də çox vacib platformadır. Belə tədbirlərə indiki dövrdə hər zamankından daha çox ehtiyac var. Biz iqlim böhranının ortasındayıq, ona görə də dünya bir araya gəlməli və iddialı məqsədlər uğrunda birgə mübarizə aparmalıdır".**



Bu fikirləri açıqlamasında İsveçin "Qlobal Ekumenizm Təşəbbüsü"nün üzvü Qabriyel Liljenstrom bildirib.

O qeyd edib ki, COP29 konfransından əsas gözləntisi iqlim maliyyələşməsi ilə bağlı effektiv həll yollarının tapılmasıdır. "İqlim dəyişikliyinə uyğunlaşma prosesində beynəlxalq əməkdaşlıq və maliyyə dəstəyinin əhəmiyyəti xüsusi vurğulanmalıdır", - deyə o əlavə edib.

## Fatoumata DJİRE: "Azərbaycanın COP-a evsahibliyi etməsi hər ölkənin qazana biləcəyi nailiyyət deyil"

**"Azərbaycana və Bakı Təşəbbüs Qrupuna (BTQ) dəvətə görə öz təşəkkürümü bildirirəm. COP29 təşkilatçılıq baxımından yüksək səviyyədədir. BTQ COP29 çərçivəsində bizə böyük dəstək oldu".**



Bu sözləri müstəmləkəçilikdən əziyyət çəkən Malinin İnkişaf və Ağacların Qorunması və Bərpası Naminə Təşkilatının (ASRAD) meneceri Fatoumata Djire söyləyib.

Onun sözlərinə görə, Azərbaycanın COP29 kimi böyük tədbirə evsahibliyi etməsi təqdirəlayiqdir. Bu, hər bir ölkənin əldə edəcəyi nailiyyət deyil.

Fatoumata Djire vurğulayıb ki, dünyada insan haqlarının pozulması, iqlim dəyişmələri, neokolonializm kimi məsələlərlə daha çox iş görülməlidir.







COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi






## *Pakistanlı iqlim fəalı:* "COP29 iqlim dəyişikliyi ilə mübarizədə gənc nəslin fəallığına təkan verir"

**"İqlim dəyişikliyi məsələlərinin daha geniş yerli icmalar tərəfindən idarə edilməsi vacibdir. COP29-da iqlim siyasətinin hazırlanmasında yerli icmaların iştirakının artırılması əsas gözləntimdir. İqlim dəyişikliyinin ağır təsirlərini birbaşa yaşayan insanlar məhz yerli icmalardır. Təəssüf ki, bu icmalar qərar qəbuletmə proseslərində tez-tez nəzərə alınmır və kənarda qalırlar".**



Bu fikirləri COP29 çərçivəsində ölkəmizə gələn Pakistanın şimalında yerləşən "Globalist" icmasından yerli iqlim fəalı və Dağ və Buzlaq Mühafizə təşkilatçısı Didar Ali AZƏRTAC-a açıqlamasında söyləyib.

O həmçinin "İtki, Zərər və Ziyan Fondu"nun (iqlim maliyyəsi) yerli icmalara birbaşa çatdırılmasının əhəmiyyətini qeyd edib. D.Ali bu fonddan istifadənin effektivliyini təmin etmək üçün beynəlxalq tədbirlərdə, o cümlədən COP29-da ölkələrin öhdəliklərinin yalnız formal olaraq qəbul edilməsi ilə kifayətlənməməsinin vacibliyini vurğulayıb: "Bu öhdəliklər çox zaman konkret tədbirlərlə nəticələnmir. Yerli icmalar üçün fəal və nəticəyönümlü addımlar atılması olduqca vacibdir ki, iqlim dəyişikliyi ilə mübarizə real şəkildə həyata keçirilə bilsin".

İqlim fəalı COP29-un yüksək səviyyədə təşkilini xüsusi vurğulayaraq, tədbir zamanı könüllülərin fəaliyyətini diqqətəlayiq hesab edib: "Şəhərdəki könüllülər bizə metro stansiyalarından tutmuş, mehmanxanalara və küçələrə qədər hər yerdə kömək edirlər. Bu cür diqqətli təşkilati işlər tədbirin müvəffəqiyyətinə böyük töhfə verir".

Didar Ali yerli gənclərin səsini duyurmağa yönəlmiş fəaliyyətlərini də əhəmiyyətli hesab edib, COP29-un gənc nəsil üçün bir platforma yaradaraq onların iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki fəallığına təkan verdiyini söyləyib.

## Nigeriyalı redaktor mənfi tendensiyaların aradan qaldırılmasında COP29-un rolundan danışıb

**"Ölkəmizin təbii sərvətlərlə zəngin olması bizə böyük problemlər yaradır. Məsələn, müxtəlif ölkələrin şirkətləri bizim təbii sərvətlərimizi talayır. COP29 bu mənfi tendensiyaların aradan qaldırılması məsələsini gündəmə gətirməklə mühüm rol oynadı. Azərbaycana təşəkkür edirəm ki, bizim problemlərimiz bu konfransda səsləndirildi".**

Bu sözləri müstəmləkəçilikdən əziyyət çəkən Nigeriyanın İqlim Savadlılığı və Ədalət üçün "DA News Media Advocacy" agentliyinin baş redaktoru Abdullahi Dare Akoqun söyləyib.



O bildirib ki, COP29 neokolonializmdən əziyyət çəkən xalqlar və icmalar üçün platforma rolu oynaya bilər: "Azərbaycan konfrans vasitəsilə bizim kimi icmaların səsini dünyaya çatdırmaq üçün böyük dəstək olur. Xüsusilə onu vurğulamaq istəyirəm ki, Bakıda təşkil olunan COP29 çərçivəsində iqlim dəyişmələrinin yaratdığı problemlər, maliyyə problemlərinin həlli məsələsi bizim diqqətimizi çəkdi".

## *Toqolu nümayəndə:* "COP29-da iştirak etdikdə gördüm ki, əsl təşkilatçılıq belə olur"

**"Bakı Təşəbbüs Qrupuna və Azərbaycana dəvət üçün təşəkkürümü bildirirəm. Ölkəmdəki siyasətə inamım qalmayıb. İkiillik fasilədən sonra COP29-da iştirak etdikdə gördüm ki, əsl təşkilatçılıq belə olur".**



Bu sözləri müstəmləkəçilikdən əziyyət çəkən Toqonun Sağlam Ətraf Mühit uğrunda Könüllülər Assosiasiyasının (AVES) icraçı direktoru Koku Selom Aqvativa söyləyib.

O qeyd edib ki, Bakı Təşəbbüs Qrupu (BTQ) vacib məsələlərə toxunur. AVES-in icraçı direktoru onların problemlərinin həlli istiqamətində BTQ ilə səmərəli əməkdaşlıq ediləcəyinə inandığını bildirib.

## *COP29-un amerikalı iştirakçısı:* "İnkişaf etməkdə olan ölkələrin bir çoxu iqlim dəyişikliyindən çox təsirlənir"

**"Hesab edirəm ki, bəzi problemlərin həllində kiçik addımlar ataraq böyük işlər görmək olar. Hazırda müzakirə edilən problem qlobal səviyyədə həll olunmalıdır. Biz iqlim dəyişmələri ilə mübarizəyə ayrılacaq maliyyənin davamlılıq üçün daha faydalı olan layihələrə necə sərf etmək barədə müzakirələr aparırıq".**



Bunu müsahibəsində COP29-da iştirak edən Amerikada yerləşən Antroposen İnstitutunun Data Elmi üzrə şöbəsinin direktoru Quvido Nunez deyib.

O bildirib ki, inkişaf etməkdə olan ölkələrin bir çoxu iqlim dəyişikliyindən çox təsirlənir və onların karbon emissiyalarını azaltmağa ehtiyacı yoxdur: "Həssas insanlara kömək etmək üçün infrastrukturları daha güclü və daha möhkəm etməliyik".

Tədbir iştirakçısı deyib ki, ölkəsinin siyasi administrasiyasında iqlim dəyişikliyinə inanmadıqlarını söyləyənlər var. O, bu fikirdə dəyişiklik etməyə çalışdıqlarını bildirib. "Bir alim kimi bu məsələ məni çox narahat edir. Onlar nüvə enerjisinə qarşı deyillər və düşünürlər ki, nüvə enerjisi bizim rifahımızı və həyat keyfiyyətimizi qurban vermədən karbon emissiyalarını azaltmağın bir yoludur. Çünki o, enerji təmin edə bilər. Həftənin yeddi günü, 24 saat günəş və külək enerjisinə ehtiyacımız var, amma eyni zamanda nüvəyə ehtiyacımız var. Gələcəyi görmək çətindir, amma düşünürəm ki, ən azı bu yolla ABŞ nüvə texnologiyasını təkmilləşdirməklə, onu ölkə daxilində və bütün dünyada yerləşdirməklə, iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək", - deyə COP29-un iştirakçısı bildirib.

Amerikalı qonaq həmçinin Azərbaycan xalqının son dərəcə mehriban və nəzakətli xalq olduğunu da diqqətə çatdırıb. Əlavə edib ki, buradakı yeməklərdən həzz alıb. "Şəhərin memarlığı, həqiqətən, möhtəşəmdir. Heydər Əliyev Beynəlxalq Aeroportuna gələndə oranın necə gözəl olduğunu gördüm. Azərbaycana mehriban evsahibliyinə görə çox minnətdaram", - deyə o əlavə edib.

## *"CAB International"ın nümayəndəsi:* "COP29 xüsusilə inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət daşıyır"

**"COP29 və bu kimi tədbirlər, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət daşıyır. Bu ölkələr hələ də müasir texnologiyalara uyğunlaşmaq imkanını əldə edə bilməyiblər. Çünki onların maliyyə resurslarına çıxışı məhduddur. Ona görə də bu ölkələrin bərpası və dayanıqlı inkişafı üçün əlavə dəstək göstərilməlidir".**



Bu fikirləri müsahibəsində COP29-da iştirak edən "CAB International" (CABI) beynəlxalq qeyri-kommersiya təşkilatının nümayəndəsi Lydiah Gatere bildirib.

O, Azərbaycanın evsahibliyi etdiyi COP29 konfransı ilə bağlı təəssüratlarını da bölüşüb: "Mən COP29-un təşkilatçılığını çox yüksək qiymətləndirirəm və tədbirin belə kompakt bir ərazidə təşkil olunmasını xüsusilə təqdir edirəm. Həmçinin nəqliyyatın çox mükəmməl səviyyədə təşkil olunması məni heyran etdi. Bu tədbirdə iştirak edənlər üçün böyük rahatlıq yaradır. Bundan başqa, müxtəlif sektorların bir araya gətirilməsi, onların sıx əməkdaşlıq etməsi çox təqdirəlayiqdir. Bu gün ilk dəfə "yaşıl zona" ərazisinə baş çəkdim və gördüm ki, bu yer həm geniş, həm də estetik baxımdan çox gözəldir".

Əvvəllər üç dəfə COP tədbirlərində iştirak etdiyini vurğulayan Lydiah Gatere Bakı konfransının logistik üstünlüklərindən də söz açıb. "Bu, mənim Azərbaycana ilk səfərimdir və burada iştirak etdiyim COP29 tədbiri məni çox təsirləndirdi. Əsas diqqətimi çəkən cəhətlərdən biri məsafələrin çox yaxın olmasıdır. Keçən il Dubayda keçirilən tədbirdə bir yerdən digərinə getmək üçün xeyli vaxt tələb olunurdu. Burada isə məsafələrin qısalığı hərəkəti xeyli asanlaşdırır. Bundan əlavə, tədbir məkanında geniş yaşıl ərazilərin və su məkanlarının mövcudluğu mənə çox xoş təsir bağışladı".

Lydiah Gatere COP29-un uğurlu təşkilatçılığına görə Azərbaycana təşəkkür edərək, inkişaf etməkdə olan ölkələr üçün belə tədbirlərin nə qədər vacib olduğunu bir daha vurğulayıb.

## *Çikaqo Universitetinin tələbəsi:* "COP29 Azərbaycanın daha da tanıdılması üçün əla fürsət yaradır"

**"COP29 konfransının builki əsas mövzusu iqlim maliyyəsidir. Məqsəd inkişaf etməkdə olan ölkələrə, xüsusilə itki və zərərlərin azaldılması və adaptasiya sahələrində daha geniş iqlim maliyyəsi ayrılmasına dair razılaşmaların əldə edilməsidir. Hazırda hökumətlərin qeyri-sabitliyi nəzərə alındığında, bu ölkələr üçün yeni məqsədlərin müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir".**



Bu fikirləri COP29 çərçivəsində ölkəmizə gələn Çin nümayəndəsi, Çikaqo Universitetinin tələbəsi Ketrin verdiyi müsahibəsində vurğulayıb.

O, COP29-un təşkilatçılığı ilə bağlı fikirlərini belə ifadə edib: "Konfrans mükəmməl şəkildə təşkil olunub. Xüsusilə nəqliyyat marşrutlarının müasir və səmərəli təşkili iştirakçıların rahat şəkildə hərəkət etməsinə imkan verir. Bu sammit eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə daha geniş tanıdılması üçün əla bir fürsət yaradır. "yaşıl zona"dakı konfransın təşkili əcnəbi ziyarətçilər və yerli əhali arasında uğurlu bir inteqrasiya modelini təqdim edir, bu da müxtəlif mədəniyyətlərin və fərqli təcrübələrin harmoniyasını təmin edən önəmli bir yanaşmadır".

## *Engin Altan DÜZYATAN:* "Azərbaycan bu mühüm tədbiri qısa müddətdə yüksək səviyyədə təşkil edib"

**"Azərbaycanı təbrik etmək lazımdır, bu mühüm tədbiri çox qısa müddətdə yüksək səviyyədə təşkil edib və buraya gələn hər kəsi məmnun etməyi bacarıb".**



Bu sözləri türkiyəli məşhur aktyor Engin Altan Düzyatan deyib.

İqlim dəyişmələrinə qarşı mübarizənin çox vacib proses olduğunu söyləyən aktyor qeyd edib: "Çünki bilirik ki, gələn il ABŞ COP-dan və Paris Sazişindən ayrılmağı düşünür. Bu il xüsusilə ada ölkələrinin ehtiyacı olan məbləğ üçün danışıqlar davam edir. İqlim dəyişmələrinin təsirlərini dünyanın müxtəlif yerlərində hiss edirik. Amma ən böyük çətinliyi, əslində, ada ölkələri çəkir. Çünki dəniz səviyyəsinin bir metr qalxması ilə ölkələr yoxolma təhlükəsi ilə üz-üzədir. Ümid edirəm ki, bu danışıqların nəticəsi yaxşı olacaq, ada dövlətləri və digər ölkələr üçün lazımi vəsait tapılacaq. Əlbəttə ki, burada dövlətlər arasında da mühüm danışıqlar aparılır. Bu danışıqların yaxşı keçməsini və hər kəsi məmnun edəcək nəticələrlə başa çatmasını arzulayıram. Burada vətəndaşlar və dövlətlər olaraq bizim də üzərimizə bir sıra vəzifələr düşür. Fərdi şəxslər olaraq əlimizdən gələni etməliyik. Dövlətlər də əllərindən gələni etdiyi müddətdə ümidvaram ki, bu prosesi daha da yavaşladıb və problemləri aradan qaldırmaq istiqamətində hamımız birlikdə addım atacağıq".














COP29 Baku Azerbaijan

## Dünya mediası COP29-dan yazır

# "Ümidimiz Bakıdır"

**10 gündür COP-29-a qucaq açan Azərbaycan möhtəşəm evsahibliyi ilə bir daha sübut etdi ki, Cənubi Qafqazın lider ölkəsi kimi istənilən beynəlxalq konfransı, sammiti ən layiqli şəkildə reallaşdırmaq bacarığına, təcrübəsinə sahibdir. Ölkəmizə təşrif buyuran əcnəbi qonaqların, sammit iştirakçılarının səsləndirdikləri fikirlərin əksəriyyətində Azərbaycanın beynəlxalq konfransların keçirilməsində böyük təcrübəyə sahib olduğu, xalqımızın qonaqpərvərliyi xüsusi olaraq vurğulanır.**

Elə xarici mediada dərc edilən məqalələr də bunu deməyə əsas verir ki, ölkəmizin COP29-a uğurla evsahibliyi etməsi dünya KİV-inin diqqət mərkəzindədir. Belə ki, bir sıra beynəlxalq mətbuatda yayımlanan məqalələr və reportajlarda qeyd olunur ki, Bakıda keçirilən tədbir qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək xüsusi hadisələr və təşəbbüslərlə yadda qalmaqdadır. Onlardan bəzilərini diqqətə çatdırırıq.

Almaniyanın **"Zeit" qəzeti** yazıb ki, rəsmi Berlin iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə yardım etmək üçün beynəlxalq iqlim fonduna əlavə 60 milyon avro vəsait ayıracaq. Bu barədə Azərbaycanda keçirilən COP29-da Almaniyanın Ətraf Mühit və Xarici İşlər nazirlikləri birgə məlumat yayıb. Məlumatda qeyd olunub ki, ayrılacaq vəsait hər iki nazirlik tərəfindən maliyyələşdiriləcək. Həmçinin bildirilib ki, Almaniya itki və zərərlərlə mübarizədə ən böyük donordur. Bu ölkə 2010-cu ildən etibarən İtki və Zərərlərə Cavab Fondunun layihələrinə, o cümlədən inkişaf etməkdə olan ölkələrin ən həssas icmalarında 45 milyondan çox istifadəçiyə xidmət göstərən 180-dən artıq xüsusi layihəyə ümumilikdə 1,2 milyard ABŞ dolları ayırıb.

Məqalədə vurğulanıb ki, Bakıda keçirilən COP29-da iqlim dəyişmələrinin təsirlərinə qarşı mübarizə üçün daha böyük vəsaitin ayrılması məsələsi müzakirə olunur: "BMT ekspertlərinin fikrincə, qlobal istiləşməyə uyğunlaşmaq və onun nəticələrini aradan qaldırmaq üçün inkişaf etməkdə olan ölkələrə hər il təxminən 1,3 trilyon dollar lazımdır".

Qeyd edək ki, məqalədə Almaniyanın xarici işlər naziri Annalena Berbokun (Yaşıllar partiyası) Bakıdakı iqlim konfransında aparılan müzakirələr barədə fikirləri də təqdim olunub. O, Bakıda gərgin iqlim müzakirələrinin aparıldığını vurğulayaraq bildirib: "Texniki məsələlərlə bağlı müzakirələrdə müəyyən irəliləyiş var, lakin qarşıdakı bir neçə gündə hələ çox iş görülməlidir".

Almaniyanın və Avropanın qlobal iqlim dəyişmələrinə qarşı mübarizənin maliyyələşdirilməsində etibarlı tərəfdaşlar kimi öhdəliyinin hələ də qüvvədə olduğunu vurğulayan nazir qeyd edib: "Yeni əsas emissiya istehsalçıları həm istixana qazlarının azaldılmasında, həm də iqlimin maliyyələşdirilməsində məsuliyyətlərini öz üzərilərinə götürməlidir".

Böyük Britaniyanın məşhur **BBC televiziyası** da Bakıdan davamlı olaraq canlı yayımlar edir. Eləcə də tədbirdə səslənən önəmli fikirləri paylaşır. Nəşrin son paylaşımında qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin "neft dövləti" kimi göstərilməsinə etiraz edir: "Çünki Azərbaycan dünya qazının cəmi 0,1 faizini istehsal edir".

Türkiyənin **"Haber Global" telekanalının** Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı hazırladığı süjetdə qeyd olunub ki, türk dövlətlərindən olan alimlər Bakıya toplaşıblar. Onlar təbii fəlakətlərin qarşısını almaq üçün erkən xəbərdarlıq sistemi üzərində işləyirlər. Bildirilib ki, iqlim dəyişikliyi təbii fəlakətlərin sayını artırır: "Qarşıdakı dövrdə bu tendensiya davam edəcək. Odur ki, təbii fəlakətlərin sayının azalması çox vacibdir. Bu məsələdə mütəxəssislərin öhdəsinə böyük iş düşür". Qeyd olunub ki, Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin erkən xəbərdarlıq sisteminin yaradılması üzərində işlər davam edir.

Braziliyanın **"Valor" qəzetində** isə yazılıb ki, Bakıda təxminən 2,5 milyon sakin yaşayır. Azərbaycan dili ölkəyə gələn çox az adama tanışdır. Lakin sakinlər COP29-un on minlərlə iştirakçısını istiqanlılıqla, jestlərlə və mehribanlıqla qarşılayır və bacardıqları qədər kömək edirlər: "Konfransın keçirildiyi Bakı stadionunda çoxsaylı gənc könüllü ingilis dilində danışır, "Ulduz döyüşləri"ndəki işıq qılınclarına bənzər çubuqları ilə yol göstərir və həmişə gülümsəyirlər. Bu, iştirakçıların özlərini evdəki kimi hiss etməsinə səbəb olur".

Qeyd edilib ki, Bakının 25 min yerlik mehmanxana infrastrukturu tam dolub. Dövlət və hökumət başçıları (80 nəfər gəlib) üçün səkkiz elit otel rezerv edilib. "Onlar ev tapşırığını yerinə yetirdilər: məsləhətçilər işə götürdülər, tapşırığın miqyasını qiymətləndirdilər və tez hazırlaşdılar, çünki konfransın başlamasına 12 aydan az vaxt qaldığını bilirdilər" - müəllif Azərbaycanın iqlim konfransına hazırlığı barədə fikirlərini bölüşən Braziliyanın Azərbaycandakı səfiri Manuel Monteneqroya istinadən yazır.

Materialda qeyd olunub ki, tədbirdən əvvəl dövlət qulluqçularını motivasiya etmək və əhalinin məlumatlılığını artırmaq üçün dövlət qurumları daxilində COP-un əhəmiyyəti barədə məlumatlandırma kampaniyası aparılıb.

"Burada böyük tədbirlər üçün kadr hazırlığı ənənəsi var. Azərbaycanda artıq Avropa Oyunları keçirilib, hər il "Formula-1" yarışları keçirilir, amma bu miqyasda tədbir hələ olmayıb", - səfir sözünə davam edir. Prospektlərdə nümayəndələr, jurnalistlər, ekoloqlar, yerli xalqların nümayəndələri, tələbələr və alimlərin tıxaclardan yan keçə bilməsi məqsədilə yalnız COP nəqliyyatının istifadəsi üçün xüsusi zolaq ayrılıb. Avtobuslar idxal edilib, rəsmi tədbirin strukturu təşkil edilib. Bir sözlə, hazırlaşıblar", - M.Monteneqro deyir.














































Yunanıstanın **"İmidones" xəbər portalı** BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda işə başlaması ilə bağlı reportaj hazırlayıb. Sayt iqlim dəyişmələri ilə mübarizə üzrə konkret addımları müzakirə etmək üçün dünyanın hər yerindən dövlət və hökumət başçılarının, alimlərin və ekoloji fəalların Bakıda toplaşdığını qeyd edib: "Tarixi COP29-un gündəliyinə atmosfer emissiyalarının qlobal şəkildə azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma addımları və "iqlim ədalətinin" təmin edilməsi kimi mühüm mövzular daxildir. Ekoloji böhrana qarşı müqavimət göstərməyə getdikcə daha az vaxt qalıb, ona görə də beynəlxalq ictimaiyyət Bakıdakı müzakirələrdən maksimum nəticə gözləyir. Ümidimiz Bakıdır!".

Xorvatiyanın **"Jutarni List" portalı** isə Azərbaycan Prezidenti İlham Əliyevin COP29-da çıxışını geniş yayıb. Xüsusilə Prezident İlham Əliyevin Liderlər Sammitinin açılış mərasimindəki çıxışında COP29-a evsahibliyi edən ölkəmizə ünvanlanan tənqidlərə sərt cavab verdiyi vurğulanır. Dövlətimizin başçısının təbii sərvətlərin Tanrının bəxş etdiyi hədiyyə olduğunu vurğuladığı bildirilir. Prezident İlham Əliyevin 2022-ci il enerji böhranından sonra məhz Avropa İttifaqının Azərbaycandan daha çox təbii qaz tədarük etməsini xahiş etdiyini xatırlatdığı qeyd olunub.

Meksikanın ən çox oxunan nəşrlərindən **"El Universal" qəzetində** Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı məqalə dərc edilib. Manşetdən təqdim edilən məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına xüsusi yer ayrılıb, orada səslənən fikirlər maraqla qarşılanıb. Prezident İlham Əliyevin sözlərinə istinadla qeyd edilib ki, neft və qaz Tanrının bəxş etdiyi təbii sərvətdir və ölkələr malik olduqları təbii sərvətlərə görə günahlandırılmamalı və onları bazara çıxardıqlarına görə suçlanmamalıdır. Məqalədə həmçinin iqlimşünasların və ekoloqların karbohidrogenlərin iqlim dəyişikliyinə qarşı mübarizə ilə bir araya sığmadığını israr etdiyi qeyd olunub və dövlətimizin başçısının çıxışından sitat gətirilərək, Avropa İttifaqının özünün bundan iki il əvvəl qaz ixracının ikiqat artırılmasını tələb etdiyi bildirilib.

Səudiyyə Ərəbistanının nüfuzlu **"Ər-Riyad" qəzeti** isə oxucularını Almaniyanın xarici işlər naziri Annalena Berbokun açıqlamaları ilə tanış edib. Qəzetin "Dünya liderləri COP29 konfransında toplanırlar" başlıqlı məqaləsində BMT-nin illik iqlim konfransının inkişaf etməkdə olan ölkələrə istixana qazlarının emissiyalarını azaltmaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün yeni maliyyə yardımının hədəflənməsi ilə yekunlaşmalı olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, yeni hədəf 2009-cu ildə qarşıya qoyulan və 2022-ci ildə çətinliklə reallaşdırılan yüz milyard dollarlıq hədəfi əvəz edəcək.

Səudiyyə Ərəbistanı Krallığının nüfuzlu **"Əş-Şərq Əl-Avsət" qəzetində** "Azərbaycanda BMT-nin COP29 iqlim konfransı keçirilir" sərlövhəsi ilə silsilə məqalələr dərc olunub. Materiallarda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) noyabrın 22-dək davam edəcəyi qeyd olunub.

Qəzet diqqətə çatdırıb ki, dünyanın hər yerindən olan diplomatlar iqlim sammitində iştirak etmək, iqlim dəyişikliyinin yaratdığı artan təhlükələrin qarşısını almaq yollarını müzakirə etmək üçün paytaxt Bakıya axışırlar. Azərbaycan 1846-cı ildə ilk neft yataqlarının işləndiyi yer kimi tanınır, 1899-cu ildə isə neft hasilatına görə dünyada lider olub. Qeyd olunur ki, Avropa İttifaqı Azərbaycan qazının idxalını 2027-ci ilə qədər iki dəfə artıraraq hər il onu 20 milyard kubmetrə çatdırmaq üçün müqavilə bağlayıb.

Tacikistanın məşhur **"Centralasia.news" portalında** yayımlanan məqalədə qeyd edilib ki, Azərbaycanın paytaxtında dünya ölkələrinin nümayəndələrini bir araya gətirən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası öz işini başa vurmaq üzrədir. COP29 qlobal iqlim siyasətinin müzakirəsi üçün ən nüfuzlu və genişmiqyaslı platformalardan biri kimi özünü təsdiq edib. Konfransda iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək və enerjiyə keçid prosesini sürətləndirmək üçün effektiv həllərin tapılmasına həsr olunmuş bir sıra müzakirələr aparılıb.

**Hazırladı:**
**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

COP29 Baku Azerbaijan

# Multikultural COP29




COP29
Baku
Azerbaijan

# "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin bəyanatı

"Qarabağ İtkin Ailələri" İctimai Birliyi 2024-cü il 15 noyabr tarixində BMT Baş Assambleyası tərəfindən "İtkin düşmüş şəxslər" qətnaməsinin qəbul edilməsini alqışlayır, sənədin əsas müəllifi olan Azərbaycan dövlətinə və onu dəstəkləmiş digər ölkələrə təşəkkürünü bildirir. Azərbaycanın irəli sürdüyü bu beynəlxalq təşəbbüs, eləcə də son illərdə ölkəmizdə itkin düşmüş şəxslər probleminə dair keçirilmiş beynəlxalq tədbirlər bu problemi beynəlxalq gündəlikdə saxlamaqla onun həllini tapması ilə bağlı ümidlərimizi artırır.

Qətnamədə insanların itkin düşməsinin onların ailələrinin ağır əzablarına və bir çox insan haqları pozuntularına səbəb olmasının vurğulanması bizim üçün çox önəmlidir. İllərlə davam edən bu problem itkinlərin ailələrinin gözünü yolda qoymaqla yanaşı, bizim ailə birliyimizin və doğmalarımızın aqibətini bilmək hüququmuzun pozulmasına səbəb olur.

Qətnamə dövlətləri insanların itkin düşməsinin qarşısını almaq, itkin düşmə səbəblərini düzgün şəkildə araşdırmaq və itkinlərin taleyini aydınlaşdırmaq üçün bütün lazımi tədbirləri görməyə çağırmaqla yanaşı, itkin ailələrinə dəstək verilməsi və onlarla əməkdaşlıq edilməsi kimi vacib məqamlara toxunur.

Məlum olduğu kimi, Birinci Qarabağ müharibəsi zamanı dörd minə yaxın, İkinci Qarabağ müharibəsində isə 6 soydaşımız itkin düşmüşdür, onlar arasında uşaqlar və qadınlar da vardır. Birinci Qarabağ müharibəsində 61 ailənin 2-dən 7-dək üzvü itkin düşmüş və onlar barədə Ermənistan tərəfindən bu illər ərzində bizə heç bir məlumat verilməmişdir. Bu hal azərbaycanlı itkinlərin ailələrinin böyük bir insanlıq faciəsi ilə üzləşməsinin göstəricisidir.

Torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi Azərbaycan hökumətinə bu ərazilərdə itkin düşmüş şəxslərin axtarışını, insan qalıqlarının aşkar edilməsini və identifikasiyasını həyata keçirməyə imkan yaradıb. Görülən işlər illərlə gözümüzü yolda qoyan xəbərsizliyin bitməsi üçün böyük ümidlər yaratsa da, Ermənistanın ehtimal olunan kütləvi məzar yerləri barədə məlumatları Azərbaycan tərəfinə təqdim etməməsi səbəbindən işğaldan azad edilmiş ərazilərdə ötən müddət ərzində cəmi 22 kütləvi məzarlığın aşkarlanmasının mümkün olması bizi hədsiz dərəcədə məyus etmiş, əzizlərimizin insanlığa sığmayan rəftara məruz qalaraq öldürülməsi və nəşlərinin kütləvi məzarlarda illərlə gizlədilməsi faktı üzləşdiyimiz haqsızlığın nə qədər böyük olduğunu bir daha sübut edib.

Biz itkin-şəhidlərimizin qalıqlarının axtarılması, identifikasiyası və ailələrinə təhvil verilərək, şəhid adına layiq şəkildə dəfn mərasimlərinin təşkilinə görə dövlətimizə minnətdarıq. Artıq bir sıra itkin ailələri otuz ilə yaxın davam edən həsrətə son verərək, xəbərsizlikdən doğan faciələrini öz əzizlərinin məzar daşına sahib olmaq təsəllisi ilə əvəz edə bildikləri üçün bir az da olsa rahatlıq tapa bilmişlər. Lakin bu təsəllini gözləyən minlərlə itkin ailəsinin gözü hələ də yoldadır.

BMT tərəfindən qəbul edilmiş sənəddə həmçinin mina probleminin itkinlərin taleyinin aydınlaşdırılmasına törətdiyi əngəllərlə bağlı narahatlığın ifadə edilməsi və dövlətlərin insan qalıqlarının təhlükəsiz şəkildə axtarışı üçün əməkdaşlıq etməyə çağırılması bizim üçün önəmlidir. Biz öz təcrübəmizdən bilirik ki, azərbaycanlı köçkünlər torpaqlarımızın artıq dörd ildən çox müddətdir azad olmasına baxmayaraq, mina təhlükəsi səbəbindən hələ də torpaq həsrəti çəkir. Bu amansız tələ dörd il ərzində 400-ə yaxın soydaşımızın ölümünə və yaralanmasına səbəb olmaqla yanaşı, bu ərazilərdə görülən bütün işlərə, o cümlədən itkinlərin qalıqlarının axtarışına mane olur.

Biz "Qarabağ İtkin Ailələri" İctimai Birliyi bir daha Ermənistan tərəfini itkinlərin taleyinin aydınlaşdırılması istiqamətində beynəlxalq öhdəliklərini, eləcə də BMT Baş Assambleyası tərəfindən "İtkin düşmüş şəxslər" qətnaməsinin tələblərini yerinə yetirməyə çağırır, hüquqlarımızın 30 ildən çox davam edən pozuntusuna son verməyi, kütləvi məzarlıqların yerləri barədə məlumat verməyi və bu cinayətləri törədənləri cəzalandırmağı tələb edirik. Hər bir itkin ailəsinin öz doğmasının aqibətini bilmək hüququ vardır!"

# İsveçrə şirkətinin COP29-da iştirak edən nümayəndə heyəti Ağstafada olmuşdur

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən panel müzakirələr üçün Azərbaycanda işgüzar səfərdə olan İsveçrənin "iCsquared GmbH" şirkətinin prezidenti Zoltan Ştuçlikin başçılıq etdiyi nümayəndə heyəti Ağstafa rayonuna səfər edib.**



Qonaqlarla görüşən rayon icra hakimiyyətinin başçısı Seymur Orucov ölkələrimiz arasındakı iqtisadi münasibətlərdən söz açaraq şirkətin Ağstafada icra edəcəyi beynəlxalq layihələrin regionda aqrar sahənin inkişafına böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə ABAK-da (Ağstafa Beynəlxalq Aqroklasterlər) VASSERŞTAYN İsveçrə-Azərbaycan Plantasiyaları çərçivəsində həyata keçiriləcək layihələr çərçivəsində ayrılacaq torpaq sahələri, özünüməşğulluğun təmin edilməsi məqsədilə işlərə yerli sakinlərin cəlb olunması, suvarmaya əlçatanlıq, maşın-mexanizmlərdən istifadə və s. bu kimi vacib məsələlər müzakirə olunmuşdur.

Qonaqlara Azərbaycanın milli-mənəvi dəyərlərini təcəssüm etdirən hədiyyələr təqdim edildikdən sonra onlar Ağstafadakı Heydər Əliyev Mərkəzini ziyarət etmişlər.

Görüş rayonun mədəniyyət və incəsənət nümayəndələrinin klassik və milli musiqilərimizdən ibarət konsert proqramı ilə başa çatmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz olacaq

**Azərbaycanda noyabrın 21-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər və axşam bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-11° isti, gündüz 12-15° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 762 mm civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında az çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8° isti, gündüz 13-18° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, dağlıq ərazilərdə 2° şaxta, gündüz 12-17° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 9-14° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, dağlıq ərazilərdə 3° şaxta, gündüz 9-14° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 12-17° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında az çiskinli olacağı ehtimalı var.

Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° isti, gündüz 11-16° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8° isti, gündüz 13-18° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-8° isti, gündüz 11-16° isti, dağlarda gecə 3-6° isti, gündüz 11-16° isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycan Haaqa Məhkəməsində Ermənistanla bağlı iddia qaldırıb

**Azərbaycan hökuməti Enerji Xartiyası Müqaviləsi çərçivəsində və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, Ermənistana qarşı Daimi Arbitraj Məhkəməsinə (Haaqada yerləşən) Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən çoxsaylı pozuntuların təfərrüatlarını əks etdirən əsas iddia sənədini təqdim edib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, bu iddia sənədi, 2023-cü il fevralın 27-də Azərbaycanın Ermənistana Arbitraj haqqında Bildiriş göndərdiyi zaman başlamış beynəlxalq məhkəmə prosesi çərçivəsində son inkişafdır. Arbitraj məhkəməsi 2023-cü il sentyabrın 8-də təsis edilib və Azərbaycanla Ermənistan arasında ilk prosessual görüş bu il yanvarın 12-də keçirilib.

Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin otuz ilə yaxın qanunsuz işğalı zamanı Azərbaycanın bu ərazilərdə öz enerji resurslarına çıxışına və ya onların inkişaf etdirilməsinə mane olub. Bunun əksinə, Ermənistan həmin resurslardan öz mənfəəti üçün istifadə edib.

Ermənistanın beynəlxalq hüququn normalarını pozma halları arasında xüsusilə onun onilliklər ərzində Azərbaycanın əhəmiyyətli bərpaolunan enerji layihələrinə çıxışına və ya onlardan faydalanmasına icazə verməkdən imtina etməsini qeyd etmək olar. Bunlara əvvəllər işğal olunmuş Ağdərə rayonundakı Sərsəng Su Anbarında yerləşən Tərtər Su-Elektrik Stansiyası, İranla sərhəddə, Azərbaycanın keçmiş işğal olunmuş Cəbrayıl rayonunda yerləşən Xudafərin və Qız Qalası su-elektrik stansiyaları layihələri, həmçinin əvvəllər istifadə olunmamış enerji potensialı, hidroenergetika daxil olmaqla bərpaolunan enerji mənbələri, habelə digər resurslar daxildir.

Ermənistan tərəfi işğal dövründə Tərtər Su-Elektrik Stansiyasını istismar edən qurumları qanunsuz lisenziyalaşdırıb və tənzimləyib, bu enerji mənbəyini qanunsuz olaraq öz daxili elektrik şəbəkəsi ilə əlaqələndirib və əlavə enerjini daxili enerji istehlakı üçün Ermənistana yönləndirib. Bundan əlavə, Ermənistan Azərbaycanın Xudafərin və Qız Qalası layihə sahələrinə girişinə mane olmaqla bu mühüm hidroenergetika layihələrinin tamamlanmasını 30 il gecikdirib və Azərbaycanın bərpaolunan enerji sektorunun inkişafına maneçilik törədib.

Azərbaycan öz enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən pozulması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrinin Ermənistan tərəfindən qanunsuz istismarına və zərər vurulmasına görə təzminat tələb olunması fəaliyyətini davam edəcəkdir.

# Aİİ-nin tələbələri beynəlxalq Olimpiadada iştirak ediblər

**Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) tələbələri Beynəlxalq Olimpiadada iştirak ediblər. Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində ilahiyyat sahəsi üzrə təhsil alan tələbələr arasında XVII Beynəlxalq Olimpiada keçirilib. Qeyd edək ki, Olimpiada Rusiya İslam İnstitutu, İslam Mədəniyyəti, Elm və Təhsilə Dəstək Fondu və Məhəmməd ibn Zeyd adına Humanitar Elmlər Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.**




"BRICS" ölkələri və tərəfdaşlarının qatıldığı müsabiqəyə Qazaxıstan, Tacikistan, Özbəkistan, Qırğızıstan, Türkiyə, Hindistan, İndoneziya və Rusiyadan iştirakçılar dəvət olunublar.

Sözügedən beynəlxalq tədbirə Aİİ-dən münsif qismində xarici əlaqələr üzrə mütəxəssis Şəms Bağırova, iştirakçı qismində II kurs tələbəsi Sahib Qənbərov, III kurs tələbələri Yusif Vahabov, Sadiq Babayev, Əli Nəzərov qatılıblar.

İştirakçılar islam hüququ, dinin əsasları və ərəb dili istiqamətləri üzrə sualları cavablandırıblar. İlahiyyat İnstitutunun tələbələri fəallıqları ilə seçiliblər. Aİİ-nin tələbəsi Sadiq Babayev müsabiqədə uğurlu iştirakına görə, Rusiya İslam İnstitutunun rektoru tərəfindən xüsusi hədiyyə ilə mükafatlandırılıb.

Olimpiada çərçivəsində "İslami fənlərin tədrisində "BRICS" ölkələrinin İslam ali təhsil müəssisələrinin təcrübəsi" mövzusunda "dəyirmi masa", habelə qonaqlar üçün Kazan şəhərində yerləşən Qul Şərif və Mərcani məscidlərinə, eləcə də Kazan Milli Kitabxanası və Kazan Kremlinə ekskursiya təşkil olunub.

***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Abşeron rayon Vəkil Bürosunun kollektivi Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini Aydın Axundova qardaşı

**AKİF AXUNDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədr müavini Aydın Axundova qardaşı

**AKİF AXUNDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

COP29 Baku Azerbaijan


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4219
Sifariş 2650
Qiyməti 60 qəpik